Sevinc Nuruqızı

# Zəfər nəğməsi
# Şuşa




İllüstrator:
Aida Əmirova

3 alma

Sevinc Nuruqızı

# Zəfər nəğməsi
# ŞUŞA



*İllüstrator:*
*Aida Əmirova*

QAF

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 124286

3 alma

84(5 Aze) + 63.3(5 Aze) 622,8
N 91



Redaktor: Bəhmən Əliyev,
*tarix üzrə fəlsəfə doktoru, etnoqraf, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, dosent*
Korrektor: Günel Muxtarova
Dizayner: Sevinc Ələkbərova
Layihə rəhbəri: Arzu Cəfərova

Azərbaycan dilində birinci nəşri
10 9 8 7 6 5 4 3 2 1

**Sevinc Nuruqızı. Zəfər nəğməsi – Şuşa.**
**Bakı, TEAS Press Nəşriyyat evi, 2022.**

**ISBN 978-9952-540-60-4**

Kitabda yazıçı Sevinc Nuruqızının Birinci və İkinci Qarabağ müharibəsinə həsr olunmuş povest, pyes və hekayələri təqdim edilir. Əsərlər zəngin bədiiliyi, fəlsəfi məzmunu, eyni zamanda, həyatiliyi və canlılığı ilə seçilir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab TEAS Press Nəşriyyat evində çapa hazırlanıb. Kitabın Azərbaycan dilində nəşri və başqa dillərə tərcüməsi hüququ TEAS Press Nəşriyyat evinə məxsusdur.

TEAS Press Nəşriyyat evi "3 alma" əmtəə nişanı ilə azyaşlı uşaqlar, yeniyetmə və gənclər, eləcə də müəllim və valideynlər üçün bədii və elmi-kütləvi kitablar nəşr edir.

www.teaspress.az
www.3alma.az

Bütün hüquqlar qorunur
© TEAS Press Nəşriyyat evi, 2022

Türkiyədə çap edilib

"3 alma" TEAS Press Nəşriyyat evinə məxsus əmtəə nişanıdır



# MÜNDƏRİCAT



*Savaşın içində (Ön söz)* 5

Dağlar qoynunda zəfər 7
Zəfər nəğməsi – Şuşa 9

Uşaqların müharibə acısı 55
Qaranquşların naləsi 57
Sərçə 63
Burmabuynuz 69
Çocuq məzarlığında durna laylası 77
Edam 85
Günəş, buludlar və Ağca 93
Günəşin hədiyyəsi 97
Oyuncaq ayı balası 101

Qadınların müharibə ağrısı 121
Şuşaya qalxan sıldırımda 123
Qaraqaya 127
Qəbirdə doğulan uşaq 133
Al çobanyastığı ləçəkləri 137



Döyüşçü ürəyi 165
Cənnətdə 167
Söz 175
O, işıq idi! 183
Sən nəğmə idin! 187
Sən sevgisən, Vətən! 191
Ağ uçuq zirvəsi uğrunda şəhadət 199
Şəhadətin zirvəsi – Vətən 207
Xilaskar əsgər 217
44 günlük müharibədən ştrixlər 223

# SAVAŞIN İÇİNDƏ

Diqqətlə baxanda görürsən ki, dünya tarixi elə müharibələrdən ibarətdir. İki dövlətin müharibəsi, bir neçə dövlətin müharibəsi, hərbi bloklara qoşulan dövlətlərin müharibəsi, dünya müharibələri... Az qala bütün tarix müharibələrlə başlayıb, müharibələrlə bitir... Hadisələr o qədər sürətlə cövlan edir, bəşəriyyət elə dəhşətlərlə üzləşir ki, tarix insan talelərinə yalnız statistika hesabı ilə baxır: bu qədər adam öldü, bu qədər adam yaralandı... Bəlkə də, bəşəriyyət müharibə od-alovunun içinə düşmüş insanların taleyinə fərd olaraq baxsaydı, fərqli bir dünyanı görərdik. Amma nə qədər qəribə olsa da, bir çox hallarda müharibənin ağrısı-acısı içində qovrulan insanın taleyi bəşəriyyəti elə də maraqlandırmır...

Müharibə alovuna düşən insanın taleyini bəşəriyyətin diqqətinə çatdıran ədəbiyyatdır. Bəlkə də, ədəbiyyat olmasaydı, sülh müqavilələri, sülh danışıqları olmazdı... Ədəbiyyat xalqların, fərdlərin üzləşdiyi savaş fəlakətini indiki nəsillərə xatırladır, gələcək nəsillərə çatdırır. Azərbaycan ədəbiyyatı Qarabağ müharibəsinin dərdini-sərini əks etdirməklə keçmişlə gələcək arasında mənəvi əlaqə qurur, torpaqlarının işğalı ilə üzləşən azərbaycanlının duyğuları kitabların səhifələrinə köçür.

Sevinc Nuruqızının bu kitabında yer alan povest, pyes və hekayələrin mövzusu müharibədir. Kitabda Birinci və İkinci Qarabağ müharibəsindən götürülmüş hadisə və olaylar yazıçı təxəyyülündən keçərək bədii şəkildə canlandırılmışdır. Hekayələri və povesti oxuyanda hər sətirdə müharibənin ağrısını-acısını yaşayanları görürsən. Hiss-həyəcanla dolu, fəlsəfi ruhda yazılmış əsərlərdə şəhid olmuş, köçkünlük həyatı yaşayan, yetim qalmış uşaqların

taleyi, dərdi təsvir olunur. Xocalı dərdinə dözməyən qaranquşlar nalə çəkir, Gəncə raketlə vurulanda körpə Xədicənin yetim qalmış oyuncaq ayı balası qəm-qüssədən dilə gəlir...

Bəlkə də, müharibənin ən böyük dərdi, yükü qadınların, qızların, anaların üzərindədir. Ağdabandakı çocuq məzarlığında durnalar layla deyir. Bu durnalar düşmən əlinə düşməmək üçün özünü qayalardan atmış analardır. Bu analar durnaya çevrilməklərinə sevinirlər, bu analar işğal altındakı çocuq məzarlarını yalqız-yetim qoymurlar... Hərbçi oğlunu boya-başa çatdıran ana da ürəyinə daş basır ki, balasının şəhadətinə dözsün, çünki Vətənsizliyə, Torpaqsızlığa, İşğala dözmək mümkün deyil...

Xalqımız neçə illərdir ki, özünün torpaq həsrətli, şəhid nisgilli nəğmələrini oxuyur. Bu gün isə həmin nəğmələr işığa dönən cənnətməkan oğulların Zəfər himnlərinə çevrilib.

Kitabda Qarabağ uğrunda qanlı döyüşlərə girib vuruşan-çarpışan, düşmənə diz çökdürən Azərbaycan oğullarının igidliyi təsvir olunur, xüsusilə Şuşa uğrunda savaş, əsgər və zabitlərimizin döyüş yolu real şəkildə təqdim edilir. Kitabın ən maraqlı cəhətlərindən biri budur ki, Sevinc Nuruqızı müharibəni o od-alovun içində olanların hiss-həyəcanı ilə canlandırır, onların gözü ilə savaşa, dünyaya baxır.

İnanıram ki, müharibənin ağrı-acısını, savaşın ruhunu əks etdirən bu kitab – "Zəfər nəğməsi – Şuşa" oxucuların ürəyindən xəbər verəcək.

*Bəhmən Əliyev,*
tarix üzrə fəlsəfə doktoru, etnoqraf,
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya
İnstitutunun aparıcı elmi işçisi, dosent





*Gənc dost! Bu əsəri yazanda səni düşündüm... Düşündüm ki, yurdun gələcəyi sənin əllərindədir. Əsərdəki qəhrəmanların canı-qanı bahasına bütöv etdikləri Vətən sənə əmanətdir! Sən də bugünkü qəhrəmanları – Şuşa savaşçılarını yaxından tanımalısan. Onlar xəyali qəhrəmanlar deyil. Real qəhrəmanlardır. Onlar sənin ətrafındadırlar. Qardaşın, dostun, doğman, tanışın, qonşundur... Onlar nağıllardan, rəvayətlərdən gəlməyiblər. Hər gün metroda, avtobusda, yolda, harada olmusansa, orada görmüsən onları... Əfsanələrdəki qəhrəmanlar deyil, amma əfsanəvi qəhrəmanlardır. Qanla Vətənin ən yeni tarixini yazanlardır...*

*Superqəhrəmanları sevdiyini yaxşı bilirəm. Onlara bənzəmək istədiyini də. Onların super gücü real deyil. Onlar möcüzələrlə dolu nağıl dünyasının qəhrəmanlarıdır. Amma bu əsər real superqəhrəmanlar haqqındadır. Bu ən yeni bir zəfər döyüşü haqqında super əhvalatdır. Müasir, real, inanılmaz, coşqulu və sevgi dolu. Nəfəs qədər yaxın tariximizin qəhrəmanlıq dastanı... Əsəri diqqətlə oxu, incələ, sonra təəssüratlarını bölüş. Dostlarınla müzakirə et. Hansına bənzəmək istədin, hansının qəhrəmanlığı səni heyrətə gətirdi? Hansının şücaətini təkrarlamaq keçdi qəlbindən?! Sənin əfsanəvi superqəhrəmanların bu əsərdəki igidlərin etdiklərini edə bilərmi?! Qarşına o qədər sual çıxacaq ki... Qəlbin elə böyük qürur hissi ilə dolacaq ki... Elə tez böyümək istəyəcəksən ki... Ən əsası, onlardan ən böyük sevginin – Vətən sevgisinin nə olduğunu öyrənəcəksən. Vətəni candan çox sevməyin nə demək olduğunu anlayacaqsan. Vətən uğrunda şəhidlik zirvəsinə ucalmağın əbədi dirilik olduğuna əmin olacaqsan. Hər superqəhrəman sənə "Vətən sağ olsun" deməyi öyrədəcək.*

*Müasir, yenilməz, məğlubedilməz superqəhrəmanlar dünyasına xoş gəldin, gənc oxucu! Onların qəhrəmanlığını canına çək, ruhuna hopdur, xəyallarında yaşat. Hər an təkrar etmək üçün böyü! Sənə uğurlar!*

# ZƏFƏR NƏĞMƏSİ - ŞUŞA



Bu əsər Şuşanı işğaldan azad etmiş,
qoşunlarımızın önündə gedən, şəhərə ilk daxil olan,
400 xüsusi təyinatlıya ithaf edilir...

## ŞƏHADƏTİN ŞUŞA ZİRVƏSİ

Hərdən mənə elə gəlirdi ki, bizim Şuşa qarşısındakı günahımızı heç nə yuya bilməz. İllərin nisgili, ağrı-acısı, həsrəti ilə Şuşanı elə incitmişik ki... Elə ağrıtmışıq ki... Amma yudu... Şəhidlərimizin müqəddəs qanı yudu bu günahı. Şuşanın yolunda şəhadət ən mübarək şəhadətdir... Yerdə yox, göydə şəhadətdir.

Şuşa sıldırım qayaların üstündədir... Dağların boynuna dolana-dolana qalxan yolun yerdən uzaqlaşdıqca müqəddəsliyə yaxınlaşdığını düşünmüşəm həmişə... Düşünmüşəm ki, Şuşa bizi öz yüksəkliyi ilə Yaradana daha da yaxınlaşdırır... Həmişə mənə elə gəlib ki, Şuşa bu yurdun mehrabıdır. Şuşa bizim günahlarımızın yuyulduğu yerdir.

Mən Rəbbimi göylərdə axtaranlardan olmuşam. Zaman-zaman Onun qəlbimə köçdüyünü dərk etsəm də, Onu axtaranda göy üzünə baxmışam. Həmişə düşünmüşəm ki, bu yurdun Rəbbinə gedən yolu məhz Şuşadan keçir. O dolamaları qalxanda səmaya bir pillə yaxın olursan, yerə bir pillə uzaq... Yer dənizin səviyyəsində qalır. Sən isə səmaya doğru gedirsən – dəniz səviyyəsindən kilometrlərlə yüksəyə... Bu, qanadsız uçmaqdan savayı bir şey deyil. Bu, sadəcə, ruhun yüksəlişinə doğru zümrüd rəngli qanadsız uçuşdur. Mənə həmişə elə gəlib ki, Cıdır düzü Yaradanla birbaşa ünsiyyət alanıdır. Və oradan arzular

daha yaxşı havalanır, xəyalların gerçəyə çevrilməyinə bir an qalır... Bəlkə də, Şuşanı itirəndən sonra belə düşünməyə başlamışam. Bəlkə də, günlərin bir günü xatirələrimi saf-çürük edəndə baxıb görmüşəm ki, Cıdır düzünün o nəfəs tutan gözəlliyində, yerlə göyün arasında, buludların əl çatacaq yüksəklikdə köç etdiyi məkanda, ağappaq duman ilə pərdələnən dağların qoynundan qalxan kəklikotu ətrinin hakim olduğu zirvədə mən daha xoşbəxt imişəm... Bu xoşbəxtlik həmin o yerlə göyün arasındaca mənim bütün düşüncəmə elə hopub ki! Onunla – "Rəbb" dediyimiz o ucalıqla ünsiyyətim qırılıb. Düşünmüşəm ki, Rəbbimə doğru qanadlanan arzularımda o kəklikotu ətri çatmır və yaxud əl çatacaq qədər yaxından keçən bulud köçünün sərinliyi yoxdur...

Şuşaya qalxanda Yerdən sürətlə aralandığımı zənn edərdim... Elə bilərdim ki, Şuşanın Yerlə heç bir əlaqəsi yoxdur. Onun çaydaşı döşənmiş küçələri ilə Cıdır düzünə qalxanda əsrarəngiz bir ortama düşərdim. Göylərə baxardım, qollarımı geniş açıb xarıbülbüllərin arası ilə qaçar, duman qaynayan dağların mənzərəsinə heyran olardım. Sonra özlüyümdə nağıllar düşünərdim. Düşünərdim ki, əl-ayaq çəkiləndə Cıdır düzündə mələklər rəqs edirlər. Havada uça-uça. Düşünərdim ki, bizdən fərqli olaraq, onlar bu zümrüd xalını ayaqlamazlar... Ayaqları gəlməz... Düşünərdim ki, hər gecə bu şəhərin dolanbac küçələrinə, Yer üzünə ulduzlar enər, bu ulduzların işığında Şuşa gözlərini yumar və ta o ulduzların işığını günəşin ılıq şüaları əvəz edənədək bu xoşbəxt yuxudan ayılmaz...

## ŞUŞA BİZƏ YADİGARDIR

...Pənahəli xan üç tərəfi sıldırım qayalarla əhatə olunmuş zümrüd rəngli gözəlliyin qoynunda atını cilovladı. At ucalıqdan və əzəmətdən vəcdə gəlmiş kimi şahə qalxdı.





Elə kişnədi ki, səsi dağların daş sinəsinə dəyib ətrafa səpələndi. Əks-səda verdi, uğuldadı. Sonra qabaq ayaqlarını qatlayıb yerə çökdü, qızılı haşiyəli ağ alnını çəmənin xarıbülbüllərlə naxışlanmış qoynuna qoydu. Pənahəli xan güldü:

– Hə, Qızıl, sən də sevdin buranı. Gəncliyimdən çox sevmişəm bu yerlərdə dolaşmağı. Burada bizim qədim yurd yerlərinin qalıqları var. Onların üzərində alınmaz bir qala ucaldaq. Qoy oğullarımız dağlarda doğulsun. Qartal kimi sıldırımlarda qanad çalsın. Qoy dağlar bizi düşməndən qorusun. Kürəyimiz dağa dirənsin, ayağımız ana torpağa...

At bir də şahə qalxdı. Pənahəli xana elə gəldi ki, at indicə qanadlanacaq. Əfsanələrdəki qanadlı atlar kimi... Amma şahə qalxmış at uçmadı, yerə endi. Qızılı-qəhvəyi bədəni alov dilimi kimi havada alışıb-yandı sanki. Pənahəli xan əlini onun boynunda gəzdirdi. Başına sığal çəkdi:

– Sən də razısan. Bəzən danışmağa dil lazım deyil ki. Mən səni qaçışından, yerişindən, duruşundan anlayıram. Nə demək istədiyini bir baxışından duyuram, dost. Qızıl, bu gündən bu dağlar bizim yurd yerimizdir...

*Haşiyə:*

*Üstündən çox az keçdi... Cəmi iki-üç ay... Pənahəli xan fikrində israrlı idi. Dağlar qoynunda qala ucaldacaqdı... 1750-ci ildə Şuşakənddən bir qədər aralı, hündür, sıldırım dağ üstündə qalanın tikintisinə başladı... Sədlər, istehkamlar, daş küçələr, hündür divarlar. Yerlə göyün arasında elə möhtəşəm bir qala-şəhər ucalırdı ki, təsviri dastanlara sığmazdı...*

*...Pənahəli xan yeni salınmış bu şəhəri özünə paytaxt etdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası", sonra sadəcə "Qala" və nəhayət, "Şuşa" adlandırıldı. Amma üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş bu şəhər həmişə düşmən nəfsini çəkdi üstünə. Həmişə düşmən hücumuna məruz qaldı. Qanlı döyüşlərin şahidi oldu.*

*Şuşanın taleyində ən qanlı hadisələrdən biri XIX əsrin əvvəllərində baş verdi. Qarabağ xanı İbrahimxəlil xan 1805-ci ildə çar Rusiyasının generalı Sisianovla Kürəkçay müqaviləsini imzaladı. Lakin ruslar xanı hakimiyyətdən uzaqlaşdırmağa çalışırdılar. İbrahimxəlil xanın Qacarlarla əlaqələrini bəhanə gətirən mayor Lisaneviçin əmri ilə 1806-cı il iyunun 12-də Şuşa yaxınlığındakı Xan bağında İbrahimxəlil xan 17 nəfər ailə üzvü ilə birlikdə qətlə yetirildi. 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsi Azərbaycanı iki yerə parçalamaqla yanaşı, Qarabağın taleyində də ağır izlər buraxdı. 1822-ci ildə Qarabağ xanlığı tamamilə ləğv olundu.*

*İllər ötdü... Qarabağ xanlığının paytaxtı Şuşa mədəniyyət, ticarət, sənətkarlıq mərkəzi kimi şöhrət tapdı... İnsan əli dayanmadan gözəlləşdirdi Şuşanı. Dağlar, sıldırım qayalıqlar arasında yamyaşıl zümrüd piyalə kimi ucaldı Şuşa... Səyahətçilər onun gözəlliklərindən danışdılar. "Bazarbaşı" deyilən yerdən Şeytanbazara qədər uzanan üstüörtülü ticarət mərkəzi Avropadan, Rusiyadan və dünyanın ən müxtəlif yerlərindən gələn tacirlərin, səyyahların alış-veriş mərkəzinə çevrildi... Şəhərin əsas küçəsi olan Rastabazarın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət səkiləri insanların gediş-gəliş məkanı oldu. İllər ötdü... Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət etdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar iri bazar meydanı ilə tamamlandı. Şəhərin "Meydan" deyilən əsas meydanı Rastabazar küçəsi boyunca ibadətgah və ticarət təyinatlı tikililər, birmərtəbəli dükanlar, ikimərtəbəli karvansara və qoşa minarəli yaraşıqlı cümə məscidi sıralandı...*

Şuşa zirvədə doğan günəşin şüaları altında büllur şüşə kimi parıldadı... Göz qamaşdırdı qəhrəmanlar diyarı... Qədim yurd yerimiz, oduna-ocağına qızındığımız diyar... 1905-1906, 1918-ci illərdə bütün Qarabağ, eləcə də Şuşa ermənilərin soydaşlarımıza qarşı törətdikləri təcavüzün, qətliamların şahidi oldu.

Sovet dövründə də Şuşa açıq-gizli erməni fitnələri, xəyanətləri ilə üzləşdi... Ağır dərddir. Bunları sayıb-sadalamaqla qurtaran deyil. Saydıqca dəhşətə gəlirsən, sadaladıqca başımıza gətirilən fəlakətlərin miqyası qarşısında donub qalırsan...

Və... Əlimdə imkan olsaydı, tarixin bu səhifələrini cırıb atardım. Silərdim Şuşanın qan yaddaşından, təmizlərdim xain, acgöz, xəyanətkar qonşuların vurduğu bu yaranı. Amma, çox təəssüf. Tarix kino lenti deyil və onu montaj etmək olmur.

Və... 1992-ci il may ayının 7-dən 8-nə keçən gecə Şuşa Qarabağda genişlənən erməni işğalının növbəti qurbanı oldu... Döyüşlərdə 1860 azərbaycanlı yaralandı, 480 nəfər həlak oldu, 22 min nəfər öz yurdundan didərgin düşdü. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur...

## ÖLƏRƏM DƏRDİNDƏN, ONU BİL

Dostum, əslində, gerçək nağılım hələ indi başlayır... Bu gün... Xalqımın şərəfli tarixini murdar niyyətləri ilə ləkələyən erməni işğalından 28 il ötdükdən, 2020-ci ilin 8 noyabrındakı möhtəşəm Şuşa zəfərimizdən sonra... Yaxın otur. Heç nəyi diqqətdən qaçırma. Xalq olaraq Şuşanın zirvələrinə necə ucalmağımızın fəxr dolu hekayətinə qulaq as.





...Döyüş sübh tezdən başlamışdı. Artilleriya, minaatan səslərindən, barıt qoxusundan, tüstüdən sanki yerlə göy birləşmişdi. Düşmən illər boyu arın-arxayın özgə torpağında tikib-qurduğu istehkamlarda oturub aramsız atəş yağdırırdı. Vətən uğrunda müharibə gedirdi. Xalq dağ kimi parçalanıb qalxmış, köksündən qəlpə-qəlpə ətrafa səpilən oğullarını illərlə əsarətdə olan torpaq uğrunda savaşa göndərmişdi... Qarabağ savaş içində idi. Şuşa intizarla yol gözləyirdi... İnildəyirdi, ağrıyırdı, ağlayırdı... Dağlarının başındakı duman göz yaşı olubələnirdi... Cıdır düzündə yallı gedən erməni çəkmələrinin yerində hələ də ot bitməmişdi. O ayaq yerləri torpağı qarsalamışdı, yandırmışdı. Yerin təkindən bütün gücünü-qüvvəsini çəkib çıxartmışdı. Bulaqlarının suyu çəkilmişdi. Dil-dodağındakı nəğmə itmişdi. Zümzümə də edə bilmirdi Şuşa. Adicə ağı da deyə bilmirdi, bayatı da çağıra bilmirdi... O yallı hələ də onun sinəsini kötəkləyirdi... O yallını oynayanların tərli bədənləri, kirli ağızları, kin-küdurətlə dolu beyinləri, qana susamış vicdanları, körpə qətlləri törətmiş əlləri doğma Azərbaycan musiqisinin sədaları altında necə iyrənc görünürdü... Unuda bilmirdi Şuşa, silə bilmirdi yaddaşından o iyrənc rəqsi... Yallı onun üçün matəm rəqsi idi... Şopenin "Matəm marşı"ndan fərqlənməyən bir ağırlıq yağırdı üstünə yallı ilə. Gecələri yata bilmirdi... Gözləri yumulmurdu...

Düz 28 il idi ki, canına yığılan əcaib qəhqəhələr, yanıq yerləri, çapıq, əzik, göynək yerləri ağrıdırdı. İndi isə... Qala divarlarının o üzündən addım səsləri gəlirdi. İzdiham getdikcə yaxınlaşırdı. Ruhlar nigaran-nigaran səmada süzür, qəhərlə baş-başa vermiş dağları yarıb keçir, Cıdır düzünə çatanda yerə enir. Nəhayətsiz ənginlikdə, yerlə göyün birləşdiyi yerdə sönmüş, öləzimiş düzün ortasında həsrətlə üzü dağlara baxır, onların sarsılmış qürurunu qaytarmağa çalışırdılar...



Haradasa bir şeir səslənirdi. Şuşa bu şeirin hər misrasını məlhəm kimi yaralarına sürtür, payız rənglərinə bürünmüş yalqız meşələrinə çiləyirdi:

*Səni yağışının rəngindən*
*Tanıyaram, Vətən!*
*İşıl-işıldı, deyilmi?!*
*Səni çiskininin ətrindən*
*Tanıyaram, Vətən!*
*Yovşan ətirliydi, unutmadım...*
*Səni küləyinin*
*Mehrindən tanıyaram.*
*Elə cana yaxındı ki,*
*Yadımdadır.*
*Mən tanıyaram,*
*Sən yağ təki...*
*Kədərimi suya çək,*
*Bir az çiçək ətri qat.*
*Bir az təzə biçilmiş ot ətri...*
*Sağsansa, xəbər elə,*
*Bir ovuc yağış ələ...*
*Vətən...*

Göy üzü tutuldu... Qəm yağdı hər qarışından. Sonra tək bir ovuc yağış ələdi. Tək bircə ovuc. Yağış damlaları çiçək ətrinə bürünüb yerlə göyün tən ortasında süzdü. Çox yağmadı. Şuşa günlərdi, göz yaşını boğurdu. Səngərləri yaş eləmək istəmirdi. Əsgərinə soyuq olardı... Son ümidinə, son dayağına. Əsgərinə...

Əsgərlər həyəcanla baxışdılar. Kimsə əllərini yuxarı qaldırdı. Kimsə barmaqlarını havada oynatdı:

– Yağış yağır... Azca çilədi... Yağsa, çətin olacaq. O dolayları sürüşə-sürüşə keçmək var e...

– Mənim də üzümə bir damcı düşdü. Amma kəsdi. Yağmadı. Qəribədir...





Nurlan diqqətlə səmanı süzüb həyəcanla dilləndi:

– Qəribə deyil. Heç də qəribə deyil... Əfqan, dediyin şeirin son misralarını bir də təkrarla.

Əfqan şeirin son misralarını səsləndirdi:

– Sağsansa, xəbər elə...
Bir ovuc yağış ələ...
Vətən...

Nurlan yerindən qalxdı. Əfqanı qucaqlayıb silkələdi. Kürəyinə vurdu:

– Sağdır... Eşitdi səni. Gördünmü?! Tək bircə ovuc ələdi. Eşitdi... Anlayırsanmı, bu nə deməkdir?! O bizi eşidir. Yaradan...

Əfqan nərə çəkdi. Ağladı... Hönkürdü:

– Sağdır. Sağdır Şuşa... Dağlar, ay dağlar... Səma, ey mavi səma... Meşələrrrrr... Sağsınız. Öldürə bilmədi sizi düşmən...

Əsgərlər üzü dağlara sarı baxdılar. Dağların şiş ucunda bir topa duman ilişib qalmışdı... Dumanın ağappaq örtüyü arasında Şuşa qalasının divarları bozarırdı. Rasim Kənana pıçıldadı:

– Şuşanın dağları... O mahnını zümzümə edən olsaydı, dinləyərdik...

Kənan yaşarmış gözlərini sildi:

– Sonra da sürətli bir hücumla Şuşanın qoynuna doğru irəliləyərdik... Qayalara asfalt yolla getdiyimiz kimi dırmanardıq... Ey uşaqlar, kim zümzümə edər "Şuşanın dağları"nı?! Son istək kimi...

Səngərlərin hansındansa dilləndilər:

– Kərəm... Onun səsi yaxşıdır... O bütün mahnıları bilir...

Rasim:

– Kərəm, oxu. Əgər mənim səsim olsaydı, çoxdan salamlamışdım Şuşanı...

Səngərdən həzin bir səs havalandı:



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 124286

*Şuşanın dağları başı dumanlı,*
*Qırmızı qoftalı, yaşıl tumanlı,*
*Dərdindən ölməyə çoxdur gümanlı.*
*Dərdindən ölməyə çoxdur gümanlı.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*

*Şuşada axşamlar yanar ulduzlar,*
*Onlardan gözəldir gəlinlər, qızlar,*
*Oturub yol üstə yarını gözlər.*
*Oturub yol üstə yarını gözlər.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*

*Şuşanın hər yandan gəlir sorağı,*
*Tərifə layiqdir İsa bulağı,*
*Dağları, bağları, qızlar oylağı.*
*Dağları, bağları, qızlar oylağı.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən onu bil,*
*Danışmasan da, balam, barı gül.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*
*Ay qız, bu nə qaş-göz, bu nə tel,*
*Ölərəm dərdindən, onu bil,*
*Danışmasan da, balam, barı gül.*





Əsgərlər bir ağızdan təkrar etdilər:

– Ölərəm dərdindən, onu bil...

Komandir:

– Diqqət! Şuşanın dərdindən ölmək istəyən kim varsa, hazır olsun! Nəğmə bitən kimi əməliyyat başlayır... Hədəfimiz Şuşanı azad etməkdir. Qarabağ Azərbaycandır!

Əsgərlər bir ağızdan:

– Qarabağ Azərbaycandır! Şuşa canda candır!

– Aslanlarım, hər kəs hansı amal uğrunda bu sıldırım qayalara dırmaşacağını yaxşı bilir. Artıq heç nə götürmürük... Cibimizdə olan lazımsız bir cib dəsmalı belə bizə ağır yükdür. Unutmayın, quş lələyi kimi yüngül və havalı olmalıyıq. Siz minlərin içindən elə-belə seçilməmisiniz. Siz xüsusi təyinatlıların ən xüsusi təyinatlılarısınız. Siz Azərbaycan qartallarısınız. Bu gün sizin qonacağınız yalnız bir zirvə var. Bu zirvə Şuşadır...

– Şuşadır...

– Unutmayın! Ölmək var, bir addım geri çəkilmək yox!

Xüsusi təyinatlılar:

– Ölmək var, bir addım geri çəkilmək yox!

Komandir:

– Ölmək var! Geri dönmək yox!

Xüsusi təyinatlılar:

– Ölmək var! Geri dönmək yox!

Komandir:

– Allah haqq yolunda köməyiniz olsun. İrəli! Yadda saxlayın! Döyüş meydanında bir şəhid və bir yaralı buraxmırıq. Bunu sizə deməməliyəm, yaxşı bilirəm. Sadəcə, xatırlatdım. Şuşa uğrunda "Sızma" əməliyyatına başla!

Düşmən istehkamlarına səssiz və lal sükutla su kimi sızmalıydılar. Dağ başında, illərlə qazılıb hamarlanmış, isti və rahat səngərlərdə özündənrazı erməni cəlladlarının başına qar kimi səssiz və gizlicə ələnməliydi bu cəngavər igidlər... Özü də adi yolla yox. Buz kimi, cadar-cadar, ülgüctək iti və sərt sıldırımla üzüyuxarı





çıxmalıydılar. Əlləri caynaq, ayaqları pəncə olmalıydı. Gözləri şahin gözü, qəlbləri aslan ürəyi olmalıydı. Dişləri canavar dişi. Xüsusi təyinatlıların mətin komandirləri həmişə onlara deyərdi: "Silah olmayanda əl, ayaq, baş və diş silahınızdır. Əlinizlə boğun, ayağınızla vurun, başınızla zərbə endirin, dişinizlə doğrayın. Vətən uğrunda yalnızca savaş var, unutmayın! Vətən uğrunda ən iti silah sizin əzminizdir! Əzmin gülləsi bitməz, barıtı səngiməz, igidlərim", – demişdi komandirləri.

Onlarla dağ əzəmətli gənc sıldırım qayalığa doğru yeridi... Kürəklərində adicə döyüş çantası. Üstlərində avtomat silah, qumbaraatan, tapança və bıçaq. Dillərində "Ya Allah" kəlməsi...

Hər əsgər qalxacağı sıldırıma ilk qədəmini basanda pıçıldayırdı:

– Allahverdi uğrunda!
– Çingiz uğrunda!
– Mübariz uğrunda!
– Polad uğrunda!
– Pəncəli uğrunda!
– Fərid uğrunda!
– Fred Asif uğrunda!
– ...Uğrunda... uğrunda... uğrunda...

## VƏTƏN UĞRUNDA...

Kərəm sonuncu addımını zirvədən düzə qoyub, əllərini-qollarını açıb çatdığı yerdəcə uzandı... Zirvəni aşanlar bir-bir onun yanında uzandı, dumanlı düzün ortasında ağır, əzəmətli, yorğun bədənləri ilə torpağı salamladılar. Yağış aram-aram çiləyirdi. Damcılar sevinclə zirvəni aşanların qıpqırmızı alov rəngli yanağına dəyir, axıb boynuna-boğazına doluşurdu... Kimsə ağzını geniş açıb ciyərlərinə Şuşa havası çəkmək üçün səbirsizlənirdi. Kimsə pıçıldayırdı:

– Dayan! Olmaz. Ehtiyatla nəfəs al! Tövşümə. Qıcıqlandırar boğazını, öskürərsən.

Kimsə zarafatla yavaşca Şuşa havası ilə ciyərlərini doldurmaq istəyənlərə deyirdi:

– Görməmişlik etməyin. Havanı qənaətlə udun... Qoyun hamıya çatsın.

Sevincdən sifətlər işıq dolu idi. Komandir bu işıqların arasında bir-bir hamının adını çəkdi:

– Məmmədov Kərəm!

– Mən!

– Həsənov Əfqan!

– Mən!

– Hüseynli Nurlan!

– Mən!

– Səmədli Elmar!

– Mən!

– Kərimli Ədalət!

– Mən!

– İsmayılov Rasim!

– Mən!

– Cabbarlı Kənan!

– Mən!

– ...

– ...

– ...

– ...

– Afərin, aslanlarım! Biz Şuşadayıq. İndi dayansın düşmən, görüm necə dayanır. Sızın onun həyatına! Qaranlığa işıq kimi! Nə qədər işıqlaşmayıb, ilk postu götürməliyik. Sakit, səssiz, əlimizlə, ayağımızla, başımızla, dişimizlə! Atəş açmaq olmaz! Nə qədər sakit işləsək, o qədər uzaq gedərik! Zərgər dəqiqliyi və hərbçi əzmi... Sizə güvənirəm. Dincəlməyə 10 dəqiqə vaxtınız var.

Elmar dumanın içində öz-özünə pıçıldadı:

– 10 dəqiqə 10 il kimi uzundur, komandir! Həmən başlayaq!





– Dincəl, Elmar! Komandirin əmri müzakirə olunmaz! Onsuz da sən cəzalısan. Şuşanı alan kimi səni cəzalandıracağam!

Elmar pıçıldadı:

– Oldu, komandir! Şuşanı alan kimi cəzalanacağam!

Ədalət iki əlini daraqlayıb başının altına qoydu. Diqqətlə dibi görünməyən səmanı süzməyə başladı:

– Qaranlıqdan, dumandan heç nə görmək mümkün deyil! Səhər açılsaydı, Yaradanın şah əsərinə tamaşa edərdik doyunca.

Kimsə pəsdən bayatı çağırdı:

*Şuşadan karvan keçər,*
*Keçər, nigaran keçər.*
*Sənə qovuşmaq üçün*
*Oğullar candan keçər...*

*Dağ başında qalasan,*
*Ağlı başdan alasan...*
*Al bu polad qolları,*
*Çək, belinə dola sən...*

*Üzüyümdə qaş Şuşam,*
*Dörd bir yanı daş Şuşam...*
*Gəlmişik yollarında,*
*Qoyub keçək baş, Şuşam...*

Kimsə pıçıldadı:

– Əfqan, nənənin bayatılarıdır?

– Yox... Özümün.

– Dumanlı dağlarda əla səslənir. Unutma, zəfərdən sonra deyərik.

– Yox, artıq unutdum. Zəfərin zəfər nəğməsi oxunacaq! İnşallah!

Hər tərəfdən pıçıldadılar:
– İnşallah!
Komandir qalxıb oturdu:
– 10 dəqiqə tamamdır. Hazırsınız?!
– Hazırıq, komandir!
– Haydı, aslanlarım! İki-iki enirik. Bələdçi...
– Buradayam, komandir!
– Ərazinin ən xırda çətinlikləri barədə məlumatı öncədən verirsən. Hamınızda xəritə var. Çalışın, bir-birinizi itirməyin. İnşallah, zərər çəkən olmaz! Əgər olarsa, yaralılar və şəhidlər əmanəti... İlk posta səssiz sıza bilsək, uğur bizimlədir. Artıq dağlara dırmanmaq yoxdur. İndi sıldırımlı dağ başında ley kimi şığımaq var...

***

...Qalxdılar... Haradasa bir ana əllərini Yaradana açdı. Pıçıltılarını ona ünvanladı: "...Onu mənə Sən verdin... Rəbbim... Sən... Rəbbim, onu Sənə əmanət edirəm. Oğluma zəfər səadəti nəsib et. Zəfər səadəti... Səndən nə istəyəcəyimi çox düşündüm. Sonda bu qənaətə gəldim... Sən ucaltdığını heç kəs endirə bilməz. Ucalt balamı..."

***

Ucaldı onlardan hər biri. Qayaların sərt üzünə sığınasığına ayrı-ayrı dəstələrlə düşmən mövqelərinə doğru irəlilədilər. Döyüş meydanına sükut çökmüşdü.
...Hətta nəfəslərini belə sakit almağa çalışırdılar:
– Rasim, fısıldama!
– Bağışla, cənab! Bax onu edə bilməyəcəyəm! Burnumda çəpər əyriliyi var!
– Çəpərini düzəlt, nəfəsini yavaş al... Bax... Çıxdı...
– Gördüm... Nəzarətə çıxıb köpək...
– Onu elə oradaca o məsələ.
– Mən...
– Yox, bu şərəfi sənə buraxa bilmərəm... Özüm...





Erməni səngərdən xeyli aralandı. Başını-boynunu ovxaladı. Gərnəşdi...
Kərəm pişik cəldliyi ilə arxadan əllərini onun boğazında daraqladı. Necə boğdusa, heç xırıltısı da eşidilmədi.
Rasim pıçıldadı:
– Afərin, Kərəm. Biri hazır...
Kərəm boğduğu erməni əsgərini ehtiyatla sürüdü. Rasim pıçıldadı:
– Sürümə. Qoy yerində qalsın. Səs çox olur.
Kərəm onu elə yıxdığı yerdə qoydu. Mövqeyinə qayıtdı. Səngərdən başqa biri çıxdı:
– Ara, Sərkis, harada qaldın, qurtarmadın?
Rasim bir əli ilə onun ağzını tutdu, o biri əli ilə geri sürüdü. Pıçıldadı:
– Sərkis qurtarıb. Qalmısan sən.
Kərəm özünü yetirib əllərini onun boynunda daraqladı. Az sonra düşmənin boynu düşdü.
Rasim pıçıldadı:
– Sərkis də qurtardı, sən də... Murdarlar... Lənətə gəlmişlər. Qurtarsaydınız, yaxşı olardı...
Komandir yanındakılara pıçıldadı:
– Afərin. Kərəmlə Rasim əla işlədilər. Artıq vaxtdır. İki tərəfdən həmlə ilə postu götürəcəyik. Hamısı yuxudan ayılmamış atəşsiz və itkisiz götürməliyik. Rasimlə Kərəmə üç müdafiəçi və daha bir hücumçu. Elmar, Ədalət, Kənan, Əfqan... Səssiz və cəld...
– Oldu, cənab komandir.
– Əllə, ayaqla, başla və süngü bıçaqla işləyirsiniz. Atəş açmaq olmaz. Tapşırıq aydındır?
– Aydındır!
Əfqan sürünə-sürünə hərəkət nöqtəsinə çatdı. Az sonra döyüşçülərin üçü də onun yanında mövqeyini aldı.
Kənan pıçıldadı:
– Qayaya dırmaşmağın yanında bu, çox rahat işdir. Rasimgilə işarə verək. Birgə həmlə ilə...



Əfqan əlini dodaqlarına yaxınlaşdırdı. İstehkamın qarşısında daha iki erməni əsgəri göründü.

Biri əynindəki sırıqlıya büküldü:

– Ara, bu gecə çox soyuq idi. Gözümü yummamışam...

– Lənətə gəlsin bu dağları. Soyuqlar başlayıb. İliyimizə işləyəcək. Mənim nəyimə lazımdır axı çaqqal kimi buralarda sülənmək. Oturmuşdum da gül kimi Los-Ancelesimdə... Başdan çıxartdılar məni... Durdum, gəldim lənətə gəlmiş *Artsaxı*[1] qorumağa. Dədən-baban *Artsax* görmüşdü?! Buranı qoruyan çıxmısan? Nə gəzirsən?!

---

1 "Arsax" sözü qədim türk tayfası olan sakların adı ilə bağlıdır və "igid sak", "ər sak" mənasını verir. B.e.ə. II əsrdən etibarən indiki Qarabağ ərazisi və ondan cənubda olan bəzi ərazilər *Arsax* adlanırdı. Sonradan Qarabağ toponiminin işlədilməsi *Arsak* sözünü sıxışdırmışdır. Lakin, hələ də *Qarabağ* sözü ilə paralel olaraq işlədilməkdədir. Alban dövlətinin süqutundan sonra patriarxlığın mərkəzi *Arsaxa* keçir. Mənbələrdə *Arsax* "möhkəmləndirilmiş vilayət", "möhkəm ölkə" adlanırdı. İlk orta yüzilliklərdə erməni (hay) tarixçilərinin əsərlərində bu söz *Artsax* kimi verilib. Türkcə izah olunduğu halda, bu söz nə qədim, nə də müasir erməni dilində heç bir məna vermir.





Əfqanla Kənan bircə həmlədə ikisini də aşırtdı. Nəfəsləri kəsilənədək gözlədilər. Son xırıltı kəsilən kimi Əfqan əlini yuxarı qaldırdı. Yavaşca "gəl" işarəsi verdi. Kərəm dilləndi:

– Getdik...

İstehkama gedən yol bir az dar və qaranlıq idi. Amma məsafə çox deyildi.

Kərəm pıçıldadı:

– Bu yolda kimsə qarşımıza çıxsa, qışqırıb hamısını oyadacaq. Tələsin...

Ehtiyatla irəlilədilər. Dar yolda hələ ki heç kəs gözə dəymirdi. İstehkamdan zəif işıq gəlirdi. Xorultu və fısıltı səsləri daha aydın eşidilirdi.

İçəri ilk girən Kənan oldu. Hamının gəlməsini gözlədi. Bu arada kimsə yerində çevrildi. Mızıldandı. Söydü. Öskürdü:

– Ara, qarın ağrısına düşmüsünüz?! Hələ səhər açılmayıb, o girir, bu çıxır, bu girir, o çıxır... Cəhənnəm olun, yığılın da içəri. Onsuz da soyuqdur.

Kərəm Rasimə işarə ilə:

– Sən bu murdarların dilini bilirsən. Nə çərənləyir?!

– Üşüyür...

Kənan öz-özünə pıçıldadı:

– İndi dincələrsən, dığa... Darıxma... Nəfəsin kəsiləndə cəhənnəm istisində boğularsan...

İlk boğulanlar qışqırmağa hazırlaşan beş nəfər oldu. Onların ardınca yatanlar dəhşət içində qalxdılar. Nə edəcəklərini bilmədilər. Sərsəm bir sürətlə vurnuxdular... Kərəm bağırdı:

– Atəş açmağa aman verməyin. Tez-tez işləyin. Birini əlinizlə boğanda ayağınızı o birinin xirtdəyinə dirəyin ki, tərpənə bilməsin... Onsuz da bunlardan heç biri nə sizin əlinizin, nə də təpiyinizin gücünə dözməz.

Əlbəyaxa döyüş çox az çəkdi. Xüsusi təyinatlılar ağır beton dirəklər kimi boğazına çökdüklərinin hamısını bir anın içində əzdilər. Rasim bağırdı:

– Bıçaqlarla işləyin... Qoymayın, ayılsınlar. Ayılsalar, uzun çəkəcək. Yarasa kimi uçuşacaqlar...

...Duman azca parıldadı. Günəş dağ başında qaladığı tonqaldan güclə sızıb çıxa bildi. Sal qayanın dibinə sığınanlar günəşə gülümsədi. İlk post alınmışdı. İtkisiz, şəhidsiz, yaralısız... Zarafatlaşdılar...

– Komandir, vicdanım haqqı, təlimdəki "cəhənnəm həftəsi" bundan min dəfə ağır idi. Sürətlə hərəkət elədik, tərpənə bilmədilər.

– Murdarlar yuxulu idi...

– Yuxu-zad səbəb deyil. Sadəcə, bacardıqları odur.

– Əla döyüşdük. İçləri boş imiş, amma...

Komandir ilk mərhələni uğurla keçmiş əsgərlərini fəxrlə izlədi. Gülümsündü:

– Onlar zəif deyildi. Siz çox güclü idiniz. Sizə şad xəbər çatdırım... O biri iki cinahdakı döyüşçülərimiz də mənzilbaşına sağ-salamat çatıblar. Düşmən mühasirədədir. Ağılsızlar, elə bilirmişlər düz yolla gələcəyik. Onlar da oturub arın-arxayın biçib tökəcəklər.

– Komandir, başınıza dönüm, ta deyin ki, bunlar ölüb, qalıb fatihələrini vermək... Dənləyərik onları bircəbircə...

Komandir:

– Yox, uşaqlar. Hər şey sizə o qədər də asan gəlməsin. Şuşanın o qədər dolanbacları var ki... Düşmən isə artıq o dolaylarda yerini bərkidib. Mövqeyini tutub. Həm sayı çoxdur, həm silahı. Biz, demək olar ki, avtomatın, bıçağın və tapançanın ümidinəyik. Bir neçə dənə də qumbaraatan. Sıldırımlara belimizdə tank qaldıra bilməmişik, çox təəssüf. "İti qovan" dumanda hədəfi müəyyən edə bilməz.. "Harop"lar da bu şəraitdə işə yaramır.

Elmar dedi:

– Biz özümüz elə tankıq, zirehli texnikayıq, PUA-yıq, "Harop"uq...

Komandir:





– Elmar, sənin cəzan yüz faizdir, ha. İkinci dəfə intizamsızlıq etdin.

– Bildim, komandir, bildim. Dözə bilmədim. İnşallah, Şuşanı alaq, özüm gedib oturacağam həbsdə, "çıx" desəniz də, çıxmayacağam.

Komandir gülümsündü:

– Oldu, Elmar. Sözləşdik. Dincəlmək üçün bir az vaxtımız var. O vaxt ərzində ərazini öyrənəcəyik. Haradan və necə irəliləməli olduğumuzu, haradan hücuma başlasaq, daha az itki ilə çıxa biləcəyimizi saf-çürük etməliyik... Sonra davam...

Əsgərlər gülüşdülər:

– Kinonun ikinci seriyası başlayacaq.

– Amma kino da kinodur ha. Dəhşət filmidir. Necə doğradıq, tökdük bir bölük əsgəri.

Kərəm gözlərini dağlara zilləyib xəyala daldı:

– Oğluma danışacağam hamısını... Bircə-bircə.

Rasim soruşdu:

– Hansı oğluna? Oğlun var ki?!

– Olacaq da. Anam deyib: "Daha bu dəfə əlimdən heç yerə qaça bilməzsən. Gələn kimi evləndirəcəyəm səni".

– Qız da tapıb, yəqin.

– Qızı özüm tapmışam. Düz iki ildir... Amma hərdən ona yazığım gəlir. Bizimlə nə həyat?! Bütün günü dağda-daşda. Hərbçinin həyat yoldaşı olmaq çətindir. Amma o bütün çətinliklərə hazırdır...

Kərəm nə düşünürdüsə, gülümsünürdü. Gözlərindəki qayğı təbəssümlə əvəz olunmuşdu: "Ana, dedim axı, darıxma. Sağ-salamat dönəcəyəm". Anası onun saçlarını sığallamaqdan doymurdu. Onun əllərinin hərarəti canına yayılırdı: "Ana... Sənə sözüm var..." "Bilirəm, oğul. Elçi gedəcəyəm. Sənə də qurban olum, sənin sevib-seçdiyin qıza da. Elə günü sabah..." Sonra gözlərinin önündə sevdiyi qız canlandı: "Arzu... Anam sizə gəlmək istəyir..." "Gəlsin..." Arzunun yanaqları köz kimi qızardı. Kərəm təbəssüm və sevinc dolu gözlərini ondan ayıra bilmədi...

Üzünə çilənən yağış damcıları onu xəyallardan ayırdı. Öz-özünə pıçıldadı: "Ya qismət... Allah Vətən qarşısında başımızı uca etsin... Qalan hər şey düzələr..."

Növbə ilə dincəldilər. Aradılar-axtardılar, ətraf ərazini qarış-qarış gəzdilər...

...Səhər açılmışdı. Həmişəki duman havadan asılıb qalmışdı. Sanki yerlə göy arasındakı sərhəd itmişdi... Haradasa bir fişəng atdılar. Fişəng burula-burula göy üzünə qalxdı, sonra qayıdıb qayaların qoynuna endi.

Komandir:

- Durmaq vaxtıdır. Yəqin, postlar əlaqə qura bilmirlər. Xəbərdarlıq fişəngi atırlar. Yolumuzun üstündə olan ən çətin maneəni bir su içimində keçməliyik. Bunu unutmayın! Xüsusi təyinatlı üçün keçilməz sədd, aşılmaz hədd yoxdur. Biz bu şəhər uğrunda baş qoymağa gəldik.

- Bir baş nədir ki, komandir. Şuşaya min baş qurban.

Komandir:

- Sabah şəhərə sıldırımlarla sızan üç cinah birləşməlidir.

- Yəni ki...

- Yəni Şuşa azad olunmalıdır.

- Şuşa azad olunmalıdır!

- Bir addım belə geri çəkilmək yox!

- Yox, komandir, yox!

- Havada zəfər havası var.

- Bir, iki, üç. Dərindən nəfəs alın. Doldurun ciyərlərinizi zəfər havası ilə. O sizi qanadlandıracaq!

- Haydı, irəli!

- Ən böyük əsgər bizim əsgər!

- Qarabağ Azərbaycandır!

***

...Şuşada on saatdan artıq idi ki, döyüş davam edirdi. İtkilərimiz və yaralılarımız var idi. Şəhərin mərkəzinə çatmağa dəqiqələr qalmışdı...





- Rasim yaralıdır. Təxliyə olunmalıdır.

- Qanaxmasını güclə saxlaya bilmişik.

Rasim özünü yetirdi:

- Yaxşıyam. Çox qan itirməmişəm. Amma ayağıma qəlpə dolub. Bud sümüyüm sınıb. Bir az çətin irəliləyirəm. Qarnımda da nəsə ağırlıq var. Amma dözə bilirəm...

Komandir göstəriş verdi:

- Dözməlisən, Rasim. Başqa çarə yox. Uşaqlar, biriniz ona ağrıkəsici vurun. Ağrıdan şoka düşməsin...

Rasim gözləri ilə gülümsəməyə çalışdı:

- Siz məni gözləməyin... Gedin, gəlib çatacağam sizə.

- Biz yaralıları yolda qoyub getmirik. Özün yaxşı bilirsən. Üz vurma...

- Uşaqlar, Kərəmi görən olub?

- Yox. Görməmişik...

- Bəs haradadır, görəsən?

- Yəqin...

- Elmar da yoxdur.

- Onların dalınca qayıtmaq lazımdır. Elmar az əvvələ qədər döyüşürdü.

- Hə, haradasa bu yaxınlardadır.

- İki nəfər qayıtsın. Bir-birinizdən ayrılmayın. Əslində, üç nəfər. Ola bilər ki, Elmar haradasa bu aralardadır. Yaralanıb. Bir nəfər onu götürüb qayıtsın ki, qan itirməsin, ilk tibbi yardım göstərək, təxliyə edək... Qalan ikisi Kərəmin ardınca... Əfqan, Nurlan, Ədalət... Çıxın yola. Sizi elə burada gözləyəcəyik... Bu qoşa qayanın altında. Koordinatları yadda saxlayın. Əraziyə o qədər də bələd deyilsiniz. Duman çox qatıdır. Dağlıq yerdə səmti tutmaq döyüşə girməkdən daha çətindir. Dumana düşərsiniz. Azıb, gedib düşmən mövqelərinə çıxarsınız...

- Narahat olmayın, komandir. Nənəm o qədər danışıb ki, qiyabi də olsa, buraların hər daşını tanıyıram. Həm də qan yaddaşı deyilən bir şey var. O da nələrsə pıçıldayır.

– Lap yaxşı. Onda sizi burada gözləyirik, Əfqan. Ayrılmayın. Birlikdə irəliləyin... Gəldiyimiz xətt üzrə geri qayıdın... Bir nəfər də olsun şəhidimiz və yaralımız yerdə qalmamalıdır.


Le Monde

**Şuşa əlbəyaxa döyüşlər nəticəsində alındı**

Şuşa praktiki olaraq əlbəyaxa döyüşlər nəticəsində, heç bir pilotsuz uçuş aparatı və ya müasir texnologiya olmadan nəzarət altına alındı. "Fed.az" xəbər verir ki, bu barədə Fransanın "Le Monde" qəzetinin Xankəndidə olan müxbirləri yazıb. "Yaralılar, əsasən, güllə və bıçaq xəsarətləri ilə Şuşadan gətirilirdi. Pulemyot və ya tüfəng yaraları ilə deyil, tapança və bıçaq yaraları ilə. Bu o deməkdir ki, şəhər, demək olar ki, əlbəyaxa döyüşlər nəticəsində alındı. Üstəlik, azərbaycanlılar yaralıları da döyüş meydanında qoymadılar – onlar da şəhərə aparıldı". – deyə qeyd olunub.

## DAĞ BAŞINDA ŞAM ŞUŞA

Qaranlıq düşürdü... Getdikcə dumanla toranlığın çəkdiyi pərdə hər şeyi bir-birinə qarışdırırdı. Bir addım qabağı seçmək çətinləşirdi...

Əfqan öz-özünə pıçıldadı:





*Dağ başında şam Şuşa,*
*Düşübdür axşam, Şuşa...*
*Mənə işarət elə,*
*Yolda qalmışam, Şuşa...*

Duman işıldadı. Ay zəif şəfəqlərini yola çilədi. Bir anlığa duman səngidi. Ədalət pıçıldadı:

– Möcüzəyə bax, şəhər bizimlə söhbət edir. Bax, Nurlan, cığır necə işıqlandı. Şuşa bütün deyilənləri eşidir. Sanki canlıdır...

– Bəs nədir?! Əlbəttə, canlıdır. Canlı və kədər dolu. İllərdir, düşmən caynağında. Sizi lənətə gələsiniz. Müqəddəs ruhlarımızın qarşısında üzüqara ediblər bizi...

– Ədalət, bəlkə, yolu azca işıqlandıraq. Görmək olmur.

– Yox, olmaz, Əfqan. Söhbət də eləməyin. Diqqətli olun. Bayatıları saxla qələbədən sonraya...

Nurlan ətrafa baxdı:

– Elə bil inilti gəlir... Qulaq asın...

– Hə. Bu aralıqdan. Bax. Kərəmdir... Kərəm, Kərəm... Özündəsən?!

Kərəm daşa dirsəklənib oturmuşdu. Dörd bir tərəfi qan içində idi. Tanış üzlər gördüyünə sevindiyi aydın hiss olunurdu. Amma sevincini büruzə verməyə belə gücü yox idi. Zorla özünü ələ aldı. Azca gülümsünüb, qıcanmış dişlərinin arasından dedi:

– Niyə qayıtdınız axı?! Ayağım qopub sallana qalmışdı. Özüm kəsdim... Tibbi qayışla sıxmışam ki, qan dayansın. Gəlib çatacaqdım... Amma...

– Kərəm... Nə olub? Nə amma...

Kərəm əli ilə yaxındakı daşın dalını göstərdi.

– Elmarı çıxardıram deyə çətin irəliləyirəm.

– Kimi?

– Elmarı. Şəhid olub...

Kərimin gözləri doldu. Ədalətlə Nurlan Elmara tərəf atıldılar. Elmarın gözləri sanki daşa dönmüşdü. Üzündə təbəssüm qarışıq lal ifadə var idi. Ədalət Elmarın başını

qaldırdı. Baxdı. Səma rəngli gözlərində həyat əlaməti yox idi. Bəbəkləri donuq halda idi:

– Vətən sağ olsun. Güllə başından dəyib.

Nurlan pıçıldadı:

– Bəs həbs? Cəza çəkməliydin axı, şəhidim...

Əfqan onun sözünü kəsdi:

– Ağlamaq vaxtı deyil. Çıxartmalıyıq onları. Kərəmi də qan aparır. Bir azdan huşunu itirəcək. Onu həkimə çatdırmaq lazımdır.

Ədalət:

– Həmişə Elmara deyirdim ki: "Sən şəhid olma, səni döyüş meydanından çıxarmağa beş adam lazımdır". Çox cüssəlidir axı... Şəhadətin mübarək, Elmar.

Kərəm:

– Amma onları biçib tökdü. Bilirsən, necə döyüşürdü. Elə bil dağ idi. Üstlərinə gedirdi. Qaçırdılar. Hər əli ilə birini parçalayırdı. Bağıra-bağıra dərəaşağı atırdılar özlərini. Ayağım üzülsə də, başım üstümdə idi. Elmardan qaçanları mən bircə-bircə nişan alıb məhv edirdim. Şahanə bir döyüş idi. Yəqin, qaçıb aradan çıxanı oldusa, gedib Elmarı bütün dünyaya zombi kimi tanıdacaq...


Le Monde

Qarabağ münaqişəsinin açarı "Şuşa döyüşü" ən şiddətli məqamına çatmaqdadır.

Azərbaycan Ordusu 27 sentyabr hücumunun əsas məqsədi olan tarixi şəhərə çatdı. Bu şəhərdə döyüşlər azərbaycanlıların xeyrinə davam edir. Onlar zombi kimi döyüşürlər... İnsan deyillər sanki. Şuşanın müdafiəçiləri ağır vəziyyətdədirlər. Hərbi təcili tibb maşınları üst-üstə yığılıblar. Stepanakertə onlarla qanlar içində, son nəfəslərində olan yaralı əsgərlər gəlirlər. Hamısı bıçaqla vurulub...

Digər erməni əsgərləri dağdan dəhşət və qorxu içərisində üzüaşağı düşürlər..."





Ədalət:

– Mən Kərəmi götürürəm. Əfqan, siz də Nurlanla Elmarı çıxardın... Tələsmək lazımdır. Döyüş planını poza bilərik. Düşmən postuna çox az qalıb. Bizim isə geriyə xeyli yolumuz var...

Kərəm etiraz etmək istədi:

– Siz tərpənin. Kömək edin, qopmuş ayağımı qoluma bağlayım. Vəssalam. Mənə görə ləngiməyin. Hər ehtimala qarşı, mənə bir əl qumbarası verin. Əsir düşmək təhlükəsi olsa, onlarla birlikdə partladım özümü. Bütün sursatım qurtarıb. Siz isə mənə görə ləngiməyin.

Ədalət Kərəmi dinləmək belə istəmədi:

– Ayağını da götürəcəyəm, özünü də. Çox gedə bilməzsən belə. Rəngin ağappaqdır. Birimizin əsir düşməyi döyüş planının uçuruma yuvarlanmağıdır. Çünki biz səni xilas etmək üçün dönməli olacağıq. Dayan, ehtiyatla səni alım çiynimə. Ayağını da ver bura, asacağam boynumdan. Qoy dostumun ayağı mənim göz muncuğum olsun, – zorla da olsa, gülümsündü. – Sən də çox fikir eləmə. Elə müasir protezlər var ki...

Nurlanla Əfqan da dağ cüssəli Elmarı qaldırmağa cəhd etdilər. Çox az irəliləyə bildilər. Qəfildən Əfqan dedi:

– Nurlan, ay Nurlan, elə bil axı Elmar arxadan ayağımı sıxdı...

Nurlan dayandı. Elə çiynindəcə əlini Elmarın boğazına qoyub nəbzini tutmağa çalışdı:

– Nəbzi vurur, sağdır... Sağdır Elmar...

Əfqan həyəcanla pıçıldadı:

– Çox güclüdür. Bədəni ölümə təslim olmaq istəmir. Tələs, Nurlan, bəlkə, çatdıra bildik bir tərəfə. Allahdan ipi üzülməyibsə...

***

Onlar düşərgəyə çatanda gecədən xeyli keçmişdi. Elmarı yerə qoydular. Komandir kədərlə Elmarı süzdü.

– Vətən sağ olsun!

Əfqan tələsik pıçıldadı:

– Biz onu yerdən qaldıranda nəbzi hələ də vururdu.

Komandir Elmarın biləyini əlinə götürdü:

– Vurmur nəbzi. Son nəfəsi olub. Elmar, haqqını halal elə. Yəqin, məni eşidirsən. O cəza məsələsini zarafatla deyirdim, igid. Şəhadətin mübarək.

Sonra üzünü döyüşçülərə çevirdi:

– Kərəmə də, Rasimə də ilk tibbi yardımı edin. Hələlik təxliyə yoxdur, həkim aşağıda qalıb, – əlini uzadıb Kərəmin çiynini sıxdı. – Döz, əsgər, döz. Ayağın bədənindən üzülə bilər, təki Vətən torpağından üzülməsin. Elmarı gətirdiyiniz üçün təşəkkür edirəm. Sizinlə fəxr edirəm, uşaqlar. O ciddi təlimlər, qolu, ayağı, gözübağlı suyatullanmalar, düz divara dırmanmalar, paraşütlə atılmaların nəticəsini indi aydın görürəm.

Ədalət gülür:

– "Cəhənnəm həftəsi"ni yadıma salma, komandir. Halım qarışır xatırlayanda... Şəhadətin mübarək, Elmar!

Ədalətin gözləri dolur. Komandir azacıq duyğulanmağa belə yol vermir:

– Hamımız şəhid olsaq, bu dağın-daşın arasında tək qalıb, yalquzaq kimi dolaşsan belə, kövrəlməyə ixtiyarın yoxdur. Şuşadasan. Anladın... Şuşada... "Cəhənnəm həftəsi"ndə təlimçin mən olsaydım, səni dəstədən xaric edərdim.

***

Kənara çəkilib dağlara baxıb düşünürdü: "Düzdür, uşaqlara deyirəm, kövrəlməyə haqqımız yoxdur. Amma səni görüb kövrəlməmək mümkün deyil, Şuşa. İllərin canımızda sızlayan yarasıydın, Şuşa... Amma... Amma səni bir an belə unutmadıq. Nə vaxtsa bu dağların zirvəsinə qalxıb





sənə qürurla baxacağımıza əmin idik. Adımız kimi. Sən bizə hər şeydən uca idin. Dəniz səviyyəsindən qalxdığın ucalıqdan daha uca. Daha sevimli. Sən bizə ana idin. Düşmən əsarətində qalmış ANA. Sən bizə bala idin. Gözü yollara dikilmiş, bir ovuc sevgiyə, qəlb dolusu nəvazişə möhtac, yad səslərdən, yad sözlərdən, yad nəfəslərdən ölümcül yaralanan BALA. Biz tək səni itirməmişdik. Biz şərəfimizi itirmişdik, biz qürurumuzu, mənliyimizi itirmişdik..." Duman getdikcə sıxlaşırdı. Komandir saçları barmaqlarının arasında düşüncələrdən ayrılıb tapşırıqlarını verdi:

– Diqqətlə dinləyin. Qarşıda olduqca çətin əməliyyatımız var. O postu keçməliyik. Onu keçsək, demək, Şuşa alınıb. Anlayırsınız, nə deyirəm?! Deyirəm ki, o postu məhv etsək, Şuşa ovcumuzun içindədir. Post dərədədir. Başı üstündə sal qaya parçası var. Qayanı qalxıb oradan atılacağıq üstlərinə. O postu keçsək, yazda sevgililərinizlə Cıdır düzündə uzanıb səmanı seyr edə biləcəksiniz. Nurlan, sevgilin var?

Nurlan tələsik deyir:

– Var, komandirim, var.

– Bax ona görə sıldırımdan uçuş əməliyyatının ilk qartalı sən olmalısan. İki sevgi naminə – Şuşa və o qız eşqinə!

– Hazıram, komandir. Şuşa – mənim sevgili şəhərim... Sənə uça-uça gəlmişik. Səni uça-uça da alacağıq...

Komandir:

– Oturun, hücum istiqamətini göstərim. Rasim və Kərəm, siz səngərə gedib dincələ bilərsiniz...

– Komandir, bu əməliyyatı gecələr yuxularımda görürdüm. Məni ondan məhrum etməyin. Xahiş edirəm.

Rasim də Kərəmə dəstək verir:

– Mənim yaram ağır deyil. Budum sınıb. Ağrıkəsici vurub gedəcəyəm döyüşə.

– Olmaz. Siz yaralısınız və mühüm əməliyyatı poza bilərsiniz. Bədən rezindən deyil, ətdən və qandandır. Qanınız axıb, bədəniniz zəifləyib. Çalışın, sağ qalın. İnşallah, Şuşanın zəfər bayrağının altında birgə foto çəkdirərik...

Sözünə davam edir:

– Biz sizinlə bir zəncirin həlqələriyik. Bir həlqə qırılarsa, hamımız dağılarıq.

Onlar hücum tapşırığını incələdilər. Sonda komandir əlini ortaya uzatdı. Hamı əlini onun əlinin üstünə qoydu. Komandir dedi:

*Ölümdə bir,*
*Dirimdə bir...*
*Zülmdə bir...*
*Əlləriniz*
*Əlimdədir...*

Komandir o biri əlini ovcundakı əllərin üstünə qoydu:

– İndi yaxşı yemək lazımdır. Yaxşı qidalanmaq ayaq üstə durmağın şərtlərindən biridir.

Nurlan:

– Komandir, biz "aclıq dərsi" keçmişik... Yeməsək də, zərəri olmaz...

Komandir:

– Uşaqlar, həsrətinizi anlayıram. Tutduğum mövqedən kənar olsa da, kövrəlirəm. Amma duyğusallıq vaxtı deyil. Yaxşıca yeyin. Şər deməsən, xeyir gəlməz. Çox şeylər ola bilər. Hazır olmalıyıq. Həm mənəvi, həm də fiziki. Yeyin, sonra gedib növbə ilə dincəlin, aslanlarım. Sizinlə güclüyəm! Hücum hər an başlaya bilər. Rasimlə Kərəm burada qalacaq. Necə bacarırlar, daldalanacaqlar. Şəhəri alan kimi ilk işimiz onları təxliyəyə təhvil vermək olacaq.





Rasim budunu sarıyırdı. Ovxalanmış sümüyünün hər qırıntısını əli ilə hiss edirdi. Onları sahmana salmağa, yan-yana düzməyə çalışırdı. Hələ də gözündə ümid var idi. Elə bir möcüzə arzulayırdı ki: "Nə ola... Səhər duram, görəm, sümüklərim bitişib. Amma çətin ki... Sabaha hələ ağırlaşmasa, yaxşıdır. İndidən şişib kötüyə dönüb... Nə isə. Qismət deyilmiş mənə illərdir gözlədiyim arzuya çatmaq. Həmişə yuxularımda Şuşanı azad edirdim. Qələbə bayrağı sancırdım... Şuşanın adı yazılmış o lövhəni illərdir, yıxılıb qaldığı torpağın üstündən qaldırıb baxır... Tozunu-torpağını təmizləyib bayrağımızı onun ilk hərfinin yanında bərkidirdim... İndi isə... Gəl-gəl, bir addımlıqda ayağın sınsın, qal gözlərinlə baxa-baxa..." Ara-sıra Kərimin zəif iniltisi gəlirdi. Qopmuş ayağının sızıltısını nə qədər içinə salmağa çalışsa da, gözünə yuxu gedən kimi iniltisi gəlirdi. Rasim ehtiyatla ona tərəf süründü. Başını qaldırdı. Hərarəti var idi. Qumqumasını Kərimin dodaqlarına yaxınlaşdırdı. Kərim suyu acgözlüklə içdi... Gözlərini açdı. Pıçıldadı:

– Elə bil tonqalın içindəyəm. Yanıram.

– Hə, qızdırman var.

Kərim barmağını dodaqlarına yaxınlaşdırdı:

– Sus, Rasim, heç kəs bilməsin. Əməliyyata gedəcəklər. Fikirləri burada qalmasın... Oldumu?! Biz yaxşıyıq. Əlayıq! Biz Şuşadayıq...

– Oldu, dost. Dözmək, dözmək, yenə də dözmək...

***

Ala-toranda süd kimi dumanın arasında bir-birini güclə seçirdilər. Az sonra qayaya dırmanacaq və oradan erməni postuna tullanacaqdılar. Tullanış riskli idi. Havada müvazinətini qorumaq, özünü itirməmək və uçuşu tənzimləmək vacib idi. Hər şey eyni anda olmalı idi.

Bir anda qayadan qopmaq, havada pərvaz etmək və enmək...

Qaya buz kimi idi. Dəri əlcəklərdən çıxan barmaqlar daşın sərt üzündən elə yapışırdı ki, sanırdın, daşa dırmaşan nəhəng qara kərtənkələlərdir. Qaya qapqara bir sırsıraya bənzəyirdi. Torpaqda bitən və səmaya doğru ucalan bir sırsıraya... O sırsıranın ülgüc kimi kəsən soyuğu dırmananların yanağını qarsalayır, gözlərinin ağını üşüdürdü.

İlk qalxan Nurlan oldu. Özünü qayanın zirvəsində görən kimi üzünü səmaya tutub pıçıldadı:

– Allahım, hüzurundayam...

Dırmananlar bir-bir qayanın başında peyda oldular. Çevik, diri, güc və qürur dolu... Hamı üzünü Yaradana tutdu. Bu qədər yaxına gəlib onunla danışmamaq mümkünsüz idi. Hərə öz arzusunu pıçıldadı... Hərə öz üzrünü dilədi. Hərə öz halallığını istədi...

Komandir qalxdı. Hamını bir-bir nəzərdən keçirdi. Əlini çiyinlərinə qoydu. Gözlərinin içinə baxdı. Sanki gözlər danışdı. Səssiz və lal anlaşma oldu aralarında:

– Bacaracağıq?!

– Əlbəttə, bacaracağıq!

Qayadan sanki bir qatar qartal qanadlandı... Havada dairə cıza-cıza üzüaşağı millləndilər. Uçuş möhtəşəm idi. Bu möhtəşəm uçuşu Rəbdən başqa bir qeyrisi seyr etmədi. Uca Rəbb yaratdıqlarını bütün qəlbi ilə bir daha sevdi. Böyük, ulu EŞQ yaşandı yerlə göyün arasında. Ağappaq buludların altında, bəmbəyaz dumanlığın üstündə. Rəbb bircə kəlmə pıçıldadı:

– OL...



# VƏ OLDU...

https://www.konkret.az

**"Üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar, bir az yerdə çabalayıb, sonra yenə qalxıb üstümüzə şığıyırdılar". "Konkret.az" bildirir ki, bu sözlər erməni əsgərlərindən birinin "Yerevan.today" informasiya-analitik portalına açıqlamasından götürülüb:**

"Onlar ən çox gecələr, dumanlı və çiskinli havalarda gəlirdilər. Əsgərlərimiz səngərlərin qarşısına kartof çipsi tökürdülər ki, onlar gələndə xışıltıdan bilsinlər. Onların gəlişi sanki ölüm mələyinin gəlişi kimiydi. 3-4 nəfərlə gəlib, səngərdəki silahlanmış 20-30 erməni əsgərini öldürərək gəldikləri kimi də yoxa çıxırdılar. Onları gecələr ova çıxmış ac canavara bənzədirdik. Bir az real çıxmasa da, bəzən düşünürdük ki, onlar ümumiyyətlə insan deyillər. Bəlkə də, ya zombi, ya da robot idilər. Üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar, bir az yerdə çabalayıb, sonra yenə qalxıb üstümüzə şığıyırdılar. Hətta özüm dəfələrlə şahidi olmuşam ki, bu gün öldürdüyümüz əsgər sabah diriləərək yenə üstümüzə gəlirdi. Deyirlər ki, 1500 erməni əsgəri 5-6 Azərbaycan əsgərinin qarşısından qaçdı. Bəli, qaçırdıq. Çünki qaçmasaydın, ölümün mütləqiydi. Yenə deyirəm, onlar insan deyildilər. Nəsə ölümsüz bir şeydilər. Öldürmək olmurdu, vurduqca yıxılıb, yenidən qalxırdılar. Şuşa döyüşləri daha dəhşətliydi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq canavar sürüyə girən kimi içimizə giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Erməni əsgərlərini dişləri ilə parçalayırdılar. Xankəndinə gətirilən meyitlərin əksəriyyətinin boyunlarındakı şah damarları dişlə qoparılmışdı. İnsan bunu edə bilərmi? Əlbəttə ki, yox. Bunu ancaq zombilər edə bilər. Deyirlər ki, "Artsax"ı azad etmək üçün yenidən müharibə edəcəyik. Bu zombiləri görən əsgər, ya zabit bir daha "Artsax"da döyüşmək istəməz".



# QARTALLAR HAVADA

Möcüzələrin yaşandığı yer olmuşdu Şuşa. Yaradanın öz qanunlarını dəyişdiyi yer olmuşdu. Yəqin ki, kökündə sehr olduğu üçün qaldırıb qoymuşdu bu şəhəri qayabaşına... Yəqin ki...

...Əsas məsələ o idi ki, qayaların çıxıntısına çırpılmayasan. Buna görə də bacardıqca daha çox irəli tullanmaq lazım idi. Onlar suya baş vururmuş kimi dumanlı zirvədən havaya atıldılar...

Hava ilə sürətli eniş zamanı bağırmamaq üçün özlərini güclə saxlamışdılar. Bu ağlasığmaz enişin yaratdığı çəkisizlik yüksək iradə tələb edirdi. O iradəni də Şuşa mücahidlərində illərlə yoğurub yapmışdılar...

Enən kimi udduğu nəfəsi ağzından və burunlarından üfürən Nurlan ətrafa baxdı. Bir anlıq havalandığını düşündü. Sonra gülümsədi. Qara-qəhvəyi xətlərlə boyanmış sifətində yalnız gözləri parıldadı. Səhərin alatoranında bu gözlər canavar gözü kimi işıq saçdı.

Erməni postuna bitişik səngərdə iki nəfər mürgüləyirdi. Çiyinlərinə saldıqları adyalların arasından başlarını qaldırıb baxmağa heç birinin həvəsi yox idi. Biri yavaşca digərinə pıçıldadı:

– Edik, yatmısan?!

– Niyə soruşursan? Satacaqsan məni? Yatmamışam...

Papağını çıxardıb çoxdandır yumadığı başını qaşıdı:

– Başımda bir ton çirk var... Bədənimə ağırlıq edir...

– Bircə zəhrimar səhər açılsaydı... Nəsə ağırlıq var içimdə... Bilirsən, nə var?! Niyə ölək axı... Hə?!

– Hə də... Niyə ölək?! Adam Vətən yolunda ölər...

– Ara, nə gic-gic danışırsan! *Artsax* vətəndir də...

– Edik, gözümün içinə bax! Başqa heç kəs yoxdur ki, burada özümüzük də. Nə Vətən, ara? Yalandan





düzüb-qoşublar da. Vikipediya məlumatına əsaslanırsan? Yalandır. *Artsax* Vətən niyə olur... Əşi, nə bilim e, başım çıxmır. Olsa da, bizimdir, olmasa da...

...Qayadan enən xüsusi təyinatlılar bir-bir mövqe tutdular. Həyəcanlı olduqları hiss edilirdi.

Komandir:

– Afərin, igidlər. Sizinlə dünyanın o başına getmək olar.

Ədalət gülümsündü:

– Komandir, amma bu dəfə təyyarədə. Belə "uçuş" adamın içini tərpədir. Ürək-göbək məsələsi...

Nurlan:

– Demə ki, ürək-göbəyin düşüb...

Əfqan:

– Düşməz, sadəcə, azca yerindən oynayar...

Komandir:

– Söz... Bir daha belə uçuş olmayacaq. Bir də ki, neçə dənə Şuşamız var ki?! Bir-birinizə baxın. Kimi görmürsünüz?

– Hamı buradadır.

Komandir:

– O nəzarət qülləsinə diqqət. Birinci onları götürürük.

Nurlan pıçıldadı:

– Mənlikdir...

Komandir:

– Ehtiyatla... Unutmayın, düşmən burada möhkəmlənib. İstehkamı və sığınacaqları var. Əraziyə də bizdən daha çox bələddir. Diqqətli olun.

– Oldu, komandir.

Komandir:

– Sakit alınmasa, silahdan istifadə edəcəyik. Tez həll etmək lazımdır. Əsas odur ki, içlərinə vəlvələ salaq. Sonra özləri özlərini qıracaq.

– Oldu, komandir.

– Hücum başladı...

Komandir hücum əmri verəndə Nurlan artıq səngərdəki iki düşmən əsgərini zərərsizləşdirmişdi. İstehkamlara hücum ildırımsürətli oldu. Bir göz qırpımında...

– Nurlan, deyəsən, yaralandım...

– Harandan dəydi, Ədalət? Çıxardım səni kənara?

– Yox, sinəmdən dəyib. Amma özümdəyəm. Güllə içəri keçməyib. Sol döşümə saplanıb qalıb. Əl vuranda ovcuma toxunur.

– Zarafat eləmə onunla. Sürün, çıx atəş xəttindən.

– Yox, hara çıxıram?! Saymışam, düz 40 nəfəri o məsələ... Hələ bir 40-nı da öldürməsəm, ölmərəm...

Onlar yerə sinə-sinə istehkamın o biri üzünə adladılar. Kənan yaxşı mövqe seçmişdi:

– Nurlan, buranı mən nəzarətdə saxlamışam. Necə panikaya düşüblərsə, heç bizə ehtiyac yoxdur. Bax, bir-birini vururlar.

– Ədalət yaralanıb. Çıxmaq istəmir.

– De ki, çıxsın. Biz buranı saxlayırıq.

Elnur:

– Ədalət, eşidirsən, çıx bir kənara. Heç olmasa, əlinlə sıx, saxla, qanın axıb getməsin. Tez ol.

Komandir:

– Ədalət, tərk et döyüşü. Bir yerdə daldalan. Teeezzzz...

– Komandir...

– Dedim, çıx...

– Oldu!

– Əfqan!

– Mən.

– O tərəfə keçin. Sağ cinaha. Deyəsən, qaçırlar. Qoymayın, yerlərindən tərpənsinlər. Sağ götürməliyik...

***

...Saat 12 idi. Gərgin döyüş gedirdi.

– Komandir, baxın, ağ bayraq qaldırıblar.

– Hə, gücləri tükəndi... Çox yaxına getməyin. Dayanın yerinizdə...





Komandir təslim olanları səslədi:

– Silahınızı yerə qoyun. Kitelinizi, kaskanızı da çıxardın... Tez!

Səngərdən iki erməni əsgəri çıxdı.

– İki addım da... Gəlin. Şərəfsizlər. Özgə ayaqqabısını geyinə bilərsiniz, amma yerişini yeriyə bilməzsiniz, alçaqlar.

Komandir irəli çıxdı. Düşmən haradansa qumbara atdı. Qumbara havada süzüb bir neçə metr aralı düşdü.

– Komandiiiir...

Nurlan irəli atılıb komandiri səngərə itələdi. Böyük cüssəsi ilə onun üstünə yıxıldı. Hamı dəhşət içində idi. Toz-duman bir-birinə qarışdı.

– Sağam, komandirim... Yaxşı qurtardıq.

– Yaralanmısan...

– Boş şeydir. Qəlpələr ayaqlarımı tutub... Amma sağam.

Komandir:

– Öz qumbaraları ilə özlərini öldürdülər. Ağ bayraq qaldıranların ikisi də gəbərdi.

Əfqan səngərin o başından səsləndi:

– Qumbara atanı da gəbərtdim.

Komandir ətrafa göz gəzdirdi:

– Çıxırıq. Əsirləri qatın qabağınıza. Ədalət haradadır? Ərazini tərk edirik. Ədalət, gəl...

Kənan geriyə doğru qaçdı:

– Ədalət! Ədalət! Niyə danışmırsan?!

Kənan Ədaləti çevirdi. Əlini boğazındakı şah damarın üstünə qoydu. Sonra qolunda tutmağa çalışdı nəbzini:

– Ədalət Vətən yolunda şəhid oldu, komandirim...

– Şəhadətin mübarək, aslanım. Götürün onu. Qaldırın. Kömək edin yaralılara. Çıxırıq.... Unutmayın, Kərəmlə Rasimi götürməliyik. Şəhərin mərkəzi meydanına doğru irəliləməliyik.

## Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət etdi:

*– Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!*

*Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.*

*İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm Birinci Qarabağ, həm İkinci Qarabağ – "Vətən müharibəsi" adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!*

*Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl – 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək, biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.*

*Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqillik və bu bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq, hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.*

*Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.*

*Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan, demək olar ki, bütün*

ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz, demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.

Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz, demək olar ki, bütün hərbi şəhərcikləri-mizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!

Bax belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, "düz yola gəlin, işğala son qoyun, hələ ki gec deyil". Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin – düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.

Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.

Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq – mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada – Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim, yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!

Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyifsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə-belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu mənə güc verir. Bu mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə; doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda, bəlkə də, ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!

...Haradasa bir qadın üzünü Uca Yaradana çevirdi. Elə bil mavi-çəhrayı səmada bir işıq yandı, nur səpələndi. Uca Yaradan pıçıldadı:

– Ucaltdım, qadın! Ucaltdım! Oğluna qartal əzəməti verdim, qadın! Dağ qüruru əta etdim.

Qadın əvvəlkindən daha məğrur, daha şux dayandı. Pıçıldadı:

– Rəbbim... Səni səmanın mavisində aradım. Sübh şəfəqinin alov rəngli qırmızısında tapdım... Sən oğlumun Vətən uğrunda uçuşunu mübarək et. Sən məqamını uca tut...

– Zəfərin mübarək, aslanlar anası! Şuşa zəfərin!

***

Şuşa uğrunda gedən savaşı incələdikcə bir daha anladım ki, Şuşa təkcə mənim üçün Yaradanın iqamətgahı deyilmiş. Şuşa bu yurdun bətnindən su içənlərin hər biri üçün zirvə imiş. Elə bir zirvə ki, ora qalxanda şəhadət müqəddəsləşir, Vətən uğrunda candan keçmək şərəf işinə çevrilir. Orada başqa heç nə yoxdur, yalnız Yaradan və insan var. O göy üzünə yaxın, yer üzünə uzaq məkanda. Orada səndən əvvəl Vətən var, orada səndən sonra Vətən var, o məqamda dost candan əzizdir, o savaşda müqəddəs amal uğrunda gerçəkləşən ölüm dəhşətli deyil...

Əsrlər keçəcək, bizim ordunun memarı olduğu Şuşa savaşı yüksək sivilizasiya dövrünün ən müqəddəs ruh savaşı kimi tarixə düşəcək. O yerdə ki barıt müşk qoxuyur, o yerdə ki səmalar layla oxuyur, o yerdə ki bulaqlar nur çeşməsidir, o yerdə ki dağlar səni qoruyur. O yerdə – Şuşada Azərbaycan oğlu bütün dünyaya, ağzı doğru dadmayana, gözü yalnız qara görənə, dodağı türlü-türlü yalanlar pıçıldayana sübut etdi ki o, döyüş meydanında yalın əllə döyüşə girənlərdəndir, yumruğu daş, məsləyi yurd uğrunda müqəddəs savaş olanlardandır. Azərbaycan Ordusunun şah əsəri oldu Şuşa savaşı. Dağlarda döyüşün unikal meyarı oldu. "Bundan yaxşı





döyüş olmaz, bundan əzmli döyüşçü olmaz, bundan böyük Vətən eşqi olmaz" deməyimizə imkan yaratdı. Bizim əsgər ən böyük əsgər ola bildi. Bizim əsgər Vətən uğrunda zirvəyə dırmandı, qara, çovğuna davam gətirdi, yaralısını kürəyində, şəhidini ürəyində daşıdı. Düşmənə əlbəyaxa döyüşün nə demək olduğunu anlatdı. O, meydan oxudu... O hər yerdən göründü – şimaldan, cənubdan, şərqdən, qərbdən... "Bir addım geriyə çəkilmə!" Əmr belə idi! Əsgər əmri yerinə yetirdi. Bir amal uğrunda irəlilədi. Bayrağındakı üç rəngin gözəlliyini Şuşa qalasının üstündə dalğalandırmaq üçün qana susayan düşməni əzdi, vurdu, keçdi. Daldalanmağa səngəri olmadı, barıt acılı boğazının yanğısını söndürməyə bir qurtum su tapmadı, aramsız güllə saçan silahının lüləsində isitdi buz bağlamış əllərini...

Və bizə Şuşanı qaytardı... Bundan böyük, müqəddəs iş olarmı?! Saatlarımızı 1992-ci il mayın 8-də saxlayıb, 2020-ci il noyabrın 8-də quraydıq gərək. 8-dən 8-ə olan 28-i yaşamayaydıq gərək. Donduraydıq yaddaşımızı... Yaşadıq. Bu günləri görmək üçün Yaradan bizə möhlət verdi. Şuşaya qovuşma xoşbəxtliyimizi anlamamız üçün şans verdi bizə... Şuşalı günümüzə baxıb özü də sevindi... Sevincimiz mübarək!



# UŞAQLARIN MÜHARİBƏ ACISI



*Sənə uşaqlardan danışmaq istədim, sevimli oxucum. Rəngli-rəngli xəyalları bir anın içində darmadağın olmuş uşaqlardan. Müharibə uşaqlarından...*

*Mavi yağışlar altında sübhədək rəqs etmək üçün yaranmışdı onlar. Çəmənlərin zümrüd rəngli qoynunda kəpənəklərin ardınca qaçmaq üçün doğulmuşdular. Günəşin işıq dolu şəfəqləri ilə gizlənpaç oynamaqdan ötrü gəlmişdilər bu dünyaya. Dalğalarla yarışmaq, yelləncəklərdə küləyin ardınca qanadlanmaq, sübh şehi ilə yuyunmaq, səmaya bəmbəyaz çərpələnglər uçurtmaq, Ay işığında xoşbəxt sonluqlu nağıllar dinləmək üçün şərəfləndirmişdilər bizi. Müharibə üçün doğulmamışdılar. Müharibə... Yerin-göyün ağrısı, uşaqların çəhrayı arzularının yağısı olan müharibə üçün... XOŞBƏXT olmaq üçün gəlmişdilər bu dünyaya...*

# QARANQUŞLARIN NALƏSİ



Azərbaycanın Milli Qəhrəmanı,
Qarabağ müharibəsinin şəhidi
Mustafayev Çingiz Fuad oğlunun əziz xatirəsinə

Onlar tələsirdi... Həyəcanlı və kövrək idilər. Doğma yurd, Vətən ətri, sevimli insan nəfəsi. Necə də darıxmışdılar... Bir bilsən... Tez, lap tez, bir göz qırpımında uçub, insan məskəninə çox yaxın, üzüm tənəkləri və gül kolları ilə bəzənmiş eyvanın məhəccərinə qonmaq, çoxdan həsrətində olduqları yuvaya baxmaq, sobanın düz yuvanın yanından keçən borusundan qalxan hərarətə sığınmaq, neçə aylıq Vətən həsrətinə son qoymaq üçün tələsirdilər. Bəlkə də, öz dillərində elə belə də deyirdilər:

– Ah, Vətən... Bircə sənə qovuşsaydıq...

– Qovuşsaydıq...

– Nə böyük xoşbəxtlik...

– Nə uca səadət...

Sinələri ağ pambıq buludlara bənzəyən qaranquşlar bu il Vətənə bir qədər tez dönməyə məcbur olmuşdular. Köçdükləri diyarda istilər elə şiddətlənmişdi ki, onlar təbiətin şıltaqlığına dözə bilməyib Vətənə erkən dönmək qərarı vermişdilər.

Havanın şaxtalı olmağı göy üzündən bəlli idi... Gün boyu günəş gah görünüb, gah da itirdi. Qaranquşlar getdikcə yaxınlaşdıqları yurd yerindəki insanların mərhəmətinə sığınacaqlarını düşünərək rahatlıq tapırdılar... Amma daxildə nə isə pis hadisəni xəbər verən bir hiss var idi... Səhər açılır, qaranlıq yox olurdu.



Enmək vaxtı idi. Amma göy üzünə qədər qalxan qara tüstü onların enməsinə mane olurdu. Səmada dövrə vurub uzaqlaşır, az sonra qayıdıb tüstü qalxan yerə dönürdülər:

– Nə olub?

– Nə baş verib, görəsən?

– Bu nə tüstü, bu nə duman...

– Vətən od tutub yanır...

– Yanır, yanır, yanır...

– Enək?

– Əlbəttə...

Onlar torpağa doğru şığıdılar. Titrək sinələri ilə tüstünü yara-yara irəlilədilər... Nəhayət... Hərə bir daş qalağının üstünə qondu:

– Xocalı yandırılıb...

– Yurdu dağıdıblar...

– Mənim yuvam bu evin eyvanındaydı...

– Mənimki isə burada...

– Mənimki...





Evlər yerlə yeksan idi. Sanki Xocalı nəhəng bir tonqala atılmışdı.

Çırtaçırtla yanırdı... Bir zamanlar qəhqəhələr qanadlanan yurd yerlərindən burula-burula qara tüstü qalxırdı. Qaranquşlar kəndin üzərində uçuşur, vəhşi haray çəkir, enir, qalxırdılar.

– Xocalı yanır.

– Dağıdıblar...

– Yer üzündən siliblər Xocalını...

– Burada, bu eyvanda iki bacı var idi. Ovuclarından çörək yedirdirdilər bizə... Günay, Nərgizzzzzz...

– Bu evdə bir nənə var idi. Şirin laylalar oxuyardı...

– Burada... Bax mən bu ağacın budağına qonmuşdum. Baba tez-tez başını çevirib mənə baxırdı. Qışa hazırlıq üçün odun yara-yara deyirdi: "Sən uçub gedəcəksən. Amma biz burada qalacağıq. Bura Vətəndir. Buranın qışı da yazı kimi gözəldir. Anlayırsanmı, əzizim?! Çox heyif ki, sən bu yerlərin qışını görmürsən".

Hər tərəf insanlarla dolu idi. Amma onlar qarlı torpağın üstündə yıxılıb qalmışdılar. Tərpənmirdilər. Yerdəki qanla dolu gölməçələr donmuşdu.

– Nərgizz... Gəlin, uçun, gəlin bura, qaranquşlar. Baxın, Nərgizdir. Mənim yuvam olan evdə yaşayan qız... Nərgizzz... Bəs Günay hanı? Günayyyy...

Nərgiz tərpənmirdi. Ətrafında dövrə vuran qaranquşun səsinə səs vermirdi...

Qəfil uğultu quşları pərən-pərən saldı. Bir helikopter endi tüstülənən evlərin arasındakı çöllüyə. Helikopterdən bir neçə nəfər endi. Çiynində kamera olan hündürboylu, qarabəniz gənc oğlan dəhşətlə yerə yıxılanlara doğru qaçır və hönkürə-hönkürə bağırırdı:

– Namərdlər, vəhşilər...

Hönkürtüsü əks-səda verə-verə uzaqlaşır, kamerasını dörd tərəfə fırladır, yerə yıxılanları çəkirdi.

– Buna bax, körpə bala, kim sənə qıydı, kim?





Hönkürtü dalğa-dalğa buz bağlamış çölün sinəsinə dəyir, çilik-çilik olur, qəlpə-qəlpə parçalanırdı... Qaranquşlar bu gəncin hönkürtüsünü eşitməmək üçün səmaya doğru millənir, sonra yenidən qayıdıb alov qarışıq tüstü burulan eyvanların uçuq məhəccərinə qonur və bir müddət tərpənmirdilər. Kənd donmuşdu. Təəccübdən, dəhşətdən. Lal olmuşdu... Kar olmuşdu... Kor olmuşdu...

– Üzünü çevir... Üzünü... Körpə... Vəhşilər sənə necə silah qaldıra bildi axı?! Qatillər!

Kimsə onu çağırırdı:

– Çingiz, tələs. Çingizzz...

Qaranquşlar qara qanadlarını çırpa-çırpa havalandılar: "Çingiz", – deyə göy üzünü dolandılar.

Sonra özlərini bir-bir yanan yurd yerlərinə çırpdılar. Kül qarışıq alov qığılcımları ətrafa səpələndi. Çingizin hıçqırığı qulaqlarından çəkilməyən qaranquşlar bu dünyadakı vəhşiliyə dözə bilmədilər...

– Vəhşilər, amansızlar...

Çingiz hönkürürdü. Lal sükuta bürünmüş Xocalı bu hönkürtünü od tutub yanan sinəsinə çəkirdi... Hər dağılan yurd yerinin xarabalığında bir qaranquş onsuz qısa ömrünün son dəqiqələrini yaşayırdı...





# Sərçə

– Şümşad nənə, ay Şümşad nənə!

Cavab verən olmadı. Sərçə bir də çağırdı:

– Şümşad nənə, ay Şümşad nənə!

Hay gəlmədi. Sərçə yaxşı bilirdi ki, darvazanın yanından neçə dəfə çağırsa da, cavab almayacaq. Axı çağırdığı qarı heç nə eşitmirdi. Amma Sərçə onu çağırmamış artırmaya qalxmağa cəsarət eləməzdi.

Üzüyuxarı boylandı. Arıq ayaqlarını çürüyüb qaralmış taxta pilləkənlərə yavaşca basa-basa yuxarı qalxdı. Artırmada, kilimin üstündə uşaq boyda, beli bükülmüş qarı oturmuşdu.

– Şümşad nənə, mən gəldim.

– Yaxşı elədin, Xanım bala. Gəl otur.

Onu təkcə bu qarı öz adı ilə çağırardı:

– Qəşəng adın var. Xanım! Qoyma, sənə "Sərçə" desinlər.

Amma Sərçənin əlindən bir şey gəlməzdi ki. Çünki çoxları indiyədək onun əsl adını belə bilmirdilər.

Eynən Şümşad nənə kimi bardaş qurub oturdu. Gözlərini qarının həvəngdəstədə nə isə döyən qupquru, damarları çıxmış əlinə zillədi. Haradansa damcılar düşdü bu əllərin üstünə... Damcılar daşa dəymiş kimi sıçrayıb ətrafa səpələndi. Sərçə gözlərini qaldırdı. Gözlərini





qarının qırışlardan susuz torpaq kimi çat-çat olmuş sifətinə zillədi. Çatlar parıldayırdı.

Qarı ağlayırdı. Sərçə də kədərləndi. Ətrafına baxdı. Hər dəfə Şümşad nənənin bu suyu sovrulmuş dəyirmana bənzəyən səssiz-küysüz evinə gələndə darıxardı. Bu lal divarlar arasında yaşayan qarının halına acıyardı.

– Xanım, sənə bir sözüm var.

– Nədir, Şümşad nənə?

– Xanım, balamsan. Özün bilirsən ki, qulaqlarım tamam batıb. Yanımda top atsalar da, eşitmərəm. Qorxuram ki, o qudurmuşlar kəndə girəndə xəbərim olmasın. Məni qoyub getmə...

Səsi əsdi. Boğazı tıxandı. Üzündəki qırışlar yenidən parıldadı.

Sərçə heykəl kimi lal-dinməz durub baxırdı. Öz-özünə: "Gör kimə ağız açır. Gör ümidi nə qədər kəsilib ki..." – deyirdi.

Gözlərinin qarşısından tanış və dəhşətli kadrlar keçdi: Xocalının çöllərinə səpələnmiş qoca, qadın, uşaq meyitləri. Donub daşa dönmüş meyitlərin üstündə hönkür-hönkür ağlayan jurnalist. Çiynində titrəyən kamera...

Qarının səsi onu qısa həyatının ən qorxunc xəyallarından ayırdı:

– Ölüm gözəl şeydir. Amma rahat ölüm...

Sərçə gözlərində sonuncu ümid qığılcımları öləziyən qarıya baxıb öz-özünə: "Yox, qoymaram, sönsün onun sonuncu ümidi", – dedi. Sonra üzünü qarıya tutdu:

– Qorxma, nənə, səni qoyub heç yerə getməyəcəyəm, – dedi, amma sözünü yerinə yetirəcəyinə özü də inanmadı. Kiçik, zərif əlini qupquru, damar-damar əlin üstünə qoydu, – mütləq, mütləq aparacağam.

Qarı gülümsədi. Üzündəki parıldayan cığırlar işıqlandı. Bənizindəki kölgə çəkildi.

Sərçə hoppana-hoppana çürümüş taxta pilləkənlərlə həyətə endi.

***

Bu gün o, erkəndən oyanmışdı. Hamı yuxuda idi. Sərçə qonşunun itinin səsinə durmuşdu. Stolun altındakı çörək teştini çəkdi. Üstündəki dəstərxanı qaldırıb bir parça çörək kəsdi, aşağı yüyürdü. İt atılan çörəyi havada qapdı:

– Yazıq. Bənövşə də insafsızmış. Heç olmasa, gedəndə bu heyvanı zəncirdən açıb buraxaydı. İndi ona kim yaxın düşə bilər ki...





İtə baxdı. Çörəyi yeyib qurtarmışdı. Yazıq-yazıq ona baxırdı. Sərçəyə elə gəldi ki, onun qapqara gözləri yaşarıb. Sonra öz-özünə:

– İtlər də ağlayar?! – sualını verdi. Daha heyvanın gözlərinə baxa bilmədi. Dönüb eyvana tərəf getdi. Eşitdiyi qəfil gurultudan qulaqları uğuldadı. Yerindəcə dondu. Qonşu evin divarı gurultu ilə töküldü.

Top mərmisinin səsinə anası və bacıları eyvana atıldılar. Gurultu kəsilmirdi. Sərçənin başının üstündən vıyıltı ilə güllələr keçirdi. Bacıları çığırışırdı. O da qışqırmaq istəyirdi, amma səsi çıxmırdı:

– Kəndə giriblər. Ay camaat, ermənilər kəndə giriblər.

Anası hazır qoyduğu bağlamanı götürüb həyətdəki maşına doğru tələsdi. Dəhşət içində həyətdə qaçışan uşaqları içəri yığdı. Babası ağır bədənini güclə gətirib sükanın arxasına salmışdı. Atası cəbhəyə gedən gündən maşını o özü sürürdü.

Sərçə maşına sarı getdi. Oturmaq istədi, amma bacarmadı. Qulaqlarında "Ölüm yaxşı şeydir. Rahat ölüm..." sözləri səsləndi, gözlərinin önündə buza dönmüş meyitlər və hönkürən jurnalist canlandı...

Qaça-qaça kənd yoluna çıxdı. Anasının səsi gurultuya qarışdı:

– Sərçə, Sərçə, hara, ay bala?! Sərçə, qayıt!!!

Çürümüş pilləkənləri necə çıxdı, xəbəri olmadı. Artırmada heç kim yox idi. Ağlından keçən fikirdən dəhşətə gəldi:

– Yatıb!!!

Kiçik yumruqlarını pəncərəyə döydü:

– Dur, Şümşad nənə, dur! Dur, nənə, dur. Ermənilər kəndə giriblər...

Xeyri olmadı. Qarı tərpənmirdi. Baş verənlərdən xəbərsiz ölü kimi uzanmışdı.

...Yenə buza dönmüş meyitlər, yenə boğuq hönkürtü... Qızın bədəni əsdi. Dönüb pilləkənlərə tərəf atıldı. Bir pilləkən düşdü. Dayandı:

"Rahat ölüm yaxşı şeydir. Rahat ölüm..."

Artırmanın qapısına doğru çevrildi. İlk gözünə dəyən pəncərənin qarşısındakı həvəngdəstə oldu. Həvəngin dəstəsini götürüb qarşısındakı pəncərənin şüşəsinə çırpdı. Onun tamam tökülməsini gözləyə bilmədi. İçəri atıldı:

– Dur, nənə, dur. Dur, nənə, – deyib qarını silkələdi.

Qarı dik atıldı:

– Gəlmisən, Xanım bala?! Gəlmisən...

Sərçə verdiyi sözü yerinə yetirmişdi. Öz sözünə inanmasa belə. Qarı da arzusuna çatmışdı. Nə vaxtsa öləcəkdi, amma rahat ölümlə...

Güllə atəşi altında bir minik avtomobili kələ-kötür kənd yolu ilə şütüyürdü. Bu maşında qonşunun zəncirdə qalmış itindən ötrü bir qız hönkürürdü...

Üstündən illər keçəcək. Hönkürtüsü içinə dərd kimi hopmuş qız böyüyəcək. Amma onu ömür boyu yaşla dolmuş qonşu itin gözləri təqib edəcək. Elə hey fikirləşəcək:

– Görəsən, itlər də ağlayır?!





# BURMABUYNUZ

Səhər yenicə açılmışdı. Səma mavi gözlərini günəş şəfəqləri ilə gecədən çiləmiş qarın gözqamaşdırıcı parıltısına bürünüb uyuyan Yer üzünə zilləmişdi. Vurğunluqla tamaşa edirdi. Tanrının yaratdığı sənət əsərinə baxdıqca baxmaq istəyir, doymaq bilmirdi. Küləyin sovurub kolların dibinə qovduğu qar dənələri istisi azalmış zəif fevral günəşinin qorxaq şüalarının hərarətindən ərimir, əksinə, qalxıb havada uçuşur, süzür, rəqs edir, sonra ləngər vura-vura yenidən qayıdıb torpağın qara sinəsinə enir və rahatlanırdı. Bu sübh səssizliyini çöl-biyabanı dolaşıb gələn küləyin sərt vıyıltısı yarıb keçir, qamçılayıb çilikləyirdi. Küləyin yerindən oynatdığı qar dənələri kol dibi dəyişir, uçur, ötüşür, itələşirdi. Səmaya elə gəlirdi ki, gecə şaxtasından donmuş torpağın üzərində gəzişən ac sərçələr də ayaqlarını yerə ehmalca basır, qu tükü tərpədirmiş kimi astaca dimdiklərini qara batırıb-çıxarır, kəndi bal kimi sübh yuxusundan oyatmamaq üçün əllərindən gələni edirdilər. Amma xoruzların ilk banı ilə bəzi evlərin bacalarından burula-burula qalxan tüstü bu şirin əyləncənin bitdiyindən xəbər verirdi.

Kənd yuxudan ayılmışdı. Səma da bunu hiss etmişdi. Üzü göyə millənən tüstü bayaqdan onu heyranlıqla seyr edən mavi səmaya Yer üzünün hərarətindən və sevgisindən pay aparmışdı. Səma gülümsəyir, sevinirdi. Tüstüdən

açışan gözlərindən düşən damcılar üşüyür, sərtləşir, şəkillənirdi. Sonra naxış-naxış, dənə-dənə, çiçək-çiçək qara torpağa səpilirdi...

– Ay bala, durun, gəlin, qarlayır...

Kəndin növbəti qar həyəcanından xəbər verən kişinin səsindən səksənən quşlar pırıltı ilə uçuşdu. Eyvanda isti yataqdan birbaşa qar müjdəsinə qaçışan ayaqyalın, qırmızıyanaq uşaqlar göründü. Qar xəbərini yayan kişi isti yorğan-döşəkdən şaxtaya çıxan yarmaça kimi oğlan uşaqlarını məhəbbətlə süzdü:

– Ay maşallah. Sizi Yaradana şükür. Ay maşallah. Niyə çılpaq çıxdınız? Qartopu oynamaq istəyirsiniz?

Uşaqlar soyuqdan donan yalın ayaqlarını eyvanın taxta döşəməsinə ehtiyatla basa-basa bir az da irəlilədilər. Qara kirpikləri sevincdən geniş açılmış gözlərinin əhatəsində titrəşdi:

– Hə, baba. Düşək həyətə?

– Yox. Əvvəlcə gedin, əyninizi qalın geyinin, başınıza papaq qoyun. Sonra gəlin.

Uşaqlar qarı qoyub içəri keçmək istəmədilər. Babanı inandırmağa çalışdılar:

– Düşək də... Bizə soyuq deyil... Üşümürük... Heç bir damcı da.

– Nə? Yalançılar. Qar özü soyuqdan tir-tir əsir. Bunların sözünə bir bax: "Bizə soyuq deyil". Gedin, tez. Əlcək də geyinin, gəlin. Mən də tövləyə baş çəkim. Görüm, Burmabuynuz nə edir.

Uşaqlar sevinə-sevinə, itələşə-itələşə evə girdilər. Kişi tövlənin yanına gəldi. Küləyin sovurub qapının ağzına topaladığı qarı ayağı ilə geri kürüdü. İçəri girməmişdən qabaq başını qaldırıb səmaya baxdı. Pıçıldadı:

– Allah, sən saxla. Qəfil bəladan. Azmışdan, qudurmuşdan... Sən saxla, Allah.





Sonra içəri girdi. Tövlənin külək tutmayan küncündə ağ pambıq topası kimi yumrulanıb yatmış qoçun yanına gəldi. Kişinin addım səslərini eşidən qoçun burma buynuzları tərpəndi. Sonra buynuzlar ağ pambıq topasından ayrıldı, qalxdı, kişinin hənirtisinə tərəf döndü:

– Hə, Burmabuynuz, necəsən? Ayaz vurmayıb ki, səni? – Kişi onun belini ovxaladı, əllərini tüklərinin arasına salıb qıdıqladı. – İstisən. Yerin rahatdır?

Kişiyə elə gəldi ki, Burmabuynuz razılıq əlaməti olaraq başını da tərpətdi:

– Qoçağımsan, ey, qoçağım. Adam kimi dil bilirsən. Bircə ağzını açıb danışmağın qalıb.

Qoç sanki minnətdarlıqla başını onun ayaqlarına sürtdü, silkələndi, titrədi. Tövlənin qapısı cırıltı ilə açıldı. Düşən işıq zolağının arasından külək özünü içəri təpdi. Tövlənin bu başından vurub, o başından çıxdı. Onun ardınca uşaqlar qaçıb tövləyə girdilər:

– Burmabuynuz, salam.

– Burmabuynuz, salam.

Nəvələrin salamını baba aldı:

– Salam, salam, – sonra qoçun əvəzindən onlarla hal-əhval da tutdu. – Necəsiniz? Özünüz yatıb, özünüz dura bilirsiniz?

Nəvələr bu sual üçün həmişə hazır cavabı verdilər:

– Hə, özümüz yatırıq.

– Özümüz də dururuq.

– Afərin sizə.

Uşaqlar Burmabuynuza tərəf qaçdılar. Burmabuynuz sevindi. Ağ top kimi yerində hoppanıb-düşdü. Geri-geri gedib qoşa buynuzlu başını irəli verdi. Uşaqların üstünə yeridi. Uşaqlar qaçışdı. Kişi onun burma buynuzlu başını əlləri ilə tutdu:

– Dayan, dayan. Neynirsən? Dəcəlin biri dəcəl.

Uşaqlar kişinin əllərini tutub çəkdilər:

– Eləmə, baba, o bizimlə oynayır. O gəlir, biz qaçırıq. Elə bilir ki, ondan qorxuruq.

– O elə bilir, hə? Amma siz qorxmursunuz.

– Hə, o elə bilir. Biz heç nədən qorxmuruq.

Kişi güldü. Nəvələri ilə Burmabuynuzun oyununu seyr etmək üçün tövlənin kənarına çəkildi. Qoçun hər hücumundan həyəcanlansa da, bir də irəli durmadı. Nəvələrinin çəldliyi xoşuna gəldi. Düşündü: "İndi qorxaq uşaq böyütmək zamanəsi deyil. Qoy özlərini müdafiə etməyi öyrənsinlər".





– Baba, qoy Burmabuynuz da gəlsin qartopu oynamağa.

– Nə deyirəm. İstəyirsə, gəlsin.

Uşaqlar sevindilər:

– Gəl, Burmabuynuz. Qorxma, baba icazə verir.

Qoç həvəslə tövlədən çıxdı. Qar sevincini yaşayan uşaqlara qoşuldu. Atılıb-düşdü. Sonra onu öz dəstəsinə qoşan uşaqlar dalbadal qartopuları yağdırdılar üstünə. Sevinirdi... Uçmağa qanadı yox idi. Qışqırmaq istəyirdi: "Ey... Ey... Çoxlu atın. Mənə çoxlu qartopu atın. Nə qədər qar var, yumrulayın, atın. Qorxmuram... Maraqlıdır. Gülməlidir".



– Baba, bax, gör necə qartopu oynayır. Buynuzları ilə havada vurur. Baba, kəsmə də onu... Nə olar?! Yaxşı, baba?! Kəsməzsən, hə?!

– Hələ yox. Ona çox var. Burmabuynuz qurbanlıq qoçumuzdur. Qurban bayramında, inşallah.

– Onda da kəsməzsən. Gör necə gözəldir. Həm də ağıllıdır.

– Baba, o bizim ağ qoçumuzdur... Yadına gəlirmi, Məlikməmmədin nağılında ağ qoç vardı ha... İşıqlı dünyaya aparan... Bax Burmabuynuz da həmin ağ qoçdandır. Oturarıq üstündə, gedərik işıqlı dünyaya. Nağıldakı kimi...

Kişi gülümsündü. Uşaqlara verəcəyi cavabı bir anlıq düşündü. Beynində götür-qoy etdi. İşıqlı dünya arzusunda olanların tərtəmiz gözlərinə baxdı:

– Olmaz, oğlum. Baba onu Qurban bayramı üçün ad eləyib. Ona görə gözəldir. Qurbanlıq heyvan qüsursuz olmalıdır. Təki salamatlıq olsun, düşmən qovulsun yurd-yuvamızdan, biz də Böyük bayramda qurbanlarımızı kəsək, nəzir-niyazımızı verək...

Uşaqlar kişinin sözünü ağzında qoyub Burmabuynuzu qucaqladılar. Sığalladılar, tumarladılar, ovuclarının içi ilə buynuzlarının arasına vurub qaçışdılar. Qoç ərköyünlük etdi. Kəllə atdı. Qaçanları qovdu, büdrədi, sürüşdü. Amma dayanmadı. Qar kefini insanlar kimi içdən yaşadı. Uşaqlar güldü, qəhqəhə çəkdilər. Gülüşlər ağ qarın üstü ilə şütüdü, sürüşdü. Qartopulara qarışıb həyəcandan qızarmış yanaqlara çırpıldı... Qəfildən sanki havada uçuşan ağ toplar toqquşdu, ətrafa qığılcımlar səpələndi, nə isə işıldadı, nə isə közərdi, nə isə uğuldadı. Qəhqəhələr çilik-çilik olub ətrafa səpələndi, hıçqırtıya, qışqırığa, bağırtıya çevrildi. Qar dənələrinin





nizamlı rəqsi pozuldu. Günəş buludların arasına çəkildi. Tələsik itdi göy üzündən. Külək daha bərk vıyıldadı. Qonşu Səyyarə xala oğlunu çağırdı:

– Qorxmaz, ay Qorxmaz, tez elə, oğul, ermənilər kəndə girib...

Burmabuynuz ürkdü. Atılıb-düşdü, buynuzlarını kişinin ayaqlarına sürtdü. Kişi özünü itirdi. Bir ona baxdı. Bir də həyəcandan sapsarı olmuş nəvələrinə. Sonra bir anın içində seçim etdi. Döndü... Güllə yağışı altında dəhşətlə qaçışan nəvələrini qucağına aldı. Hara gedəcəyini unutmuş kimi gözü ətrafı gəzdi. Tez özünə gəldi. Zirzəmiyə doğru qaçdı. Qapını açıb dar pilləkənlərlə üzüaşağı endi. Burmabuynuz onun ardınca baxdı... Kişinin görüntüsü yox olandan sonra onun addım səslərini dinlədi. Ehtiyatla kişinin girdiyi qapının önünə gəldi. Dayandı... Qorxudan böyümüş gözləri doldu. Qəfildən döndü. Sonra sürətlə gələn mərminin işığında ağappaq bənizi aydınlaşdı, buynuzları parıldadı. Yerindən sıçradı və sürətlə qaçmağa başladı. Bayaqkı mərminin biri də yaxınlığa düşdü. Daha qəzəblə, daha boğuq səs çıxarda-çıxarda. Həyət qapısının ağzında haqladı Burmabuynuzu. Ondan bir addım qabağa düşüb partladı. Qoç səndirlədi. Ağappaq yunundan qırmızı damcılar süzüldü. Bədəni burma buynuzlarından yuxarı qalxdı. Yepyekə ağ qartopu kimi havada dövrə vurdu. Ayaqları nizamsız çevrələr cızdı. Bir anlıq göylə yer arasında qaldı. Bir göz qırpımında göydən yerə çırpılmağın dəhşətini yaşadı... Top mərmisinin qarşısında açdığı iri çalaya düşdü. Üstünə qapqara torpaq yığını axdı. Bu an zirzəminin qapısı açıldı... Tüstü və dağıntını görən uşaqların boğuq hönkürtüsü eşidildi. Qapı yenidən örtüldü.

Kişi özünü həyətə atdı. Dəhşətdən böyümüş gözləri ilə torpaq və tüstü burulğanı arasında Burmabuynuzu axtardı... Sonra döndü. Balaca yumruqları ilə düşdükləri qaranlıq dünyanın qapılarını döyəcləyən nəvələrinin işıqlı dünya bələdçisinin torpaq yığını altındakı cansız bədəninə baxa bilmədi...



# ÇOCUQ MƏZARLIĞINDA DURNA LAYLASI



Zülmətə bürünmüş dağların qoynunda səssizlik hökm sürürdü... Səmada susqun ulduzlar sayrışır, Ay qəribə bir kədərlə göy üzündə mürgüləyirdi... Asılan şeh süzülüb tökülmək üçün sabahı soraqlayır, yerə düşməyə tələsən hər damcı gecənin lal sükutunu pozacağından qorxurmuş kimi yarpaqların ucunda donub-qalırdı. Haradasa qurd ulayırdı, lap uzaqda it zingildəyirdi, yaxınlıqda uçuşan yarasalar gecənin sükutunu doğram-doğram edirdi... Sanki təbiət nəfəs almırdı... Yumruğa dönmüş dərdini udmağa cəhd edirmiş kimi heysiz və hərəkətsiz qalmışdı. Arada dağların döşündən qopub gələn dağ çayı lal sükuta kiçik həyat ştrixləri qatır, amma bu, ani olurdu. Bir göz qırpımında...

Hər gecə belə olurdu. Hər gecə. Aydın və ılıq yay gecələrindən tutmuş, zülmət və qarlı qış gecələrinə qədər. Bəzən Ay dağların zülmət qoynunda illərdən bəri səssiz, titrək və donuq qəbiristanlıqdakı küləyin, yağışın həmlələrinə dözmüş kiçik qəbirlərin qısa, ensiz başdaşılarını işıqlandırır, amma bu mənzərədən çox tez kədərlənir, Günəşdən borc aldığı zəif parıltısını yığışdırır, utanırmış kimi səmanın dərinliyində itib-batırdı...

Nə vaxtsa "Ağdaban" deyərdilər bu kəndə... Kəlbəcərin Ağdaban kəndi... İllər bundan öncə... İndi adı yox idi.

Yəqin, öz adını çoxdan unutmuşdu Ağdaban... Amma kəndin nə taleyində, nə də indiki görünüşündə "ağ" deyilən heç nədən əsər-əlamət yox idi. Təkcə bu qəribə məzarlığın nə vaxtsa ağ daşdan yonulub, illərdən sonra yaşılsarı, qəhvəyi-sarı rəngə çalan yıxılmış, əyilmiş, artıq torpağın, otun içində görünməz olan başdaşıları kimi... Bura, bəlkə də, Yer üzünün ən qərib məzarlıqlarından biri, bəlkə də, yeganəsi idi... Çocuq məzarlığı... Adını belə çəkəndə içində nə isə qırılırmış kimi dilin bir anlığa tutulur... Əziz Nesin kimi " Öylə bir ölsem... Öyle bir ölsem ki, çocuklar... Size hiç ölüm kalmasa..." deyə son ölümü canına çəkmək istəyənlərdən qırılıb qalmış ölümlər məzarlığı idi... Çocuq məzarlığı... Bu dünyaya sevinmək, böyümək və yaşamaq üçün gələnlərin biri dünyasını dəyişəndə bu məzarlığın son bucağında bir yeni qəbir qazılar, torpaq için-için ağlayar, o böyümək üçün doğulanın zəif, zərif, köməksiz nəşini hönkürə-hönkürə qucaqlayar, onu ovutmağa, isitməyə, oxşamağa çalışardı... Bu məzarlıq elə çocuq ölümləri görmüşdü ki... Hər gördüyündə elə ölüb-dirilmişdi ki... Elə titrəmiş, elə əsmişdi ki, bəlkə də, bu titrəyişdən yurdun hansısa bucağında yer də tərpənmişdi, dağ da uçmuşdu... Amma heç kəs bilməmişdi ki, bu gün o məzarlığa diri-diri dərisi soyulan bir çocuq tapşırılıb... Dünya elə kar olmuşdu ki, ana bətnindən çıxardılıb boğulan körpənin lal fəryadını duymamış, onun bu yazıq məzarlığın hansı bucağında uyuduğundan xəbəri olmamışdı... Yaxud heç kəs bilməmişdi ki, bu qapqara torpağa nə dərdlərlə dünyadan köçən körpə canlar gömülmüşdü və hər yeni nəfəssiz canı özündə gizləyəndə bu torpaq nələr çəkmişdi... Qara günlər əli-ayağı qara, niyyəti qara qonşuların bu yurda işğal yürüşü günü başlamışdı. Sonra boy-boy qalxası, günbəgün böyüyəsi çocuqlar bir-bir bu məzarlığın məzarlarının sayını artırmışdı...

Bir gününə səkkiz qəbir düşən vaxtı da olmuşdu bu başıbəlalı torpaq kəsiyinin...





***

Budur... Bir erməni helikopteri enir... Tütünçü qadınları girov götürmək istəyən və elə həmin qadınların tərksilah etdiyi yeddi erməni hərbçisini aparmağa gələn helikopter havaya qalxır və sərxoş pilotun başı özünü idarə edə bilmir, gicəllənir... Helikopter səmada əcaib rəqs edir. Bu rəqsi Ağdaban camaatı dəhşət içində izləyir... Bərəlmiş gözlərin həyəcan və qorxu içində izlədiyi helikopter elektrik naqilinə toxunur... Müvazinətini itirir və havada ölüm dövrələri cıza-cıza enməyə başlayır... Enərkən pərləri ilə yaxınlıqdakı meydançada futbol oynayan səkkiz oğlan uşağının başını bədənindən ayıra-ayıra yerə çırpılır... Ağdaban bu səhnənin dəhşətindən yerindən qopur. Dəniz səviyyəsindən kilometrlərlə yüksəkdəki canını bu dəhşət yağan planetdən götürüb kəhkəşana pənah aparmaq istəyir... Çocuq məzarlığı bu boyda yükü qaldıracağından əmin olmadığından dəli hönkürtülərlə qanlı səhnəni izləyir. Bayaqdan şən qəhqəhələrin məkanı olan futbol meydançasından səkkiz baş yığılır, səkkiz bədən toplanır... Həmin gün bu bədbəxt məzarlığın qoynunda səkkiz məzar qazılır... Səkkiz körpə can yuyulub-bükülüb bu biçarə torpağa təhvil verilir...

Ah... Çocuq məzarlığının çəkdiklərini kim çəksə, şam kimi əriyərdi... Amma o durur, dayanır, ərimir... Çünki sakit, lal, susqun bağrında çocuq uyudan məzarlıq ona əmanət edilənləri unudub nə əriyə bilir, nə də çürüyə. Elə susa-susa, uda-uda dərd çəkmək məcburiyyətində qalır...

İllərin səssizliyinə qovuşur. Düz 28 ilin sükutuna qərq olur...

***

...Səmadan boylanan Ay sanki bir anlığa işığını uddu... Udduğu işıq içini göynətdi, gözlərini yaşartdı. Yaş dolu gözləri ilə çocuq məzarlığına bir az yaxın gəldi. Daşa dönmüş çocuqlara bir kəlmə ilə müjdə verdi:

"Gəldilər..." Körpə-körpə məzarlar parıldayıb zülmətə işıq saçdı... Hansısa bir ulduz sevincindən axdı... Hansısa bir çiçək yuxulu gözlərini açdı. Səmadan ağ yelkənlər qanadlandı... Bir durna qatarı endi məzarlığa... Ağappaq qanadlar həsrətlə məzarlara doğru tələsdi. Hərəsi özünü bir məzara çırpdı. Hərəsi qanadlarını açıb bir məzarı qucaqladı... Balası kimi. Hərəsi bir durna ağısı dedi... Hərəsi bir durna laylası çaldı. Məzardakıların gözü yollardan yığıldı, ovundular... Körpə başlarını ana torpağa qısıb durna laylasını ana laylası kimi zərrə-zərrə canlarına çəkdilər... Ay səmada yelləndi, yırğalandı... Durna laylası göyün də iliyinə işlədi. Buludlar ağır karvanlarını çəkib üzü məzarlığa doğru yeridi:

*Balam, yat, balım, yat,*
*Yırğalasın yel səni...*
*Sən yat, məzar daşınla*
*Qucaqlasın yer səni...*
*Ay da göydən asılsın,*
*Ulduz da ətəyində...*
*Yat, çocuq, yat, xumarlan*
*Öz torpaq bələyində...*

Hər durna bir məzara sürtdü üzünü. Hər durna bir məzara qısılıb pıçıldadı: "Rahatsanmı, körpəm?.. Səni vəhşilər parçaladı. Qol-budaq etdilər. Rahat yat... Anan buradadır... Yanında, körpəm. Sən onun qanadları arasındasan..."

Ay təəccüblənmədi... Ulduzlar da. Səma da ala-toranda həyəcanlanmış kimi görünmədi... Durnalar qatarlandı. Göy üzünə onların ardınca çocuq məzarlarından bir qatar nalə qalxdı: "Anaaaa... Anaaaa... Ana..." Torpaq onları ovutmağa çalışdı... Azca yellədi, yırğaladı... Beləcə, üzü sabaha doğru getdilər. Dan yeri qızardı. Qan rənginə boyandı göy üzü. Yarpaqların ucundan giləlenmiş





şeh süzüldü. Məzarlardakı körpələrin göz yaşı kimi axdı, bir-birinin ardınca onlar yatan torpağı zərlə bəzədi...

Durnalar uçduqca uçdu... Heç biri dönüb geri baxmadı. Amma hərəsi qanadından bir lələk saldı. Lələklər havada löngər vura-vura, astaca, aramla məzarların üstünə endi... Durnalar üfüqdə nöqtə kimi göründü.

***

Ay son şəfəqlərini yığıb səmada yox olanda pıçıldadı: "Özünü dağdan atan qadınlar..." Ulduzlar sönə-sönə son dəfə danışdı: "Ermənilərin əlinə düşmək ölümdən də betər idi..."

Sonra buludlar ağladı. Bir ovuc yağış ələndi. Hər damcı özü ilə bu kədərli əhvalatın bir cümləsini gətirmişdi: "Onların son ümidi dağlar idi. Dağlardan o yana isə uçurum... Dağların zirvəsindən çaylar kəmər kimi görünürdü... Arxada vəhşiləşmiş ermənilər var idi... Öndə zirvələr və nəhayətsiz uçurum. Qadınlar qarşılarına çıxan ilk zirvəni seçdilər. Əl-ələ tutdular... Kimsə pıçıldadı:

– Başqa yol yoxdur.

Kiminsə qapqara gözləri yaşla doldu:

– Qorxuludur.

Bir başqasının dağ laləsi kimi qırmızı yanaqlarında büllur damcılar işıldadı:

– Gözünü yum, Nigar, heç nə düşünmə. Zirvə ilə uçurumun arasında bircə addım var. O addımı atsan, azadsan. Ruhun səmalarda uçacaq... Yum gözlərini.

Sara pıçıldadı:

– Görəsən, sağ qalmaq ehtimalı var?!

Qadınlar yaş dolu gözlərini Saraya zillədi. Ah, Sara... Sənin günəş kimi arzuların var idi, Sara...

Kimsə son anda onun ürəyini qırmamaq üçün pıçıldadı:

– Bəlkə də, Sara... Bəlkə də...

Sara uçurumdan aşağı boylandı:

– Qanadlarımız olsaydı, uçardıq...

Kimsə onu tələsdirdi:

– Gecikirik, Sara.

Aşağıdan ermənilərin it hürüşünə bənzər səs-küyü gəldi. Qadınlar tələsdi. Onlarla qadın əl-ələ tutdu. Dağın ətəyində zirvəyə tələsən ermənilərin səsi bir az da yaxınlaşdı: “Ara, hara qaçacaqlar?! Dağdan o yana yol var ki?!”

Var idi. Dağdan o yana əbədiyyətə, ölümsüzlüyə aparan yol var idi. Ən kəsə yol. Ən ali yol. Ən uca yol. Qadınlar o yolu seçmişdilər... Onlar pıçıldaşırdılar:

– Hazırsan?

– Hazıram, Gülçin. Amma əlimdən bərk-bərk tut. Düşəndə də buraxma, yaxşı?

– Yaxşı, Nigar, buraxmayacağam...

Sara havalı kimi gülümsədi. Qollarını yana açdı:

– Baxın, qanadlarım var... Mən uçuram, qızlar...

Deyib özünü sıldırımdan atdı. Qadınlar dəhşət içində səndələdi. Kimsə pıçıldadı:

– Havalandı... Bəxtəvər Sara... O özünə qanad uydura bildi...

Zirvənin lap kənarına gəldilər... Hamısı bir ağızdan “Ya Allah” dedi. Boşluğa atıldılar... Suda üzürmüş kimi əl-qol ata-ata, boğula-boğula... Donlarının ətəyi uçuşa-uçuşa, saçları başlarının ətrafında dağınıq dairələr cıza-cıza. Bu səhnəni seyr etməyə dağların qüdrəti çatmadı... Bu gözəllik uçuşunu yalnız Yaradan seyr etdi.

Sıldırıma çatan ermənilər donquldanırdılar:

– Ara, bunlar neynir, ara?

– Dağdan atırlar özlərini.

– Ara, işə bax sən. Sən özünü dağdan ata bilərsən?

– Yox, ara, sən nə danışırsan?!

Sonra Yaradan qərar verdi... Onlara uçurumun dibindəki daşlara çırpılmağa izin vermədi. Var gücü ilə: “Ol”, – dedi... Havada oynayan əllər-ayaqlar dəyişdi,





bəmbəyaz lələklərlə örtüldü. Qanadlar havada şaqqıldadı. Əvvəl uçuruma daha yaxın olan Sara qanadlandı. Üzüyuxarı uçdu. Sonra o biri qadınlar uçurumdakı sal qaya parçalarına çırpılmağa bir an qalmış durnalara çevrilib zirvəyə doğru qalxdılar. Durnalar sevinclə dimdiklərini oynatdı. Üzüyuxarı uçan Saranın ətrafına dolandılar... Sonra üzüaşağı qanad çalıb çocuq məzarlığının üstündə dövrə vurdular və səmaya doğru heyrətli bir uçuş sərgilədilər... Bir anda dağların qoynunda yox oldular...

***

Yenə göydən yerə bir ovuc yağış ələndi. Yenə damcılar pıçıldaşdı: "O gündən hər gecə bu durna qatarı məzarlığa enir, hər durna bir çocuğun məzarı üstündə qanad çalır və onlara durna laylası oxuyur... Bu durnalar payızda Ağdabanı tərk etmir, baharda geri dönmürlər. Bu durnalar Vətənlə qalır, Vətəndə qalırlar..."





# EDAM

Günəş boz-bulanıq bulud topasının arxasına girib ağır-ağır qüruba enirdi. Göy üzünün çirkli toranını işıqlandıran sonuncu şəfəqlərinin əl-ayağını yığıb, cadar-cadar olmuş torpağı bomboz səma, üzü şimala sürüklənən bulud topası ilə baş-başa buraxırdı. Səmanın pərişan qoynunda üst-üstə qalaqlanan buludlar batmaqda olan günəşin boş qalmış qırmızımtıl-mavi yerini doldururdu. Bu buludlar susuzluqdan qurumuş torpağa ümidverici bir şey vəd etmirdi. Özləri yol üstə idi, karvan kimi harasa köçürdülər.

Susuzluqdan bağrı çatlayan yerə elə gəlirdi ki, Tanrı ona ayırdığı səma payını bu qara buludları, batıb-görünməz olan günəşi ilə birlikdə hara isə çəkib aparacaq. O, başının üstündə uçuruma bənzəyən dəhşətli boşluqla tək-tənha qalacaq. Yer gözünü axan bulud topasına zilləmişdi. Tanrının belə bir haqsızlıq etməyəcəyinə inana-inana səmaya sonuncu su payını yollamaq üçün qurumuş ciyərlərini ağrıyana qədər gərib, orada qalmış son damcıları buxara çevirib göyə yönəltdi.

Dəhşətli sükutu yük avtomobilinin gurultusu pozdu. Ətrafda hər şey səmanın acı mənzərəsindən gözünü ayırıb gələnlərə zillədi. Gələnlər saqqallı çənələrini qaşıya-qaşıya yerə atıldılar. Sonra gurultu qopdu. Maşından aşırdılan enli dəmir boru torpağın bomboz qoynu ilə bir

xeyli diyirləndi. Buludların qara kölgələri onu ağ-qara ləkələrlə müşayiət etdi. Sonra iyrənc gülüşmə bayaqdan köç edən göy üzünün həyəcanından nəfəsi qarsılan torpağı titrətdi:

– Əla düşünmüsən. Genialnaya ideya. Ara, heç kimin ağlına gəlməzdi bu. Necə fikirləşdin?

– Qəfildən... Durduğum yerdə.

– Sən möhtəşəm planlar, layihələr ustasısan. Buna isə heç nə çatmaz. Amma gərək fotoqraf gətirəydik.

– Nəyə lazım... Belə şeyləri fotoaparatın yaddaşına atmaq riskdir.

– Yox, bu, lazım idi. Ha-ha-ha... Doğrudan da, genialnı ideyadır...

Ətraf çəkiliş meydançasına bənzəyirdi. Maşından qaynaq qurğusu da düşürtmüşdülər. Üzü qorxu və iztirabla dolu bir neçə uşaq maşının yük yerinə qısılmışdı. Gözləri aşağıda dayanıb zarafatlaşanlara dikilmişdi. Tərpənmirdilər. Sanki plastilindən düzəldilmiş fiqurlar kimi istidən əriyib bir-birinin üstünə qalaqlanmışdılar. Amma bu böyük plastilin topası nəfəs alırdı. Üst-üstə qalaqlanmış təpəcikdəki gözlərin bəbəkləri dəhşət içində oynayırdı. Qara buludların bayaqkı köçü indi də tövşüyən uşaq qalağına kölgəsini salmışdı.

Aşağıdakılar diyirlənib maşından uzaqlaşan dəmir borunun üstündə oturmuşdular. Ciyərlərinə çəkdikləri tütünün acı tüstüsü burunlarından qopub çirkli səmaya doğru millənirdi:

– Dur, başlayaq.

– Bir az dayan.

– Niyə?..

– ...

İkinci yanındakının növbəti sualını cavabsız buraxdı... Bığının altındakı təbəssümü yastı sifətini daha da eybəcərləşdirdi. Dərindən nəfəs aldı. Baxışlarını buludlu





səmada gəzdirdi. Hoppanıb oturduğu borunun üstündən endi:

– Dur. Qaranlıq düşür. Sonra əla həzzi əldən qaçıra bilərik. Görə bilmərik etdiklərimizi...

Durdular. Əllərini aparıb çiyinlərini ovdular. Başlarını qaldırıb yenə səmaya baxdılar:

– Elə bil köçürlər.

– Hara gedəcəklər?! Ha-ha-ha. Hara getsələr də, ayaq saxlayıb indi baş verənlərə baxmalıdırlar. Buna baxmamaq olmaz. Bu mənzərəyə... Ha-ha-ha.

Səs parça-parça olub köçən buludların üstünə səpələndi. Buludlar üzüaşağı boylandılar. Oradan çıxıb düşəcəklərmiş kimi qapqara boyunları əyildi. Üzləri qəribə görkəm aldı. Qəzəbli səma mələklərinə döndülər. Köç dayandı. Səma fotoşəkil kimi bu anı özündə dondurdu.

Sonra boyunlarını tük basmış adamlar yük maşınına atıldılar. Üst-üstə qalaqlanmış plastilin topasından parça-parça qopardıb yerə atmağa başladılar. Dəhşətlə baxan səma hər dəfə qopan plastilin topasının üstündə iki gözü açıq-aydın sezirdi. Başqa heç nəyi... Başqa heç nəyi... Heç nəyi...

Toranlaşdı. Boğucu hava kimin isə ciyərlərinə dolub onu tıncıxdırmaq üçün girəvə gəzirdi. Təbiət lal olmuşdu. Plastilin topasını istədiyi kimi əzib hövkələyənlər özləri də yerə tullandılar. Yük maşını içindən daş boşaltmış kimi yüngülləşdi. Rahat nəfəs aldı. Yerə düşənlər donuq nəzərlərini ətrafa gəzdirdilər:

– Hara gətiriblər?

– Bilmirəm.

– Yəqin, buraxacaqlar.

Pırtlaşıq saçları kürəyi boyu səpələnmiş arıq, titrəyən qızcığazın son pıçıltıları hərəkətsiz uşaqları tərpətdi. Qəfil ümid parıltısını itirmiş gözləri böyütdü. Həyəcan artdı:

– Bəs yolu necə tapacağıq?!

Arxadan pıçıldaşanları itələdilər. Üzüüstə yıxılanlar torpağın sərt üzünə sürtülüb qanayan dizlərini ovuşdura-ovuşdura irəlilədilər. Səmada günəşin boş qalmış yeri tutuldu. Bu yeri zəbt etmiş canlı-cantaraq bir bulud kədərli gözlərini gördüklərindən ayıra bilmədi. Bayaqdan dili ağzında od tutub yanan torpağa yazığı gəlməsə də, heydən düşmüş plastilin parçalarının üstünə bir ovuc, təkcə bir ovuc su çilədi. Uşaqlar diksindilər:

– Yağış yağır.

Arxadan gələn böyüklər həyəcanlandılar:

– Tələsmək lazımdır. Deyəsən, yağacaq.

– Tez olun. Tərpənin. Tez...

Dəmir borunun yanına çatanda arxadan gələnlər ayaq saxladılar:

– Durun. Getməyin.

Durdular. Uşaqlar arıq barmaqlarını əsən dodaqlarının üstündə gəzdirə-gəzdirə baxışdılar. Donuq baxışlar enli dəmir boruya dikildi. Nə baş verəcəyini anlamadılar! Onlardan olsa, balaca əllərini bu dəmir borunun quru ot yapışmış üzünə qoyub onu çöl boyu diyirləyər, qısa ömürlərinin harasındasa ilişib qalmış şən qəhqəhələrindən bir ovuc götürüb yanan torpağa çiləyərdilər. Gülüşərdilər. İndi isə... Hər şey dəhşətli idi. Onlara nə pislik edə biləcəyi məlum olmayan enli dəmir boru belə...

– Tez... Tez olun. Cəld. Doluşun bura. Tez...

Dəhşətlə onları seyr edən körpə canları tutub bir-bir dəmir borunun iri yumru ağzından içəri atırdılar. Plastilin topasından parça-parça qoparılanlar borunun içində qaynaşırdılar. Əvvəlcə səbəbsiz bir şənlik dalğası belə ötdü. Bu dar məkanda içəri atılanlar borunun çökək dibinə balaca yanlarını yerləşdirib ayaqlarını və başlarını onun dəyirmi divarları ilə üzüyuxarı uzatdılar. Hətta yellənməyə cəhd edənlər belə oldu. İtələşdilər. Bu əyləncəni yarıda qoyub borudan bayıra atılan və çölboyu arxasına baxmadan qaçan da oldu. Qorxu ani sevinci boğdu.





Qəfil açılan atəş içəridəki səs-küyü susdurdu. Qoçaq çıxıb qaçan nöqtə havada nizamsız rəqs etdi. Sıçradı, çabaladı. Sonra sakitləşdi:

– Öldürdün?

– Əlbəttə. Qoy gəbərsin. Kimdir türk balasının dalınca qaçan?!

İçəridəkilər balaca qollarını boru boyu sürüyüb çölə çıxmağa çalışdılar. Borunun ağzında dayananlar çıxmağa cəhd edənləri təpiklədilər. Buruq saçları gözlərinin üstünə tökülən qızcığaz titrək səslə pıçıldadı:

– Hanı? Qardaşım... Yoxdur. – Sonra bir-bir ətrafdakıları silkələdi. – Cavid yoxdur. Hara getdi?

– Bilmirəm...

– Cavid qaçdı?

Qızcığaz əsdi. Çirkli yanağından gümüşü damcılar süzüldü:

– Cavidi öldürdülər.

Yanındakılar balaca barmaqları ilə tökülən göz yaşlarını sildilər. Borunun bir yanı qapandı. Qaynaq aparatının ağzından çıxan qığılcımlar ətrafa səpələndi. Düşən qığılcımlar içəridəkilərin yalın ayaqlarını, boyun-boğazlarını yandırdı. Çaxnaşma düşdü. Çox keçmədi, borunun ağzında parlayan fişənglər səngidi...

– Bu belə. Tez tərpən. O biri qapağı götür.

– Bu saat... Bu saat...

Sonra... Bu dəmir dünyaya dolan son işıq kəsildi. Zülmət qaynaq cihazının ağzından çıxıb içəri təpilən təsadüfi qığılcımlarla cızıq-cızıq oldu. İçəridən qalxan vəhşi qışqırıq borunun dəmir divarları boyu fırlandı.

Çöldəkilər fəxrlə düzəltdikləri edam alətini seyr etdilər. Bir-birinin çiyninə təntənə dolu zərbələr vurdular:

– Halaldır...

– Sənə də...

– Bu əla oldu.

– Bundan əlası bir də çətin düşünülər.



Yük maşını uzaqlaşdı. Bomboş çölün ortasında tək qalan boru yırğalandı. Nehrə kimi içindəkiləri çalxaladı. Boğuq hönkürtülər, əlacsız qışqırıqlar heç bir çıxışı olmayan borunu yellədi. Buludlar bu zülmə dözmədi. Leysanın uzun-uzun şırımları borunu döyəclədi. Səma onun içindəki alovu səngitdi. Sonra külək yalquzaq təki uladı. Fırtına qopdu. Boru susdu...



# GÜNƏŞ, BULUDLAR VƏ AĞCA



O, bəmbəyaz idi... Günəşə doğru uçanda topa ağ buluda bənzəyirdi. Dostu ona "Ağca" deyirdi. O da adını eşidən kimi uçub gəlir, ağ lələkli çəhrayı ayaqlarını götürüb qoya-qoya dostunun ovcunda dənlənirdi...

Günlərin bir günü eşitdiyi sözlərdən həyəcanlandı:

– Ağca, mən gedirəm...



Boynunun tərpənişi ilə astaca soruşdu: "Hara?"

– Cəbhəyə, Ağca. Vətəni qorumağa... Hər kəsin bir Vətən adlı sevgilisi var. Hər kəs ona borcunu verməlidir...

Ağca yaxşı anlayırdı, Vətən nə deməkdir. Hər dəfə yovşanlı çöllərin ətrini sinəsinə çəkəndə sevinirdi. Hər dəfə yağışında yuyunub, günəşində lələklərini qurudanda Vətən hərarətini duyurdu...

Ağca dimdiyini dostunun sevimli üzündə gəzdirdi. Onunla fəxr etdi, qürur duydu. Göyərçinlərin ağlamağı bilinməz... Ağca isə kövrəlmişdi. Sonra ayrıldılar. Ağca əsgər paltarı geyinmiş dostunun ardınca bir xeyli uçdu. Yorulanadək... Sonra uca bir ağaca qonub o, gözdən itənədək baxdı... Onun əvəzinə sevindi...

Ağca cəmi bir neçə gün dözə bildi. Sonra qanadlandı. Ağ buludların arası ilə üzü günəşə doğru uçdu, uçdu... Nəhayət, bir hasarın üstünə qondu. Diqqətlə baxdı... Yanılmamışdı. Dostunun xidmət etdiyi hərbi hissəni tapmışdı...

– Ağca... Gəldin?!

“Gəldim, dostum, gəldim...”

– Burada sənin üçün çox çətin olacaq... Dözə biləcəksənmi?!

Ağca: “Dözəcəyəm”, – dedi... Uçub dostunun başı üzərində dövrə vurdu. Elə alçaqdan uçdu ki, lələkləri onun üzünə, boyun-boğazına toxundu...

***

O gündən cəbhə göyərçini oldu... Bəmbəyaz lələkləri səngərlərdən qalxan toz bozartdı, çəmçəhrayı ayaqları Vətən çöllərinin torpağına bulaşdı... Amma dözdü. Əsgər qazançalarından yedi... Əsgər çiyinlərinə qondu... Əsgər nəğmələri oxudu:

*Vətən, səndən uca nə var,*
*Yer üzündə, göy üzündə...*
*Vətən, sənsiz dar olar, dar*
*Yer üzü də, göy üzü də...*

Ağca böyük bir alayın sevimlisi oldu... O, indi hər bir əsgərin dərd ortağı idi... Onunla pıçıldaşırdılar. Əsgərlərə elə gəlirdi ki, Ağca onların nə dediyini çox gözəl başa düşür. Kobud əsgər əlləri onun başına sığal çəkəndə Ağca dünyanın ən xoşbəxt göyərçini olurdu...





Günlərin bir günü... Göy üzünü qapqara buludlar aldı. Günəş buludların arasında itdi. Qəfildən düşmən tanklar və böyük canlı qüvvə ilə hücuma keçdi. Əsgərlər səngərlərdə qəhrəmanlıq göstərirdilər. Amma qüvvələr qeyri-bərabər idi. Tanklar səngərlərin üstündən keçir, ətraf od tutub yanırdı. Düşmən gülləni dolu kimi yağdırırdı. Onlar mühasirəyə düşmüşdülər. Ön xətt ilə əlaqə tamam kəsilmişdi. Silah-sursat və ərzaq ehtiyatı tükənmişdi. Ağca qanadlarını çırpa-çırpa yaralıların arasında gəzişir, dimdiyinə aldığı bir damcı suyu onların yanan dodaqlarına çiləyir, yenidən su dalınca gedirdi... Başqa nə edə bilərdi ki?!

Sonra tüfəngin qundağına söykənmiş dostuna yaxınlaşdı. Ağca gözlərinə inanmadı. Üstünə qan sıçramış lələklərini həyəcanla çırpdı. Muncuq gözləri bərəldi. Dostu yaralanmışdı... Dimdiyini onun barıt ətri verən yanağına sürtdü. Sonra qayıdıb tüfəngin lüləsinə qondu. Dostu ona baxdı. Qolundan axan qan barmaqları aşağı süzülürdü.... Ağır nəfəs alırdı... Qəfildən gözləri işıqla doldu. Gülümsündü. Ağarmış dodaqlarını güclə tərpədib dedi:

– Ağca, diqqətlə dinlə məni... Bizə kömək etməlisən... Arxa cəbhə ilə əlaqə yaratmalısan.

Ağca sevindi... Başını tərpətdi. Deməli, o kömək edə bilər... Vətənin çətin anında lazım oldu. Deməli, Ağca da Vətənə xidmət edə bilər. Vətənə və əsgər dostlarına... Poçt göyərçini olmuş əcdadlarından qalan bütün məharətini yada saldı. Günəşlə istiqaməti müəyyənləşdirmək bacarığını beynində bir daha təkrarladı. Əsgərlərin gözündə ümid qığılcımları parladı:

– Ağca, sən bacaracaqsan..

– Mütləq. Son ümidimiz sənsən, Ağca...

Dostu onun gözlərinin içinə baxdı:

– Ağca, əzizim. Əsas bizim xilasımız deyil... Vətənin xilasıdır. Dostum! Vətən naminə...



Ağca ayağını qoyduğu torpaqdan güc aldı. Üzünü əsən küləyə tutub yalvardı: "Məni darda qoyma, – dedi. – Mən uçan istiqamətdə əs, küləyim!"

Çəhrayı ayağına bağlanmış məktubla havaya qalxdı.

Ardınca əsgər əlləri yelləndi, əsgər baxışları dikildi... Uçuş istiqamətində ılıq Vətən küləyi əsdi...

Ağca qara buludların arasında getdikcə kiçilən ağ nöqtə kimi uzaqlaşdı. Buludlar araландı. Günəş gülümsədi...

Ağca uçdu, uçdu, uçdu... Yoruldu, amma dincəlmək üçün enmədi. Buludların arası ilə elə sürətlə uçurdu ki... Qəfil göy üzü qapqara oldu... Buludlar su ilə doldu, ağırlaşdı. Sonra şimşək çaxdı. Səma parça-parça oldu. Ağca müvazinətini itirdi. Bir anlığa səmti azdırdı. Havada çabaladı, sürətlə aşağı enməyə başladı. Ona elə gəldi ki, bu saat daş kimi torpağa çırpılacaq. Pıçıldadı: "Vətən, bağışla!" Amma qəfil buludlar dağıldı. Günəş... Günəş parıltı ilə işıq səpdi. Ağca endiyi sürətlə qalxdı. Bir günəş şüasını tutub, onun işığı ilə yoluna davam etdi. Susadı... Buludlarla yatırtdı susuzluğunu. Yoruldu... Qanadlarına Vətənə olan sevgisi və dosta sədaqəti güc verdi...

Artıq günəşin son şüaları göy üzündən çəkiləndə Ağca müqəddəs bildiyi borcu yerinə yetirmişdi...





# GÜNƏŞİN HƏDİYYƏSİ

O, yenə pəncərəyə yapışmışdı. Əlbəttə, buna "pəncərə" demək olardısa... Dəmir barmaqlıqlı xırda nəfəslik idi. Bir ailənin yaşadığı zirzəmiyə gün işığı düşən yeganə nəfəslik.

Böyük bir binanın zirzəmisində artıq beş il idi ki, yaşayırdılar. Kəndləri işğal olunan vaxtdan bura sığınmışdılar.

Hər axşam yatmağa hazırlaşanda eyni söhbət təkrarlanardı.

– Ana, məni səhər tezdən oyadarsan. Yaxşımı?
– Axı niyə?
– Özün bilirsən də...
– Yaxşı, yat. Oyadaram.

Hər səhər yerdə salınmış kiçik döşəyindən qalxar, xırdaca yalın ayaqlarını beton döşəməyə ehtiyatla qoyaraq pəncərəyə yaxınlaşardı. Ayaqları laxlayan stolun üstünə dırmaşar, pəncələri üstə qalxar, alnını pəncərənin dəmirinə söykəyib gözləyərdi. Kimi gözlədiyini özü də bilmirdi. Çünki buradan baxanda ancaq küçədən gəlib-keçənlərin ayaqlarını görərdi. Pəncərə küçədən cəmi bir qarış hündürdə idi. Ayaqlar sürətlə irəliləyər, tələsərdi. Onların heç bu bir qarış yerdən baxan qızcığazdan xəbərləri də olmazdı. Sənəm də bu ayaqlara baxmazdı. Onu ayaqqabılar maraqlandırırdı. Hündür, alçaq, rəngli, laklı, təzə, köhnə ayaqqabılar. O hər ayaqqabının görkəminə görə sahibini xəyalında canlandırardı.

Hərdən tələsik düşüb qaçar, anasını səsləyərdi:

– Ana, tez ol, gəl bir bax. Gör necə hündür dabanları var?! Görəsən, onun üstündə necə yeriyir? Yəqin, arıq qızdır. Kök olsa, indi ayaqqabısının dabanı çoxdan qırılmışdı.

Anası da onun xətrinə dəyməz, gələr, amma balaca Sənəmi təəccübləndirən ayaqqabını görə bilməzdi.

– Heyif, getdi. Kaş görəydin. Ana, sənin də nə vaxtsa elə ayaqqabıların olub?

– Olub, qızım. Gəlin olanda. Ağ, dikdaban ayaqqabılarım var idi. Sonra... – dərindən ah çəkib əlavə etdi: – İndi daha elə şeyləri heç yatıb yuxumda da görə bilmərəm. Ara qarışdı, müharibə başladı. Ermənilər kəndimizi yandırdılar.

Anasının kədərlənməyi Sənəmin xoşuna gəlməzdi. Tez söhbəti yarımçıq kəsib öz yerinə qayıdar, yenidən burnunu dəmirə söykəyib gözləyərdi. Ta o üstü atlaz bantlı, çəhrayı uşaq ayaqqabıları keçənədək dayanardı. Onları görəndə qeyri-ixtiyari gülümsəyər, bir qədər də yuxarı dartınardı. Amma nə qədər dartınsa da, onların xoşbəxt sahibini görə bilməzdi. Onu xəyalında canlandırardı. Həmişə də gözünün qarşısına başında eynən ayaqqabısının üstündəki kimi çəhrayı atlaz bantlar, əynində gödək qırçınlı don olan qız gələrdi. Gecələr isə... Gecələr özünü görərdi yuxuda. Həmin çəhrayı ayaqqabılarda. Hər gecə yuxuda sevinərdi Sənəm. Hətta bir neçə dəfə öz gülüşünün səsinə yuxudan ayılmışdı...

Beləcə, düz ay yarım idi ki, bu təkrarlanırdı. Təkcə şənbə və bazar günlərindən başqa. Onda anasına sual verərdi:

– Ana, bu gün də keçmədi. Bəlkə, xəstələnib, hə? Bəlkə, ayaqqabıları cırılıb?

– Yox, qızım, axı bu gün bazar günüdür. Şənbə və bazar günləri uşaq bağçaları işləmir. Gözləmə. Bu gün keçməyəcək.





Sənəm tez yerə tullanardı. Sonra da anasından yaş əski alıb üstünün rəngi getmiş köhnə ayaqqabılarını silər, onları parıldatmağa çalışardı. Amma həmişə də təmiz silə bilmədiyinə görə kədərlənərdi.

Bu gün də tezdən oyanmışdı. Yenə də pəncərədən asılmışdı. Tez-tez gözlərini ovxalayıb deyirdi:

– Gəlib keçən kimi gedib təzədən yatacağam.

Budur, çəhrayı ayaqqabılar yenidən göründü. Yavaş-yavaş gedirdi. Sənəm fikirləşdi:

– Yəqin, onların yiyəsi də mənim kimi yuxuludur.

Birdən Sənəm gözlərinə inanmadı. Ayaqqabıların yanına sapsarı, günəş rəngində bir gəlincik düşdü. Elə həmin anda gəlinciyə doğru iki əl uzandı. Gəlinciyin sahibəsi onu qaldırmağa çalışdı. Sənəm də özündən asılı olmayaraq, xırda, zəif əlini dəmir barmaqlığın arasından uzatmışdı. O, bir anlığa düşünmüşdü ki, bu gəlinciyi ona günəş atıb. Zirzəmiyə düşməyən günəş şüasının əvəzində... Bütün uşaqlar kimi Sənəmə də günəşdən pay düşməliydi axı. Qız fikirləşdi ki, bu sapsarı gəlinciyi günəş özündən qoparıb ona tullayıb. Əlini uzatdı... Amma əli çatmadı. Gəlincik çəhrayı ayaqqabılı qızın zərif əli ilə yerdən qalxdı və uzaqlaşdı.

Sənəm məyus oldu. Ehmalca pəncərədən endi, gəlib yerinə girdi. Yorğanını başına çəkdi. Arada yorğan yavaşca titrəyirdi.

Kimsə qapını döydü. Anasının səsi gəldi:

– Sənəm, səni çağırırlar.

Yorğanı başından atdı, üzünü ətəyinə silib qapıya qaçdı. Bu dəfə çəhrayı ayaqqabılar onların qapısında dayanmışdı. Çəhrayı paltarlı, atlaz bantlı sarışın qızcığaz əlindəki günəş rəngli gəlinciyi ona doğru uzatmışdı.







# OYUNCAQ AYI BALASI

*2020-ci il Gəncə hadisələrindən zərər çəkmiş uşaqlara ithaf edilir*

## YER ÜZÜNÜN ƏN GÜNƏŞLİ ŞƏHƏRİNDƏ

O uşaqlar Yer üzünün ən işıqlı yerində yaşayırdılar... Ən günəşli şəhərində... Bu şəhər dünyanın bütün şəhərlərindən daha mülayim idi. Daha rahat idi... Daha sevimli idi... Hər səhər, sübh çağı bu şəhərdə yaşayan balaca uşaqlar oyanır, pəncərələrdən səpilən ılıq şüaların işığından qamaşan gözlərini ovuşdurub açır, dodaqlarındakı təbəssüm yanaqlarına səpilirdi. Hər evdən yuxulu, xoşbəxt uşaq səsi gəlirdi:

– Ana, mən durdum...

– Lap yaxşı, balam...

– Amma günəşin işığı gözümə düşür...

– Sən də günəşdən qaç...

– Qaçım? Necə?

– Hə... Tez dur... Qaça-qaça get, əl-üzünü yu...

– Ahhhaaa... Qaçdım... Günəş... Sən məni tapa bilməzsən...

– Tapacaq, balam. Günəş onunla qaçdı-tutdu oynayanları çox sevir...

## BİR, İKİ - BİZİMKİ...

...Bir səhər günəş şüaları bir-birini qovdu. Dillərində uşaqların sevdiyi bir sanama elə hey təkrarlanırdı:



*Bir, iki – bizimki,*
*Üç, dörd – qapını ört,*
*Beş, altı – daşaltı,*
*Yeddi, səkkiz...*

Bu sanamanı deyə-deyə evlərin damları ilə şütüməyə başladılar...

Hoppana-hoppana o damdan bu dama, bu damdan o dama qaçdılar... Cingiltili, şən gülüşləri ətrafa səpələndi... Günəş şüaları düşünürdü: "Bax indi duracaqlar... Şən gülüşləri həyətlərdə eşidiləcək. Balaca əllərini bir-birinin sinəsinə vura-vura sayacaqlar:

*Bir, iki – bizimki,*
*Üç, dörd – qapını ört,*
*Beş, altı – daşaltı,*
*Yeddi, səkkiz...*

Bundan sonra qaçıb hərəsi bir tərəfdə gizlənəcək. Sona qalan uşaq üzünü divara çevirib sayacaq, sonra bərk-bərk yumduğu gözlərini açacaq, qışqıra-qışqıra "gizlənpaç, gəldim, qaç" deyəcək və gizlənənləri tapmaq üçün bütün həyətləri gəzəcək. Yaraşıqlı şəhərin bəzəkli darvazaları açılacaq və örtüləcək. Bu həyətlərdən göyərçin kimi uşaqlar qanadlanacaq. Hay-küyləri hər yanı bürüyəcək..."

Amma hələ ki günəş şüaları şən sanamanı deyə-deyə damların üzəri ilə şütüyür, yatanları oyatmağa çalışırdı: "Ay Leyla, dur... Sən də dur, Nilay. Sən də, Kəmalə... Dur, Cavad, Rəşid, Elnur, Şahin... Ay uşaqlarrrr... Durun. Biz də oyanmışıq. Sizin küçəyə çıxmağınızı gözləyirik. Səhərdir. Çıxın".

Bütün evlərdəki uşaqlar gözlərini ovuşdurdular, isti yatağına düşən dəcəl günəş şüalarından qorunmaq üçün kimsə üzünü divara çevirdi, kimsə başını yastığın altında gizlətdi. Kimsə totuq əlləri ilə gözlərini qapadı, kimsə yorğanı başına çəkdi... Günəş şüaları qaçışdı. Uçuşdu... Dam-dam keçib tanış körpələrin kirpiklərində işıldadı... Qəfildən duruxdular. Dayandılar: "Bir-iki, bizimkiiiii..."

Birdən... Birdən sanama dillərində dondu. Bu aydın şəhərin içində azdılar. Yollar bir-birinə qarışmışdı, evlər dağılmışdı, damlar əyilmişdi, eybəcərləşmişdi, pəncərələr çilik-çilik olmuşdu... Ağaclar kökündən çıxmışdı, avtomobillər dəlik-deşik idi...

– Yoxdur. Hanı? Xədicə ilə Mədinəgilin evinin damı yoxdur... Nigargilin evi də var idi burada... Orada Ömərgilin evi olmalıydı... Bəs hanı?! Ey... Biz azdıq. Biz evləri, yolları tapa bilmədik. İtirdik...

Günəş şüaları bu şəhərdə yaşayan bütün insanlardan soruşdu:

– Bağışlayın, biz evləri itirmişik. Ağ-ağ, qırmızı kərpicli, hündür-hündür, yaraşıqlı evləri. Xədicəgilin evini... İri pəncərələri vardı o evin. Parıldayan damı vardı, işıqlı eyvanları vardı... Görməmisiniz?





Sifətləri dümağ ağarmış şəhər sakinləri kədərlə ötür, gözlərini yerə dikirdilər...

– Eyyy... Sizinləyik... Niyə susursunuz?! Xədicə ilə Mədinəni axtarırıq... Xədicə ilə Mədinəni... Mədinəni... Mədinəni... Onlar ağ evdə yaşayırdılar... Nigarı axtarırıq, Ömәri...

Qəfildən kimsə dayandı. Dayanan adam üzünü Xədicəni, Mədinəni, Nigarı, Ömәri axtaran şıltaq şüalara tərəf tutdu. Gözləri yaşla dolu idi. Göz yaşları o adamın yanaqları ilə süzüldü... Günəş şüaları göz yaşlarına sancıldı... Dondu. İşıqları azaldı. Cingiltili gülüşləri kəsildi.

Adam pıçıldadı:

– Axtarmayın. Yoxdur Xədicə ilə Mədinənin evi... Nigargilin, Ömərgilin... Onların ağ evlərini dağıtdılar... Qara-qara əllər, qara-qara ürəklər dağıtdı...

Günəş şüaları kədərlə təkrarladı:

– Dağıtdılar...

Adam dedi:

– Dözə bilərsiniz? Dözə bilsəniz, sizə bir xəbər də verərdim...

Günəş şüaları adamın kədər dolu üzünə boylandılar. Dözə bilərdilərmi? Bu dəhşətli adam nə deyəcək, görəsən? Nə deyəcək?

Adam sözünə davam etdi:

– Sizə bir söz deyimmi? Daha Mədinə yoxdur... Nigar da yoxdur... Onlar səmalara uçdular. İndi yaralı Xədicə var... İndi yaralı Ömər var... Amma Mədinə yoxdur... Nigar yoxdur... – Adam əli ilə qarşıdakı tüstü, toz və duman dolu bir xarabalığı göstərdi. – Baxın... Odur Mədinə ilə Xədicənin ağ evi... Onun yanındakı Nigargilin qırmızı kərpicli evi idi... Onun yanındakı Ömərgilin... Onun yanındakı...

Adam daha danışa bilmədi, dodaqları titrədi, ağır addımlarla uzaqlaşdı. Ayaqlarından sanki daş asılmışdı... Günəş şüaları şəhərlinin dediyi dəhşətlərdən sarsılmış halda günəşə doğru çəkildi. Sanki dünyadan işıq çəkildi. Arxalarında zəif işıq şırımları və hıçqırıqlar qaldı:

– Mədinə yooooxdur... Dağıdıblar onların ağ evini... Mədinə yoooxdur... Nigar yoooooxdur... Qara-qara əllər... Qara-qara ürəklər...

## OYUNCAQ AYI BALASI

...Xədicəni təcili yardım maşınında apardılar. O, gedəndən sonra kimsə daşların arasından bir yumşaq oyuncaq çıxartdı. Ehtiyatla tozunu çırpdı. Elə qayğı ilə ona baxdı ki, sanki canlıya tamaşa edirdi. Kədərlə dilləndi:

– Yəqin, uşağın oyuncağıdır... Dağıntılar altından çıxardılanda onun qucağında idi... Yumşaq ayı balası.



Kimsə soruşdu:

– Hansı uşağın?

– İndi xəstəxanaya apardıqları. Bəlkə, aparım evə?

– Nəyinə lazımdır?!

– Səhər gedib uşağı axtaracağam. Görüm, hansı xəstəxanaya aparıblar. Verəcəyəm ona... Deyəcəyəm: "Oyna, bala. Bu sənin oyuncağındır. Onlar sənin uşaqlığını əlindən aldılar, amma sənin uşaqlığının dostunu ala bilmədilər. Saxla onu. Sığalla onu. Birlikdə bütün acılardan xilas olmağa çalışın...

– Hə... Apar. Yazıq uşaq...

Ayı balası sevindi. Təcili yardım maşını Xədicəni aparanda düşünmüşdü ki, daha bitdi. Bir də sevimli dostunu görməyəcək. Amma indi... İndi görüşəcəklərinə ümidi artdı. Üstündəki toz-torpağı çırpmağa cəhd etdi. Alınmadı. Kimsə onu əlində tutan kişini səslədi:

– Ey, gəlin bura... Kömək edin. Qaldıraq bu dirəkləri. Altında, deyəsən, kimsə var...

Kişi həyəcanlandı. Ayı balasını elə durduğu yerdəcə daşın üstünə qoydu, qaça-qaça onu çağıranların yanına tələsdi.



Ayı balası kədərləndi: "Birdən gedəndə məni unudar... Aparmaz məni. Bəs onda... Mən Xədicəni necə görərəm?!"

Hava soyuq idi. Ayı balası qaçışan insanların arasında qalmışdı. Yanından ötənlərdən biri ona toxundu. O, daşın üstündən sürüşüb yerə düşdü. Sonra üzüüstə aşdı. İndi hər şey qaranlıq idi. Üzü torpağa yapışmışdı. Gözlərini daşlar əzirdi. Yaxınında nəsə tüstüləyirdi. Ayı balası bədəninin azca isindiyini hiss etdi. Sonra istilik artdı. Artdı... Oyuncaq düşündü: "Bir az da keçsə, yanacağam. Mənim yanmağıma nə var ki. Üstüm parça, içim taxta yonqarı... Yansam, Xədicə tək qalacaq. Lap tək..."

Ayı balası yanmamaq üçün bir qədər geri sürünməyə çalışdı. Alınmadı:

– Mənə bax da... İnsanların arasında yaşayıram, elə bilirəm, onlar kimi hərəkət edə bilərəm. İnsan deyiləm. Amma, nə yaxşı ki, insan deyiləm. İnsanlar körpə və günahsız uşaqların yaşadığı evi dağıdır. Yəqin, mən də insan olsaydım, belə qəddar olardım..."

Bədəni getdikcə daha çox isinirdi. Tüstü də daha yaxına gəlmişdi. Ona elə gəlirdi ki, yanmağına çox az qalıb... Bircə an...

Kimsə daşların arasından keçib onun yıxıldığı yerə yaxınlaşırdı. Ayı balası addım səslərindən hiss edirdi ki, gələn adam artıq çox yaxındadır. Lap yaxında. Bax onun nəfəsi dəydi bədəninə. O əyildi, ayı balasını çevirdi. Ayı balası torpaq dolmuş gözlərini güclə açdı. Diqqətlə baxdı. Gənc qız idi. Tövşüyürdü. Yanağı boyu göz yaşları axırdı. Tələsə-tələsə həyəcanla danışırdı:

– Qatillər. İşğalçılar. Qətliamçılar. Burada təkcə körpələr məhv olmayıb, onların uşaqlığı yox olub burada. Onların oyuncaqları da dağıntılar arasında qalıb... Baxın bu ayı balasına... Dünən bu vaxt hansı körpə onu qolları arasına almışdı, görəsən?! Hansı? Ay Allah... Zülmə bax... Lənətə gəlmiş qatillər.





Sonra qız ağlaya-ağlaya ayı balasını tüstünün və tozun içindən qaldırıb çırpdı. Üzünə diqqətlə baxıb dedi:

– Sən hansı uşağın oyuncağı idin?! Hə?! Can... Yəqin, onun çarpayısında yatmışdın, hə?

Ayı balası ona cavab verə bilmədi. Qız onu sinəsinə sıxdı. Kimsə onu səslədi:

– Funda, tez ol. Orada kimi isə çıxartdılar... Gəl, mən kameranı hazırlamışam...

Qız o yerə tələsdi. Ayı balasını aparıb yanan yerdən bir qədər kənarda yıxılmış masa parçasının üstünə qoyub dedi:

– Bağışla məni. Səni burada atıb getmək istəməzdim. Amma, bəlkə, kimsə gəlib səni burada axtaracaq. Sahibinə çatdırmaq üçün... Mən isə getdim. Çox dəhşətlərlə üz-üzə gəlməyə getdim...

Sonra hönkürdü. Elə hönkürə-hönkürə də dağılmış evdən uzaqlaşdı.

Ayı balası gözünü səmaya zillədi. Yenə də insanlar haqqında düşüncələrə daldı: "Bəlkə də, insan olmaq yaxşıdır. Ürəkləri istəyəndə ağlayırlar, gülürlər. İnsanları dağıntılar altından çıxartmağa tələsirlər. Mən isə daş parçası kimi düşüb qalmışam. Heç nə edə bilmirəm..." Sonra səmaya baxdı. Səma qaranlıq və qorxulu idi. Yanıq iyi ətrafı bürümüşdü. Ayı balası xatirələrə daldı.

## OYUNCAQ MAĞAZASININ VİTRİNİNDƏ

Onda mən təptəzəydim. Gəncə şəhərinin ən böyük oyuncaq mağazasının vitrinində qoymuşdular məni... Yoldan keçən uşaqlar burunlarını vitrinə söykəyib mənə maraqla baxırdılar... Mən də sevinirdim. "Nə maraqla baxır... Məmnuniyyətlə onun oyuncağı olardım", – deyə düşünürdüm.

Günlərin bir günü həmin mağazanın qarşısından bapbalaca bir qız keçdi. Qız məni görən kimi dayandı.





Vitrinə yaxınlaşdı. İri, mavi gözlərini mənə zillədi: "Haaa... Nə gözəl ayı balasıdır. Yumşaq, gonbul..." Anası tələsirdi, dayanmaq istəmirdi. Qızın əlindən çəkirdi: "Gəl, Xədicə, gedək. Axı gecikirik. Mədinə nənəni incidər. Ağlayar, süd istəyər. Başqa bir dəfə ayı balası alacağam sənə". Qız getmək istəmir, israrla gözlərini vitrindən çəkmir, inadkarlıq edirdi: "Başqa vaxt istəmirəm. Mən indi istəyirəm. Özü də bunu... Bu ayı balasını. Bax, ana, o da mənə baxır. Məni istəyir..."

Axşamüstü idi. Mağaza sahibi qapını bağlayıb evinə getməyə hazırlaşırdı. Qadın qızın əlindən tutub içəri girdi. Mağaza sahibi dilləndi:

– Xanım, mağaza bağlanıb artıq. Sabah gələrsiniz.

Qadın geri qayıtmaq istədi. Sonra qızının gözlərinə baxıb gülümsündü...

– Amma qızım çox istəyir... Vaxtınızı çox almayacağam. Nə istədiyimizi artıq bilirik.

Mağaza sahibi yumşaldı:

– Olsun. Təki körpələr sevinsin.

– Sağ olun. Zəhmət olmasa, vitrindəki qəhvəyi ayı balasını verin...

Mağaza sahibi gülümsündü:

– Hə... Bu, çox sevimli ayı balasıdır. Əminəm ki, balaca qızın ən yaxın dostu olacaq. Mən isə onun üçün əməlli-başlı darıxacağam... Al, qızım. Götür oyuncağını.

Mağaza sahibi məni qıza uzatdı. Qız sevindi. Əllərini uzatdı və məni qolları arasına aldı. Necə sevincli anlar idi...

## XƏDİCƏGİLDƏ

O gündən mən Xədicəgildə yaşamağa başladım. Xədicənin balaca bacısı var idi. Mədinə... O məni görəndə əvvəlcə qorxdu. Ağlamağa başladı... Az sonra gülümsədi. Qığıldadı. Balaca əlləri ilə məni Xədicədən almağa çalışdı...

Yatmağa gedəndə Xədicə dedi:

– Ana, olar, ayı balası mənimlə yatsın?!

– O, çox böyükdür, qızım. Çarpayına yerləşməyəcək. Yeriniz dar olar.

– Yox, olmaz, ana. Biz birtəhər yatarıq.

Anası qızın sözlərinə gülümsündü. Xədicənin dediyini təkrarladı:

– Birtəhər yata bilərsinizsə, onda yatın.

Xədicə sevindi. Mən də sevindim. O gün ilk dəfə Xədicə ilə Mədinənin yataq otağına getdim... Xədicənin çarpayısı pəncərənin qarşısında idi. Gecələr pəncərədən Ay görünürdü.

Xədicə Aya baxıb deyirdi:

– Bax, bu gün yumrudur. Amma o gün yumru deyildi... Yemiş dilimi kimi idi. Napnazik. Görəsən, niyə?

Mən də düşünürdüm: "Görəsən, niyə Ay bəzən yumru, bəzən yarım olur?!" Yanındakı ulduzlar da qəribəydi. Bəzən lap çox olurdu, bəzən az. Bəzən çox parlayırdılar, bəzən az. Xədicə də bunu görürdü:

– Bax, bu gecə ulduz azdır. Saya bilərik. Çox olanda mənim rəqəmlərim çatmır.

Gülürdü. Mən də gülürdüm... Amma mənim səsim çıxmırdı. İçimdə gülürdüm. Taxta yonqarı ilə dolu qarnımda... Amma Xədicənin səsi bütün evə yayılırdı. Anası onun hay-küyünü eşidən kimi qapıda görünürdü:

– Mənim qızım-qızılım niyə yatmır? Bacısını da qoymur yatmağa...

– Ana, mənim rəqəmlərim niyə azdır?! Bütün ulduzları saya bilmirəm.

– Çünki sən balacasan. Sən böyüdükcə rəqəmlərin də çoxalacaq.

– Bütün ulduzları saya biləcəyəm?

Anası qızının sözlərinə gülürdü:

– O zaman sən ulduzları saymaq istəməyəcəksən. Daha maraqlı işlərin olacaq...





## NİYƏ OYUNCAQLAR BÖYÜMÜR

Evdə hamıdan tez Mədinə yatırdı. Şüşəsindəki südü içib qurtaran kimi yuxu tuturdu onu. Bir də görürdük, mışıltısı gəlir. Xədicə qulağıma pıçıldayırdı:

– Gəl yavaşca danışaq. Mədiş yatdı...

O nə demək istəsə, pıçıltı ilə deyirdi. Bir də görürdüm ki, səsi kəsildi. O saat anlayırdım ki, Xədicə də yatdı... Mən isə yatmırdım. Çox qəribədir... Oyuncaqlar yatmır. Ona görə də, yəqin, böyümürlər. Amma uşaqlar böyüyürlər. Mən Xədicəgilə gələndə nə boydaydımsa, elə o boyda da qalmışam. Amma Xədicə ilə Mədinə böyüyüblər. Məsələn, mən gələndə Mədinə gəzə bilmirdi, amma indi gəzir. Xədicənin də rəqəmləri çoxalmağa başlayıb. İndi 10-a çatanda həyəcanlanmırdı. "11, 12, 13", – deyib sayırdı.

...Səhər hamıdan tez duran da Mədinə olurdu. Duran kimi ağlayırdı... Yataq otağının qapısı açılır, ana özünü Mədinənin çarpayısına çatdırır və onu qucağına götürürdü...

Xədicə də oyanırdı. Duran kimi pəncərəni mənə göstərirdi:

– Bax, Ay getdi. Yerinə Günəş gəldi. İndi sənə sual verim?

– Ver.

– Günəş gələndə nə olur?

– Səhər...

Elə bildiniz, mən də danışırdım? Yox, mənim əvəzimdən də Xədicə danışırdı. Ona görə də hər dəfə elə suallar verirdi ki, özü cavabını bilsin.

– De görüm, Günəş yaxşıdır, yoxsa Ay?

– Əlbəttə, Günəş... Çünki Günəş gələndə səhər olur. Səhər yaxşıdır, hə?



## AD GÜNÜ OLMADI

Mədiş tez yatdı. Xədicə çarpayısına uzananda qulağıma pıçıldadı:

– Sabah bir az erkən oyanarıq. Günəş çıxan kimi... Mədişdən tez.

– Yaxşı, durarıq.

– Biz durmasaq, Mədiş süfrəni dağıdacaq.

– Hə, dağıdacaq... Yataq...

Xədicə gözlərini ovxaladı. Əsnədi. Məni qucağına alıb mışıldadı.

Mən yatmadım. Mən heç vaxt yatmırdım. Sadəcə, uzanırdım. Gecə boyu düşünürdüm. Xədicə yatanda qulağıma pıçıldamışdı: "Sabah sənə ad günü sürprizi olacaq". Maraqlıydı. Nə olacaqdı sürprizi?!

Elə bu düşüncələrlə gözümü pəncərədən görünən Aya zilləmişdim. Sakitlik idi. Saatın əqrəblərinin səsi gəlirdi: "Çıq, çıq, çıq, çıq..."

Hərdən böcəklərin də səsini eşidirdim. Sonra küçədən bir maşın keçdi. Sonra tam sakitlik oldu.

Qəfildən mənə elə gəldi ki, səmada Ay titrədi, yelləndi. Sonra elə bildim, ulduzlar qopub yerə səpələndi. Qəfildən dəhşətli uğultu gəldi. Yer silkələndi. Qulaqbatırıcı uğultu bir anda çox yaxınlaşdı. Mənə elə gəldi ki, böyük, odlu kürə Xədicəgilin ağ evinə tərəf uçdu, düşdü və partladı... Sonuncu xatırladığım Mədinənin qışqırığı idi. Amma o da yuxu kimi gəlir yadıma. Çünki partlayış səsi elə güclü idi ki, o bütün qalan səsləri eşidilməz etmişdi. Hər şey uçub töküldü – daşlar, dirəklər, dam... Hər şey. Tökülənlərin tozu burula-burula səmaya doğru qalxırdı. Qulağıma arabir inilti, qışqırıq, bağırtı səsləri gəlirdi. Bircə anda yan-yana düzülmüş uca və ağ evlər uçub yerlə yeksan oldu... Birdən hər yer qaranlıq oldu, elə bil dərin-dərin quyuya düşdük... Mən həmin an bir şey haqqında düşündüm. Dəhşətli, qorxulu adamlar haqqında. Bildim ki, bütün bunları edən həmin qorxulu adamlardır...





Sonra insanlar və maşınlar axışdı o yerə... Maşınların sayrışan işıqları xarabalıqların arası ilə şütüdü... İnsanlar ucadan hönkürürdülər... Dəli kimi yıxılmış evlərin xarabalığında dolaşırdılar. Dağıntılar arasında qalmış insanları çıxartmağa tələsirdilər...

## SINIQ MASANIN ÜSTÜNDƏKİ AYI BALASI

Xatirələr məni çəkib dünənki gecəyə aparmışdı. İndi səhər açılmışdı... Neçə-neçə evlər dağılmışdı. Bəlkə də, Nigar səmalarda ad günü tortunun şamlarını üfürürdü... Xədicənin açdığı süfrə parça-parça olub ətrafa səpələnmişdi... Amma o süfrəni Mədinə dağıtmamışdı. Çünki Mədinə bu səhər yuxudan oyanmamışdı...

Mən hələ də hönkürə-hönkürə danışan o qızın qoyduğu masanın üstündə idim. Hava soyuq və küləkli idi. Ətrafda insanlar dolaşırdı. Onlar dayanmadan dağıntıların arasında gəzir, daşın, dəmirin, taxtanın içindən yaralı insanları çıxartmağa çalışırdılar...

Sonra haradansa bir kişi səsi gəldi. O, həyəcanla daşların arasını axtarır və yanındakılara deyirdi:

– Mən bura, bax bu daşın üstünə qoymuşdum o oyuncağı. Onu xəstəxanaya aparıb o balaca qıza verəcəkdim. Onun oyuncağı idi. Daşların arasından çıxardanda qucağında idi. Özüm görmüşdüm...

Yanındakılar onu sakitləşdirməyə çalışırdılar:

– Səbirli ol. Darıxma. Axtarırıq. İndi tapacağıq. Bəlkə, başqa yerə qoymusan?!

– Yox, bura... Bax bu daşın üstünə qoymuşdum...

Mən bütün söhbətləri eşidirdim. Amma cavab verə bilmirdim. Allaha yalvarırdım ki, kimsə məni görsün. Görüb, o kişini çağırsın. Desin ki: "Gəl bura. Buradadır o oyuncaq. Qara-qara, qorxulu adamların dağıtdığı o ağ evlərin tən ortasında..."

Sonra bir tanış səs eşitdim. Tələsə-tələsə danışan o qız idi. Funda... Adını yadımda saxlamışdım. Funda daşların arasını axtaran o kişini gördü.

## AD GÜNÜ OLMADI

Mədiş tez yatdı. Xədicə çarpayısına uzananda qulağıma pıçıldadı:

– Sabah bir az erkən oyanarıq. Günəş çıxan kimi... Mədişdən tez.

– Yaxşı, durarıq.

– Biz durmasaq, Mədiş süfrəni dağıdacaq.

– Hə, dağıdacaq... Yataq...

Xədicə gözlərini ovxaladı. Əsnədi. Məni qucağına alıb mışıldadı.

Mən yatmadım. Mən heç vaxt yatmırdım. Sadəcə, uzanırdım. Gecə boyu düşünürdüm. Xədicə yatanda qulağıma pıçıldamışdı: "Sabah sənə ad günü sürprizi olacaq". Maraqlıydı. Nə olacaqdı sürprizi?!

Elə bu düşüncələrlə gözümü pəncərədən görünən Aya zilləmişdim. Sakitlik idi. Saatın əqrəblərinin səsi gəlirdi: "Çıq, çıq, çıq, çıq..."

Hərdən böcəklərin də səsini eşidirdim. Sonra küçədən bir maşın keçdi. Sonra tam sakitlik oldu.

Qəfildən mənə elə gəldi ki, səmada Ay titrədi, yelləndi. Sonra elə bildim, ulduzlar qopub yerə səpələndi. Qəfildən dəhşətli uğultu gəldi. Yer silkələndi. Qulaqbatırıcı uğultu bir anda çox yaxınlaşdı. Mənə elə gəldi ki, böyük, odlu kürə Xədicəgilin ağ evinə tərəf uçdu, düşdü və partladı... Sonuncu xatırladığım Mədinənin qışqırığı idi. Amma o da yuxu kimi gəlir yadıma. Çünki partlayış səsi elə güclü idi ki, o bütün qalan səsləri eşidilməz etmişdi. Hər şey uçub töküldü – daşlar, dirəklər, dam... Hər şey. Tökülənlərin tozu burula-burula səmaya doğru qalxırdı. Qulağıma arabir inilti, qışqırıq, bağırtı səsləri gəlirdi. Bircə anda yan-yana düzülmüş uca və ağ evlər uçub yerlə yeksan oldu... Birdən hər yer qaranlıq oldu, elə bil dərin-dərin quyuya düşdük... Mən həmin an bir şey haqqında düşündüm. Dəhşətli, qorxulu adamlar haqqında. Bildim ki, bütün bunları edən həmin qorxulu adamlardır...





Sonra insanlar və maşınlar axışdı o yerə... Maşınların sayrışan işıqları xarabalıqların arası ilə şütüdü... İnsanlar ucadan hönkürürdülər... Dəli kimi yıxılmış evlərin xarabalığında dolaşırdılar. Dağıntılar arasında qalmış insanları çıxartmağa tələsirdilər...

## SINIQ MASANIN ÜSTÜNDƏKİ AYI BALASI

Xatirələr məni çəkib dünənki gecəyə aparmışdı. İndi səhər açılmışdı... Neçə-neçə evlər dağılmışdı. Bəlkə də, Nigar səmalarda ad günü tortunun şamlarını üfürürdü... Xədicənin açdığı süfrə parça-parça olub ətrafa səpələnmişdi... Amma o süfrəni Mədinə dağıtmamışdı. Çünki Mədinə bu səhər yuxudan oyanmamışdı...

Mən hələ də hönkürə-hönkürə danışan o qızın qoyduğu masanın üstündə idim. Hava soyuq və küləkli idi. Ətrafda insanlar dolaşırdı. Onlar dayanmadan dağıntıların arasında gəzir, daşın, dəmirin, taxtanın içindən yaralı insanları çıxartmağa çalışırdılar...

Sonra haradansa bir kişi səsi gəldi. O, həyəcanla daşların arasını axtarır və yanındakılara deyirdi:

– Mən bura, bax bu daşın üstünə qoymuşdum o oyuncağı. Onu xəstəxanaya aparıb o balaca qıza verəcəkdim. Onun oyuncağı idi. Daşların arasından çıxardanda qucağında idi. Özüm görmüşdüm...

Yanındakılar onu sakitləşdirməyə çalışırdılar:

– Səbirli ol. Darıxma. Axtarırıq. İndi tapacağıq. Bəlkə, başqa yerə qoymusan?!

– Yox, bura... Bax bu daşın üstünə qoymuşdum...

Mən bütün söhbətləri eşidirdim. Amma cavab verə bilmirdim. Allaha yalvarırdım ki, kimsə məni görsün. Görüb, o kişini çağırsın. Desin ki: "Gəl bura. Buradadır o oyuncaq. Qara-qara, qorxulu adamların dağıtdığı o ağ evlərin tən ortasında..."

Sonra bir tanış səs eşitdim. Tələsə-tələsə danışan o qız idi. Funda... Adını yadımda saxlamışdım. Funda daşların arasını axtaran o kişini gördü.

– Bir dəqiqə olarmı sizi?! Nə axtarırsınız? Sizin də eviniz burada idi?

– Xeyr. Evim burada deyildi. Mən bura, bax bu daşın üstünə bir ayı balası oyuncağı qoymuşdum. Onu o balaca qıza aparacaqdım. Xəstəxanadakı körpə qıza. Onun oyuncağı idi. Özüm gördüm daşların arasından çıxardanda... İndi o qızın o ayı balası oyuncağından başqa heç kimi yoxdur...

Qız tələsə-tələsə dedi:

– Lütfən... Həyəcanlanmayın. Onu mən götürdüm... – Sonra ətrafa göz gəzdirdi. Bir xeyli baxdı və qəfildən məni gördü masanın üstündə. – Baxın. Buradadır. Gecə qoyub getdiyim yerdədir. Sınıq masanın üstündə...

## SONU OLMAYAN NAĞIL

Bu nağılın sonu yoxdur... Nə qədər ki Yer üzündə qorxulu insanlar var, o qədər də bu nağıl danışılacaq. Çünki o qorxulu insanlar hər gün uşaqların ağ evlərini yıxacaqlar... Hər gün Yer üzündə uşaqlar ağlayacaq. Ağ, qara, sarı olmasından asılı olmayaraq... O uşaqların göz yaşları bu dünyanı qarış-qarış gəzib ədalət soraqlayacaq...



# QADINLARIN MÜHARİBƏ AĞRISI



*Bu kitabın qadınları zərifliklərini, sevgi və xəyallarını müharibəyə qurban verənlərdir. Mərmilərin odlu nəfəsi ilə qarşılanlar, oğul dağı görənlər, yurd ağrısı çəkənlər, amalı VƏTƏN olanlardır. Sevgilərini al çobanyastığı ləçəkləri arasında uyudanlar, sevinclərini mərmilərin uğultusunda itirənlər, sevdiklərini müharibəyə qurban verənlərdir. Daşdır, torpaqdır, payız küləklərinin sərt qayaların soyuq üzünə çırpdığı yarpaqdır bu kitabın qadınları... Xocalını, Qaradağlını, Ağdabanı, Başlıbeli yaşayanlardır bu kitabın qadınları...*

# ŞUŞAYA QALXAN SILDIRIMDA



Azərbaycanın Milli Qəhrəmanı
Əsgərova Salatın Əziz qızının əziz xatirəsinə...

Laçın-Şuşa yolunun altıncı kilometri, Qaladərəsi kəndi, yanvar ayının 9-u, səhər saat 9 radələri...

Şaxta bıçaq kimi kəsirdi. Laçından Şuşaya doğru uzanan yol üzü zirvəyə gedirdi. Dağların arası ilə bir maşın ağır-ağır qalxırdı. Bu sıldırımı aşandan sonra qış səssizliyinə dalmış Şuşaya az qalırdı. Hamıdan artıq bu görüşə can atan isə Salatın idi:

- Çatmırıq?

- Hələ xeyli yolumuz var. Üstəlik, yol sürüşkəndir. Həm də üzüyuxarı qalxır. Ona görə də sürəti artırmaq olmur.

- Mən isə tələsirəm. Heç vaxt Şuşada olmamışam. Onu görmək istəyirəm... Çox istəyirəm.

- Əlimizdən nə gəlir ki, jurnalist xanım? Bundan sürətlə getsək, çox keçməz, bax o dərəyə yuvarlanarıq.

Salatın maşının pəncərəsindən dərəyə baxdı. Dərin idi. Topa-topa kolların üstünə elə bil ağ örtük çəkmişdilər. Dərəaşağı yol sanki bu saat yerindən qopub diyirlənəcək ağ-ağ qar topaları ilə bəzənmişdi. Salatın gördüyü mənzərədən ləzzət aldı. Heyranlıqla dedi:

- Doğrudan da, Allahdan mahir rəssam yoxdur. Necə yaradıb bu gözəllikləri!

Sinədolusu dərədən qalxan ayaz ətrini uddu. Uçuşan qar dənələri burnuna kiçik dəmir parçaları kimi çırpılırdı. Salatın xahiş etdi:

- Bir dəqiqə saxlayın.

– Çətindir. Saxlasaq, maşın arxaya sürüşə bilər. Çox sürüşkəndir.

– İstəyirdim, bu mənzərənin şəklini çəkim.

Bunu deyib əlinə götürdüyü fotoaparatı nəzərdən keçirməyə başladı. Bu aparatı ona dünən bağışlamışdılar. Elə dünən də vacib şəkillər çəkmişdi. İndi Şuşaya çatacağı anı gözləyirdi. Elə maşından düşən kimi o gözəllikləri bircə-bircə çəkəcəkdi. Balaca oğlu Ceyhuna göstərmək üçün. Qoy görsün ki, anası hansı gözəlliyə can atır. Nəyi itirməkdən qorxur. Körpə Ceyhununu tək qoyub bu qarlı sıldırımlarda nə axtarır. Salatın bayaqdan dəfələrlə təkrarladığı sualı bir də verdi:

– Çatmırıq?

Sonra öz-özünə pıçıldadı: "Lap körpə uşağa dönmüşəm. Yaxşı ki, demirlər, "çatanda görəcəksən". Amma mən tələsirəm. Kaş bir az ləngiyib vertolyotu gözləyəydim. Axı hərbi hissədə dedilər ki, "tələsmə". Bir azdan vertolyot yola düşəcək. Mən isə tələsirəm. Çox tələsirəm!.."

Salatın tələsirdi. Elə tələsə-tələsə də bu səfər haqqında yazacağı ilk yazının adını düşünmüşdü. Təxminən belə olacaqdı: "Şuşaya qalxan sıldırımda..."

Nə baş verdisə, Şuşaya qalxan sıldırımda baş verdi. Salatın bir anlığa gözlərini yummuşdu. Elə bir anlığa da qəribə bir yuxu gördü: *"Çöllərə sərilən ağ qardan fərqlənməyən ağ donda idi. Uçurdu... Göyün üzündə çox sərbəst idi. Qolları yana açılmışdı. Donunun ətəkləri səma boyu dalğalanırdı. Yerdə minlərlə insan var idi. Hamı başını qaldırıb onu seyr edirdi. Hamı bir ağızdan qışqırırdı: "Haraya?" O isə sanki nəğmə oxuyurdu. "Şuşaya... Şuşaya..." O, insanların arasında Ceyhunu görürdü. Altı yaşlı balaca Ceyhununu. O da soruşurdu: "Ana, haraya?" "Şuşaya, balam, Şuşaya..."*

Sonra qəfil gurultu qopdu. Hərbi avtomobil yerində fırlandı. Mühərrik uğuldadı. Salatın dəhşət içində





gözlərini açdı. Sürücü idarəni itirmişdi. Ön oturacaqdan ona qışqırdılar:

– Əyin, başınızı əyin aşağı. Pusquya düşmüşük.

Güllələr avtomobili dəlik-deşik etmişdi. Düşmən onları bir az irəli buraxıb lap yaxından atəş açırdı. Salatına ünvanlanan güllə amansızcasına gəldi. Heç kimdən və heç nədən çəkinmədi... Sinəsinə saplanacağı insanın bir ana, bir qadın, bir jurnalist olmağına məhəl qoymadı... Gəldi və saplandı. Arzularla dolu bir qəlbi parçaladı. Salatının gözlərindən sıçrayan yaş damcıları yanağı ilə aşağı süzüldü. Simasına ölüm gözəlliyi axdı. Dodağında bir həsrət dondu. Atəş səsləri susdu.

Hərbi avtomobil geriyə sürüşmədi. Təkərləri yerə yapışmış halda hərəkətsiz qaldı. Avtomobilin sərnişinləri xain pusqunun qurbanı olmuşdular. Güllələbaran edilmiş avtomobilə yaxınlaşan saqqallı erməni Salatının başını o yana çevirdi:

– Nəyə baxırsan? Baxışlarından qorxuram. Baxma!

Sonra jurnalistin əlindəki fotoaparatı götürüb nizamladı, onun başını əvvəlki kimi çevirib dedi:

– Eybi yoxdur, qorxsam da, qoy şəklini çəkim. Xatirə üçün...

Fotoaparatdakı sonuncu şəkil Salatının oldu. Elə bu fotoaparat və fotoşəkil az sonra ələ keçmiş ermənilərin törətdikləri qəddar cinayətin üstünün açılmasına kömək etdi.



# QARAQAYA



Sizə bir qaya haqqında danışacağam. Çox istəyirəm ki, onu yaxından tanıyasınız. Elə mən tanıdığım kimi... Dinləyin onun qəmli hekayətini. Diqqətlə dinləyin.

Biri vardı, biri yoxdu. Bir qaya vardı. Yəqin ki, nə vaxtsa əzəmətinə, rənginə görə adına "Qaraqaya" demişdilər. Yamyaşıl dağların əhatəsində nəhəng daş parçası idi. Elə bil Ulu Tanrı yaşıla boyadığı talanın tən ortasına, göz dəyməsin deyə qapqara daş tullamışdı. Həmin daşa da ululardan ulu baba diqqətlə baxıb "Qaraqaya" adlandırmışdı. Elə bu anda onun tale yolunu cızmışdı. Sinəsi qapqara idi. Əsrlərin yağışı ilə yuyulmuş, ildırımı, şimşəyi, küləyi, dolusu ilə cilalanmışdı. Sevinənlə sevinib, kədərlənənlə kədərlənmişdi. Ətrafında bitən rəngbərəng çiçəklərlə söhbətləşmişdi də. Bəzən qara qoynuna qonan ala-bəzək kəpənəyi hürkütməmək üçün saatlarla nəfəsini içinə çəkib dayanmışdı da. Təkcə qar yağanda ağarmışdı Qaraqaya. Təkcə qar düşəndə ağlığından həzz almışdı. Elə bu minvalla da min illər ötmüş, yüz illər keçmişdi, qaya qocalmışdı. Günlərin bir günü...

Hə, danışmaq istədiyim əhvalat burada başlayır. Qarabağın dilbər guşəsi Ağdamın Şelli kəndinin kənarında ucalan bu qaya günlərin bir günü dəhşətli faciənin şahidi oldu. Yer üzünün ən qəddar soyqırımının, əsrin ən amansız faciəsinin şahidi...

Axşamdan çox az keçmişdi. Qaraqaya mürgü vururdu. Yatmağa hazırlaşırdı. Haradansa qəmli nəğmə düşmüşdü dilinə. Onu zümzümə edirdi:

*Arpa çayı aşdı, daşdı,*
*Sel Saranı aldı, qaçdı...*

Qəfildən Qaraqaya titrədi. Nəğməsi dodağında dondu. Nigaran gözləri həmişə həyəcanla baxdığı Xocalıya dikildi. Pıçıldadı:

– Yenə atırlar...

Atəş səsləri gücləndi. Gecənin ayazını yara-yara irəliləyən mərmilər Xocalını kəsik-kəsik etdi. Qaraqaya uğuldadı:

– Yenə atırlar...

Kənd alova büründü. Alov dilimləri donmuş torpağı yalaya-yalaya uçuşdu.

Qaraqaya bağırdı:

– Yenə atırlar...

Qaraqaya çırpındı. Yerindən sıçramaq istədi. Güc verdi. Həmlə etdi. Alınmadı. Tanrı onu torpağa elə sancmamışdı ki, tərpənə biləydi. "Bu dəhşəti kənardan seyr eləmək üçünmü, Tanrım?!" – deyə Qaraqaya hönkürdü. Hönkürtüsü Xocalıyadək gedib çatdı. Od içində qalan Xocalı onu səslədi:

– Kömək elə, Qaraqaya. Dağıl. Parça-parça ol, səpələn mənim soyumu-kökümü talayanların başına..

Bacarmadı Qaraqaya. Səhərədək inildədi. Səhərədək çabaladı. Səhərədək zarıdı...

Günəş dağların arxasından səmanı çərtib çıxmışdı. Amma hərarəti don atmış torpağı ılıtmağa çatmırdı. Yanan Xocalının bütün tonqalları sönmüşdü. Burula-burula qalxan tüstü dilimləri bu yurdun daşının daş üstündə qalmadığından xəbər verirdi.

Burulan tüstü dilimlərinin boz, rəngsiz, avazımış duvağı arasından dəhşətdən və soyuqdan donmuş, hərəkətsiz ayaqlarını arxalarınca ağır yük kimi çəkən kiçik bir



dəstə addımlayırdı. Əgər ona "addımlayırdı" demək olarsa... Onlar sürünürdülər. Ölümdən və alovdan qaçıb şaxtası bıçaq kimi kəsən meşələrin qoynunda ölümə və soyuğa tuş olmuşdular...

Dəstə irəliləyirdi. Bir-birinə dirək ola-ola, bir-birinə söykənə-söykənə. Bir-birinin dərdini yük kimi çiyinlərində daşıya-daşıya. Bütün bunları Qaraqaya görürdü. Lap uzaqdan. Dillənmək istəyirdi. Bacarmırdı. Bağırmaq istəyirdi. Hənirtisi gəlmirdi. Tanrıdan danışmaq üçün güc istəyirdi: "Dil ver mənə, Tanrım, hənir ver mənə, qara üzüm qara olmasın elimin yanında. Hənir ver ki, çığırım. Deyim, dayanın. Gəlməyin! Ay ölümdən qaçanlar! Ölümə doğru yeriyirsiniz axı! Deyim ki, düşmən qara daşıma söykənib sizi gözləyir. Mən bəxtiqaranın dalında qurub pusqusunu. Gəlməyin..."

Qaraqaya çabaladı. Qara daşına söykənənlər adamları nişan aldı. Donmuş ayaqlarını sürüyənlər çalağan görmüş sərçə topası kimi pərən-pərən düşdülər. Qaraqayanın sızıldayan canına çırpıldılar. Qaraqaya hönkürdü. Üzüaşağı baxdı. Ətrafı güllələnmişlərlə dolu idi. Sinəsi üstündə qara saçları qara daşından seçilməyən bir gəlin uzanmışdı. Sara idi. Hər bu yoldan keçəndə Qaraqayanın qapqara daşlarına ağ əlləri ilə sığal çəkən Sara... Dərddən oxudu Qaraqaya:

*Apardı sellər Saranı,*
*Bir ala gözlü balanı...*

Sara gecənin alovundan qarsımış yanağını onun buz kimi qoynuna qoyub əbədi yuxuya getmişdi. Qaraqaya Xocalıda qırılan soyumuzun son işartılarına son ünvan oldu. Onların başı üstündə bütün əzəməti və bütün nisgili ilə ucaldı...

Bu idi Qaraqaya əfsanəsi. Qaraqaya faciəsi bu idi, dostum...







# QƏBİRDƏ DOĞULAN UŞAQ

O, dünyaya qeyri-adi məzarlığın ən adi qəbirlərindən birində göz açdı. Heç nədən xəbərsiz, bütün yeni doğulmuşlara xas bir çığırtı ilə. Naşı bir əlin kəsdiyi göbəyinin ağrısı başına qədər yeridi. Nə qaçıb muştuluq istəyən, nə də bir sevincindən çığıran oldu. Qışqırıb doyandan sonra gözlərini yavaşca açdı, qapqara torpaq divarlara zillədi. Ağlı bir şey kəsmədi. Gülümsədi. Qəbrin sakinləri pıçıldaşdılar:

– Gülümsəyir.

– Hələ gülən vaxtıdır.

Sonra kiminsə yadına bu körpəni dünyaya gətirən qadın düşdü. Həyata körpə gətirdiyindən heç də məmnun olmayan gəlinin yanaqlarından süzülən yaşı kimsə silmək istədi. Bir-birini qovan damcılar sözə baxmadı. Daha onları silməyə cəhd edən də olmadı.

– Niyə ağlayırsan, Güllü?

Gəlin qayğılı-qayğılı gülümsəyən körpəyə baxdı.

– Onun gülməyinə. Deyəsən, sevinir həyata gəldiyinə. Daha demir ki, qəbirdə göz açıb dünyaya. Qəbirdə... – hıçqırdı.

Hamı susdu. Nəzərlərini körpənin sevinclə qaçan dodağına zillədilər. Bu təbəssüm qəbir evlərdə gülümsəməyi çoxdan tərgidənlərə qəribə gəldi. Çox qəribə... Ağlamsınanlar da oldu. Özünü tox tutub bir qədər dözümlü olmağa çalışanlar da.

Qazmanın kiçik pəncərəsindən içəri işıq süzüldü:

– Deyəsən, səhər açılıb axı?!

– Ola bilər. Çölə çıxmasan, bu quyuda səhərin açıldığını bilməzsən.

Sonra qəbir evlərin ruhu çoxdan ölmüş sakinləri bir-bir yerin üstünə çıxdılar. Əvvəlcə gözlərini qapadılar. Günəşin sevinclə oynayan işıq telləri gözlərini qamaşdırdı. Başları gicəlləndi. Amma gicəllənmə tez keçdi. Qazmadan çıxan əlini gözünün üstünə qoyub göyə baxdı:

– Günəş çıxıb.

– Bizə nə?

– Elə-belə deyirəm.

Sonra digər məzarlardan da çıxanlar oldu:

– Ay Güleyşə, gəlin nə təhərdir?

– Azad oldu.

– Nəyi oldu?

– Oğlu.

– Gözün aydın! Muradın əvəzi gəldi. Birini alan Allah birini verər.

– Yəni deyirsən ki, bu torpağın altında onu böyüdüb Murad boyda eləmək olar?

– Eləyərsiniz, Allahın köməyi ilə.

– Vallah, nə deyim? Ağzı yansın müharibənin.

Sonra Güleyşə arvad yaylığının ucu ilə gözünü silə-silə yenə qazmaya girdi. Ala-qaranlıqda Güllünün ortalıqda hərləndiyini gördü:

– Bala, niyə durmusan? Olmaz sənə gəzmək. Nə istəyirsən?

– Günəşə baxırdım.

Güleyşə arvad qəhərləndi:

– Əməlli-başlı yay havasıdır, – birdən gördüyü mənzərədən sanki ayıldı, – bu uşaq nə gəzir burada? – deyib qazmanın müşəmbə vurulmuş balaca pəncərəsinin qabağındakı çağanı göstərdi.

Güllü dağılmış saçlarını gözünün üstündən çəkib gülümsədi:

– Mən qoydum ora.

– Niyə?





– Günəşə baxsın. Ana, axı o yazıq qəbirdə doğulub. Qoy baxsın günəşə, – dedi. Dedi və qəribə tərzdə gülümsündü. – Götürmə. Dəymə. Özüm qoymuşam onu ora.

– Allah, sən saxla, – Güleyşə arvad öz-özünə pıçıldadı, – Allah, sən saxla. Gəlinin halı heç xoşuma gəlmir. – Gəlib Güllünün üstünü örtməyə çalışdı. – Yat, bala, yat. Zahısan. Açma üstünü-başını. Ala, balanı da al yanına. Burada gözünə torpaq-zad tökülər.

Güllü razılaşdı. Körpəsini qucağına alıb sinəsinə sıxdı:

– Elə bərk sıxma. Çağanın nəfəsini kəsərsən.

Güllü barmağını körpənin yanağında gəzdirdi. Pıçıldadı:

– Bayaq nəyə gülürdün?! Yəqin, bilirsən ki, mən səni mütləq buradan çıxardacağam. Heç qoyaram, balam bu torpağın altında çürüsün?! Çıxardacağam səni günəşə, mütləq çıxardacağam, – dedi. Sonra ucadan güldü. Güleyşə arvad qorxa-qorxa irəli yeridi:

– Ver, bala, ver, mən saxlayım. Sən bir hovur dincəl.

Güllü daha bərk sıxdı körpəni:

– Onu qoymaram, burada qalsın. Mən onu çölə çıxardacağam.

– Gün çıxmağına baxma, bala. Hələ havada ayaz var. Qoy beş-on gün keçsin.

– Yox-yox, o vaxtacan bağrım partlayar. Yox! Körpə yazıq deyil?! Çıxardacağam bu qəbirdən onu...

Güllü danışa-danışa yuxuladı. Güleyşə arvad təşvişlə var-gəl etdi:

– Görəsən, ağlı yerindən oynamayıb ki? – sonra öz-özünə: – Bu xarabada bizik ki, dözürük. Sənə qurban olum, ay Allah, cavandır, rəhmin gəlsin Muradımın əmanətinə, – dedi.

Axşamacan Güllü bir neçə dəfə ayıldı. Eyni sözləri tələsik bir-birinin ardınca deyib, yenidən yuxuya getdi.

...Gecədən xeyli keçmişdi. İtlərin kəsik-kəsik ulaşmasından, bir də axşamüstü qalxmış küləyin uğultusundan

savayı ətrafda başqa bir səs yox idi. Güllü gözünü açdı. Harada olduğunu yəqinləşdirmək üçün yarıqaranlıqda bir xeyli dinməzcə durdu. Birdən dik atıldı. Yatağını ələk-vələk eləyib körpəsini axtarmağa başladı. Tapmayıb həyəcanlandı. Ayağa qalxdı. Çırağın işığını azca artırıb əlinə aldı. Güleyşə arvadın yatağına yaxın gəldi:

– Buradadır, – deyə pıçıldadı. – Gəl görüm, gəl bura, – deyib körpəsini qucağına götürdü. Sinəsinə sıxıb ətrini aldı. – İndi gedərik, çıxıb bu qəbirdən qaçarıq. Heç qoyaram, balam qəbirdə qalsın?! – deyə pıçıldayıb qazmanın qapısına doğru addımladı. – İndicə, can balam, lap azca qalıb, lap azca...

Qapıya doğru yeridi. Körpəsini qucağına bərk-bərk sıxıb şaxtalı qaranlığın qoynuna atıldı. Nə vaxtsa günəşə çatmaq ümidi ilə üzü küləyə doğru irəlilədi...



# AL ÇOBANYASTIĞI LƏÇƏKLƏRİ



**Birpərdəli pyes**

İştirak edirlər:

*Şeytan*
*Kişi*
*Qadın*
*Qız*
*Oğlan*
*Qarı*

*Qız:* Günəş batır, deyəsən...
***Oğlan:*** Nədən bildin?
*Qız:* Kölgəmizin uzanmasından...
***Oğlan:*** Batır, batsın da...
*Qız:* Yarasasan sən? Qaranlığı xoşlayırsan? Niyə batsın?! Mən istəyirəm, o çıxsın. Gecə də, gündüz də. Həmişə günəş olsun. Yaysın işığını Yer üzünə. Parlasın, parlasın... Eşitmisən?
***Oğlan:*** Nəyi?
*Qız:* Deyirlər, günəş dəvəquşu yumurtasıdır. Atıblar, ilişib qalıb göydə...
***Oğlan:*** Günəş hara, dəvəquşu yumurtası hara. Uydurursan...

*Qız:* Yox, doğru sözümdür. Hələ məktəbli olanda oxumuşam haradasa. Bilmirəm harada, amma oxumuşam.

*Oğlan:* O əfsanənin bizə dəxli yoxdur. Bizim günəşimizə...

*Qız:* Niyə?

*Oğlan:* Bizdə nə dəvə var, nə də onun quşu. Yəqin, Afrikadan atıblar...

*Qız (gülür):* Nə bilirsən, bəlkə, o vaxt Afrikadan bizim tərəflərə dəvəquşu yürüşü olub.

*Oğlan:* Nə vaxt yəni... Heç məntiqin yoxdur... Heç...

*Qız:* Lap əla məntiqim var. O vaxtlar, yəni yalnız dinozavrlar yaşayanda.

*Oğlan:* Cəfəngiyyat... Nə dinozavr?! Dinozavr hara, dəvəquşu hara... Dinozavrın dəvəquşuna aidiyyəti yoxdur.

*Qız:* Necə yəni yoxdur?! Dəvəquşular hücum edib, dinozavrların səltənətini tutmağa çalışıblar. Dinozavrların ən ağıllısı, yəni baş kələz də məsələdən çıxış yolunu onların kökünü kəsməkdə görüb. Götürüb ilk yumurtanı var gücü ilə üzüyuxarı – göylərə atıb. Yazıq dinozavr, nə biləydi ki, bununla dəvəquşuları Yer kürəsinin işığına hakim edəcək.

*Oğlan (gülümsəyə-gülümsəyə əl çalır):* Afərin. Əla nağılçısan. Kefin də kökdür. Xeyir ola?



*Qadın:* Onun kefinin kök olması elə xeyrə işarədir. Qoy olsun. Qoy kefi kök olsun. Allaha çox şükür! Gör nə vaxtdır, gülüşünü eşitmirik.

*Qız:* Hə, düz tapmısan. Bu gün yaxşıyam. Amma hələlik. Nə qədər ki günəş batmayıb... Günəş isə batır. Çox sürətlə üfüqdə batır. Mən gecədən qorxuram. Gecəni düşünəndə az qalır bağrım çatlasın...

*Qadın:* Yaxşı, bəsdir. Sən şən olanda çox gözəl olursan.

*Qız (sevincək):* Doğru deyirsən, ana? Qoy bir özümə baxım. *(Qaçıb divardakı kiçik güzgüdə özünə*





*baxır).* Hə, hə, qəşəngəm. Qoy bir gülüm. *(Gülür).* Harada mənim kimi qız var? Tel nazik, bel nazik...

*Oğlan:* Telini başa düşdük. Onu görürsən. Amma o bapbalaca yumru güzgüdə belinin nazik olduğunu necə gördün?

*Qız:* Onu da təsəvvür eləyirəm.

*Oğlan:* Mən isə fikirləşirəm ki, bu bürküdə gecəni necə yatacağıq. *(Saqqalını ovxalayır).* Lap nəfəsim kəsilir. Gündüzlərin gecələrdən fərqi yoxdur. Hər şey eynidir...

*Qız:* Eyni deyil. Gündüzlər işıq var. Günəş var gündüzlər. Özü də bilirsən, nə var?! Yer üzündə yalnız işıq var. Qaranlıq isə işığın olmamasıdır. İşıq varsa, qaranlıq yoxdur. Bir günəş şüası zülmət qaranlığı dəlib keçir, qaranlığı parçalayır.

*Oğlan (köynəyinin yaxasını açır):* Deyirsən, "qaranlıqdır" əvəzinə, "işıqsızlıqdır" deyək, hə... Düz başa düşdüm?

*Qız:* Dübbədüz. Soyuq da yoxdur... Yəni ayrılıqda "soyuq" deyilən bir şey... Soyuq, sadəcə, istinin olmamasıdır...

*Oğlan:* Yaxşı da, sənin xətrinə ona da "istisizlik" deyərik... Başqa sözün var? Mənə elə gəlir ki, bitdi... Amma bu işıqsızlıq və istisizliyə bir işsizlik də əlavə olunanda...

*Qız:* İş... İş istəyirsən? Mən deyim... *(Gülür).*

*Oğlan:* Yox, demə. Heç yaxşı iş təklifi verənə oxşamırsan.

*Qız:* Niyə qoymursan, fikrimi sona çatdırım? Maraqlı təklifdir. *(Gülür).*

*Oğlan:* Yaxşı, bəsdir. Zarafata həvəsim yoxdur.

*Qadın:* Qardaşının əsəbləri ilə oynama.

*Qız:* Qoyun deyim də. Maraqlı işdir. Açıq səma altında, soyuq məkanda...

*Oğlan:* Haradadır o iş yeri elə?

*Qız:* Buzlaqların olduğu yerdə... Pinqvinçevirən... Nə qədər desən, vakant yerlər var.

*Oğlan:* İndi də dəvəquşudan keçdik pinqvinə. Pinqvin haradan çıxdı?

*Qız:* Qulaq as. Yaxşı işdir, hə?! Sahilboyu gəzirsən kirşədə. Ağ ayıların arası ilə şütüyüb arxası üstə yıxılan pinqvinləri çevirirsən.

*Oğlan:* Ayağısürüşkən pinqvinləri...

*Qız:* Ha-ha-ha... İşinin adı da olur pinqvinçevirən. İkitərəfli zövq alırsan. Həm maddi, həm də mənəvi. Maddi tərəfi aydındır. Yaxşı əməkhaqqı alırsan. Bilirsən də, buzlaqlar olan yerdə işləyənlərin maaşları çox olur. Bu işin mənəvi tərəfi də odur ki, xeyirxah iş görürsən. Pinqvinləri günlərlə buzun üzərində arxası üstə qalmaqdan xilas edirsən, ölümdən qurtarırsan. Maraqlı sənətdir. Nə tanış lazımdır, nə rüşvət, nə də diplom.

*Oğlan (pərt halda):* Bəs bir cüt ayaq necə, lazımdır?

*Qız:* Mısmırığını sallama. Zarafat elədim. Hər söz xətrinə dəyir.

*Oğlan:* Yox, doğru sözümdür. Tanış lazım deyil, rüşvət də. Bir cüt ayaq da lazım olmasaydı, əla olardı. Pinqvinçevirən kimi şərəfli peşənin sahibi olardım.

*Qız (kədərlidir. Narahatlıqla ətrafa baxır):* Günəş batır. Sənin də kefini pozdum. Deyirəm də, bu evdə həmişə belədir. Biri güləndə o biri mütləq ağlayır. Heç elə olmur ki, iki nəfər eyni anda gülsün.

*Qadın:* Hərənin öz dərdi var...

*Qız (oğlana tərəf gəlir):* Bağışla. Xətrinə dəydim, hə? Bağışla.

*Oğlan:* Yaxşı, narahat olma. Hər şey qaydasındadır.

Otağa sakitlik çökür.
İşıq otağın küncünə düşür.

*Qarı (çarpayıda uzanıqlı vəziyyətdə):* Niyə danışmırsınız? Evdə heç kim yoxdur bəyəm?

*Qız (qarıya tərəf addımlayır):* Buradayıq, nənə. Elə sənin yanındayıq. Nə istəyirsən?





*Qarı:* Şər qarışıb?

*Qız:* Günəş batmağa hazırlaşır. *(Ah çəkir).* İndicə axşam düşəcək.

*Qarı (narahatdır):* Axşam düşəcək?

*Qız:* Hə, nədir ki? *(Öz-özünə).* Eh, ay nənə, sənin üçün gündüzlə gecənin nə fərqi var ki? Onsuz da zülmətin içindəsən...

*Oğlan:* İşıqsızlıqdasan...

*Qarı:* Axşam düşürsə, get, toyuq-cücəni yığ hinə. Çaqqal-çuqqal boğazlayıb daşıyar onları.

*Qız (öz-özünə):* Sən demə, fərqi var imiş.

*Qadın:* Yenə də özündə deyil. Qorx ki, bir azdan yadına təndiri qalamaq düşəcək...

*Qız:* Hələ ki fikri getdi o yanlara. Toyuq-cücənin dərdinə qalır.

*Qarı:* Nə pıçıldaşırsınız? Tez elə. Toyuq-cücə bu vaxtlar hinə yığılmalıdır...

*Qız:* Yaxşı, nənə, yaxşı, gedirəm. Sən rahat ol.

*Qadın:* Dünən vəziyyəti əməlli-başlı düzəlmişdi. Elə sevinirdim ki...

*Qarı:* Hələ getməmisən? *(Qalxmağa cəhd edir).* Özüm gedim? Eh... Uşağı buyur, dalınca yüyür.

*Qız (addımlarını yerə vurub özünü gedirmiş kimi göstərir):* Bax, getdim. Sən otur. Daha doğrusu, uzan... Getdim.

*Qarı:* Yox, özüm gedəcəyəm. Qaragözün də naxırdan gələn vaxtıdır... *(Qarı əsə-əsə durub getmək istəyir).*

*Qız:* Qaragözü də mən sağaram, nənə.

Hamı əl-ayağa düşür.

*Qadın:* Sən otur. Özüm gedərəm.

*Qarı:* Pah... İndi hamısı inək sağan olacaq. *(Qadına).* Sən deyildin deyən ki, "ha çalışıram, bircə damcı süd sağa bilmirəm ondan".

*Qadın:* İndi alaram. Onda cavan idim. Mən də cavan idim, Qaragöz də. İkimiz də həyatın bəd üzünü görməmişdik. *(Öz-özünə pıçıldayır).* İndi Qaragöz də yoxdur, mənim nərmə-nazik əllərim də.

*Qız (nənəsini qucaqlayıb yatağına uzandırır):* Anam deyib də. Mən deməmişəm ki?! Mən sağaram. Qaragöz məni yaxşı tanıyır.

*Qarı (tövşüyür):* Yox. O heç kimi tanımır məndən savayı.

*Qadın:* Ana, sən Allah, bir hovur dincini al. *(Ağlamsınır).* Allah bundan betərindən saxlasın.

*Oğlan:* Bundan betərindən saxlasın. Bundan betəri var ki, ana? *(Gülür).* Sən lap çayla üzən kəllənin günündəsən. Eşitmisən o əhvalatı? Deyirlər ki, çaya sel gəlibmiş. Bir insan kəlləsini də axıdıb aparırmış özüylə. Kəllə durmadan təkrarlayıb deyirmiş: "Allahım, sən bundan betərindən saxla". Yoldan keçənin birinə bu mənzərə gülməli gəlir. Deyir: "Ay zalım, bundan betəri nə ola bilər axı?" Elə bu vaxt qarşıda axan kəllələrdən biri daşa dəyib parça-parça olur. Kəllə deyir: "Gördün, bundan betəri necə olur?"

*Qadın:* Bax elə mən də o kəllə kimi buna şükür eləyirəm.

*Oğlan:* Şükür eləyir... Yarımçıq oğluna, ruh kimi dolaşan qızına, havalanmış qayınanasına görə şükür eləyir.

*Qadın:* "Əstəğfürullah" de, oğul.

*Qarı (ağlayır):* Hər gün belə edirsiniz. Hər gün... Qoymursunuz məni, gedim, sahmana salım qapımı-bacamı. Gör nə vaxtdır, getmirəm!? *(Hönkürür).*

*Qız:* Yat, nənə. *(Qız qarını rahatlayır. Yun şalını sərir üstünə).* Qoy qalsın sabaha. *(Öz-özünə).* Gör nə qədər sabah var. Bu sabahlar sən bu dünyadan gedənədək uzanacaq. Sən də gedib Qaragözünü sağa bilməyəcəksən.

*Oğlan:* Niyə qoymursunuz, getsin?

*Qız:* Hara getsin?





*Oğlan:* Qoyun getsin. İstədiyi yerə. Yolvuranlıq edirsiniz gedənlərə. Getməyənlərin başına sığal çəkirsiniz. Necə ki, mənim dörd dövrəmə dolanırsınız. Mənim... *(Gülür).* Nə yaxşıdır, kaş hamının başı pozulaydı.

*Qız:* Onda Yer üzü böyük bir dəlixana olardı. Yaxud da hamı dəli olsaydı, bir-iki ağıllını təcrid edərdilər. Dəlixanalar əvəzinə "ağıllıxana"lar olardı. Kimsə ağlayardı ki, bəs "balam ağıllıxanada yatır..."

*Oğlan:* Sən zarafat elə. Amma nənəm kimi havalanmağı çox istəyərdim. Bilməzdim, hara gedirəm, nəyə gedirəm. Bir onu bilərdim ki, ürəyim istədiyi yerə gedirəm.

*Qadın:* Bircə o çatmırdı...

*Qız:* Əməlli-başlı xoşbəxtlik üçün...

*Oğlan:* Gedib buzlaqlarda pinqvin çevirməkdənsə, havalanıb Qaragözü sağmağa getmək daha yaxşıdır. *(Əsasını yerə vura-vura otaqdan çıxır. Gedə-gedə xırıltılı səslə deyir).* Get, nənə, get. Qaragöz örüşdən qayıdıb. Mələyə-mələyə səni axtarır. Get, nənə, get. Get, yaşa özün üçün... Bu yaşamaq deyil. Bu, can çəkməkdir...

İşıq sönür... Az sonra yanır.
Otağın yalnız bir tərəfi işıqlanıb.
Qız küncə qısılıb oturub.

*Qız:* Günəş batdı. Getdi günəş. Hər yer qaranlıq oldu. Gecələrdən çox qorxuram. Hər gecə səhərin açılmağını səbirsizliklə gözləyirəm...

*Qadın:* Niyə qorxursan axı? Bayaqdan dönə-dönə deyirsən. Həyatın səhərləri kimi gecələri də olmalıdır.

*Qız:* Başa düşmürəm ki, gecələr niyə belə dəhşət yayır. Bu dəhşətdən qurtulmaq üçün günəş gözdən itən kimi mən də getmək istəyirəm. İstəyirəm, yox olum, onunla gedib, onunla qayıdım.

*Qadın:* Özün özünü qorxudursan. Hər şey haqqında pis düşünərsən, pis olar, yaxşı düşünərsən, yaxşı.

*Qız:* Yox, ana. Axı həyat "Gecə-gündüz" tortu deyil ki, hər iki tərəfi də şirin ola... Deyirəm, çox arzulasan, həmişə səhər ola bilərmi?!

*Oğlan:* Mümkün deyil. Nənəmin Qaragözü sağmağa getmək istəyinə bənzər bir şeydir. *(Sonra şübhəli-şübhəli qıza baxır).* Olmaya...

*Qız:* Nə demək istəyirsən? Deyirsən, yəni mən də havalanmışam? Düşünürsən ki, doğrudan da, Yer üzü böyük bir dəlixanaya çevrilməyə doğru gedir?

*Oğlan (tələsik):* Yox, yox, elə demək istəmirdim.

Qız otağın içində dövrə vurur. Fırlanır.
Saçları açılıb üzünə tökülür. Ucadan gülür.

*Qız:* Qorxursan, hə. *(Oğlanın üstünə gedir).*

*Oğlan (vahimə içində geri çəkilir):* Qurtar. Dəlilik etmə!

*Qız:* Havalanmışam. Bax onu görürəm. *(Əlini irəli uzadıb addımlayır).* Onu görürəm. Əsgər paltarındadır. Qədd-qamətlidir. Vüqarlıdır. Elə bil sağdır. Əllərində bir dəstə çiçək var. İndi mənə verəcək. İndicə. *(Əllərini irəli uzadır).* Ver, ver, əzizim. Mən çöl çiçəklərini çox sevirəm. Barıt qoxulu Vətən çiçəklərini... Çox... Lap çox...

Qadın da, oğlan da həyəcanlıdırlar.
Kişi astanada donub qalıb.
Otağın içində əllərini irəli uzadıb gəzən qız atası ilə toqquşur.
Tələsik özünü qaydaya salmağa çalışır.
Saçlarını yığıb boynunun dalında düyünləyir.
Kişinin gözlərində dəhşət var.

*Qız:* Ata... Gəldin, ata? Axşamın xeyir.

*Kişi:* Heç xeyirli axşama oxşamır. Bu nə oyundur belə?

*Qız:* Elə-belə... Sadəcə, artistlik edirdim.

*Kişi:* Nə artistlik? Oynadığın rol insanı dəhşətə gətirir...





*Qadın:* Sənə nə var ki, səhər çıxırsan, axşam qayıdırsan. Vay halına bütün günü belə tamaşalara baxanın.

*Kişi:* Getdikcə bu evdə ağıllı bir kəsə rast gələcəyimə şübhə ilə yanaşıram... İşdən evə qayıtmaq istəmirəm.

*Qadın:* Yorğunsan. Gəl əl-üzünə su vur. Yeməyini ye.

*Kişi:* Nə isə... *(Nəsə demək istəyir. Amma susub gedir).*

*Qız (oğlana):* Atam qorxdu. Özünü o yerə qoymasa da, hiss etdim. Yəqin, mənim havalanacağımı hər kəs gözləyir bu evdə. Hətta sən də... Qorxdun? Deyəsən, əməlli-başlı qorxdun məndən.

*Oğlan:* Gördüyün işdən həzz alırsan? Hərdən özündən başqalarını da düşün. Heç olmasa, ananı.

*Qız:* Sözün düzü, əvvəlcə zarafat edirdim. Səni şübhələndirmək, qorxutmaq istəyirdim. Sonra elə bil ətrafda hər şey və hər kəs yox oldu. Heç anamı da görmədim. Bir mən qaldım, bir də o. Bir dəstə də çöl çiçəyi... Of... Doğrudan da, dəliliklə ağıllılıq arasında cəmi bir addım məsafə var. O bir addımı atsan, ağlın hakim olmadığı bir aləmə düşürsən. Yalnız sən qalırsan, bir də sarsıntıların. Bir addım... Cəmi bircə addım. Dəhşət...

*Oğlan:* Nə isə... Söhbəti dəyiş. Sən həmişə güclü olmusan. İndi də o gücü qoruyub saxlamağın vacibdir. Bəzən insan yalnız özü üçün yaşamır. Ətrafdakılar, ailəsi, yaxınları üçün yaşayır. Əgər özün üçün yaşamaq maraqsızdırsa, onda, heç olmasa, doğmaların rahatlığı üçün yaşamağa özündə güc tapmalısan...

*Qız:* Razıyam. Ani bir zəiflik idi.

*Oğlan (əlləri əsə-əsə onu özünə tərəf çəkir):* Bayaq bir qız düşürdü pilləkənlərlə. Ağ-güllü paltarlı. Kəpənəyə bənzəyirdi...

*Qız (gülümsəyir):* Gözəl idi?

*Oğlan:* Çox... Zahiri gözəllikdən başqa onda nə isə var idi. Amma bilmirəm nə...

*Qız:* Xoşun gəldi ondan?

*Oğlan:* Kimin? Mənim? Elə mənə yaraşır.



*Qız:* Nə olub ki sənə?! Yaraşıqlısan. Qədd-qamətlisən... Ağıllısan...

***Oğlan:*** Hə, nə oldu? Niyə dayandın? Say da...

*Qız:* Sayaram. Niyə saymıram. Cəmiyyətdə öz mövqeyin, hörmətin var. Vətən uğrunda igidliklə döyüşmüsən. Mənə elə gəlir ki, bu sonuncu saydığım səni sevmək üçün əsas ola bilər.

***Oğlan:*** Bəsdir... "Vətən üçün döyüşmüsən..." *(Qızı yamsılayır).* De ki: "Vətəni bədbəxt eləmisən. Ümidlərini qırmısan. Çöllərində qoyub gəldiyin bir tay ayağınla onsuz da yüklə dolu çiyinlərinə daha bir yük qoymusan. Qoruya bilməmisən onu".

*Qız:* Özünü haqsız ittiham edirsən.

***Oğlan:*** Yox, mən Vətən uğrunda döyüşdüyümü ürəyi mərhəmətlə dolu bir qız tərəfindən sevilməyim üçün əsas saya bilmərəm. Onu qoruya bilmədim. Əl çəkdim. Canımdan artıq sevdiyim yurdumdan da, canımın bir hissəsindən də. İkisini də qoyub gəldim. İkisini də... Niyə? Yaxşı olardı ki, ölərdim onun uğrunda. Amma ölmədim... Ölmədim, anlayırsan? O qanlı döyüşlərdə şəhid olmadım. Güllə ürəyimdən yan keçdi. Məndən əlil alındı. Müharibə əlili...

*Qız:* Qəribə adamsan... Axı bunu sən istəmədin.

***Oğlan:*** İstəməsəm də, belə oldu. Bir xeyrim dəymədi ona... Ağızdolusu "Vətən" dediyimə. İndi də bir qızı bədbəxt eləyim? Nə günahı var? Niyə yalandan özümə sevgi uydurum? Niyə yarımçıq taleyimi onun gülümsəyən baharına sırıyım.

*Qız:* Bir az da başqa cür düşün. Alovlu nitqini qoy bir yana. Adi insanlar kimi... Lap adi. Adidən adi.

***Oğlan:*** "Adi" deyəndə nəyi nəzərdə tutursan? Yəni qanadsız, buynuzsuz, quyruqsuz insanlar kimi? Bax adi bunlardır. "Qeyri-adi" desən, yenə də haradasa başa düşərdim səni.

*Qız:* "Adi" deyəndə yəni lap adi, məsələn, orduda xidmət etməmiş, müharibədən yayınmış, daha nə bilim, nə etmiş, nə etməmiş...

*Oğlan:* Təəssüf... Çox təəssüf. Düşüncənin belə bəsit olmasından xəbərim yox idi. Ona qalsa, hər bir vətəndaş ordu sıralarında xidmət etməlidir. Vətən dara düşəndə onu qorumalıdır. Daha nə bilim, nə etməlidir. Deməli, mən də adi insanam və bütün adi insanlar kimi düşünürəm...

*Qız:* Söhbətimiz qız haqqında idi. Bayaq pilləkənlərlə düşən qız haqqında.

*Oğlan (üzü mülayimləşir):* Amma qəşəng qız idi. Özü də çox qəşəng.

*Qız:* Sənin ondan xoşun gəlib. Yüz faiz. Gözlərindən görürəm. Parıldayır. İşıqla doludur.

*Oğlan:* Sən də hər yerdə işıq axtarırsan...

*Qız:* Pisdir bəyəm?

*Oğlan:* Pis odur ki, o, çox çətin tapılan şeydir. Onu axtarsan, bütün ömrün gedəcək. Bir tərəfdən də yurdun gündoğanı gedib əldən. Bu mənə həmişə belə gəlib. Həmişə düşünmüşəm ki, günəş məhz Qarabağdan, tutalım, elə Şuşadan, Ağdamdan, Laçından doğub, elə oralardaca, dağların yamyaşıl qucağında da batıb. Batıb, əzizim, batıb. Bizim günəşimiz əldən verdiyimiz dağların arxasına çəkilib. Onu axtarmağa dəyməz.

*Qız:* Niyə dəyməz?! Dəyər. Bəs Aprel döyüşləri?! Özün ki cəbhədə idin. Özün gördün ki, nə böyüklükdə əzmimiz var. Bu əzmi qırmaq çox çətindir... Sən isə... Ruh düşkünü olmusan. Niyə elə düşünürsən?! Filosofluq etmə, sən qızdan danış.

*Oğlan (gülümsəyir):* Mənə elə gəlir ki, qız rəssamdır.

*Qız:* Niyə məhz rəssam? Nədən bilirsən?

*Oğlan:* Pilləkənlərdən sanki uça-uça düşürdü. Quş lələyi kimi çəkisiz idi elə bil...

*Qız:* Dediyindən belə çıxır ki, kim pilləkənləri uça-uça düşürsə, deməli, o, rəssamdır?





*Oğlan:* Uçmağının rəssam olmağı ilə heç bir əlaqəsi yoxdur. Gözlərimiz qarşılaşdı. Onun gözlərindəki sonsuz sevinc diqqətimi cəlb elədi.

*Qız:* Onu da sənin gözlərindəki sonsuz kədər.

*Oğlan:* Bəlkə də... Qız sevinc dolu gözlərini mənə zillədi. Nəzərləri bir anda ayağımadək şütüdü. Tutuldu. Bunu mənə sezdirməməyə çalışdı. Bacarmadı.

*Qız:* Maraqlıdır...

*Oğlan:* Bir anlığa dondu. Gəlib bərabərimdə dayandı. "Nə vaxt baş verdi?" – deyə soruşdu. "Ötən il, aprelin 3-də. Sübh tezdən... Günəş doğan kimi..." – dedim.

*Qız:* Bunlara bir bax, əməlli-başlı söhbət də ediblər.

*Oğlan:* Sonra gözləri gözlərimin içinə dikildi. Yaşla dolu idi. "Mən səni bir neçə il bundan qabaq olduğun kimi çəkəcəyəm", – dedi.

*Qız:* Sən də düşündün ki, rəssamdır.

*Oğlan:* Yəqin ki, fotoaparatla bir neçə il bundan öncəni çəkmək olmaz...

*Qız:* Hə, düz deyirsən... Heç orasını düşünmədim. Onda, doğrudan da, rəssamdır...

*Oğlan:* Sonra getdi...

*Qız:* Sənin də ağlını apardı özüylə.

*Oğlan (qəfil yuxudan ayılmış kimi):* Hə, hə, qurtardıq. Bir də bu söhbətə qayıtma.

*Qız:* Bağışla... Belə maraqlı söhbətə mütləq qayıtmaq lazımdır. Sabah günəş çıxan kimi...

Qarı narahatdır.

*Qarı:* Evdəsiniz? Ay evdəkiləəərr....

*Qız:* Evdəyik, nənə.

*Qarı:* Günün nə vaxtıdır?

*Qız:* Şər qarışır.

*Qarı:* İndi durub xəmir qatsam, yəqin ki, sübh tezdən təndirə od salaram.

*Qız:* Yox, nənə, yat. Sən narahat olma, çörəyimiz var.

*Qarı:* Amma təndir çörəyinin yerini verməz...

*Kişi:* Deyəsən, yenə də ruhu o yerlərdə dolaşır.

*Qadın:* Səhər açılandan belədir. Bayaq Qaragözü sağmağa gedirdi.

*Qarı:* Şər vaxtıdır. Mən həmişə gecə xəmir qatıb, səhər erkəndən durub bişirərdim.

*Qız:* Nənəm yenə xəyalların qanadında uçur.

*Qarı:* Sən su gətir.

*Qız:* Yaxşı, nənə, yaxşı.

*Qarı:* "Yaxşı" deyirsən, amma yaxşı eləmirsən axı. Get, su gətir... Unu da əməlli-başlı ələ.

*Kişi:* Yəqin, könlünə təndir çörəyi düşüb.

*Qadın:* Səhər alıb gətirərsən.

*Qarı:* Durum...

Kişi yaxınlaşıb anasının sümükləri çıxmış bədənini bağrına basır.

*Kişi:* Yat, ana, yat.

*Qarı:* Yata bilmirəm. İnsan nə qədər yatar?! Bəs o dünyada nə ilə məşğul olacağam? Yat, yat, yat.... Bezmişəm yatmaqdan.

*Kişi (onu sinəsinə daha bərk sıxır):* Sus, Allah xətrinə, sus. İndi bağrım çatlayacaq.

*Qarı:* Əlimi tərpətməyə qoymursunuz məni. Gör nə vaxtdır, təndirə od salmıram. Ovulub tökülür axı. Təndir qalanmağı sevir. Təndir oxşanmağı sevir.

*Kişi:* Dur, yerləri aç. Yıxılaq, yataq. Dinləyə bilmirəm onu. Qüvvəm, dözümüm çatmır. Arzusunu yerinə yetirə bilmirəm. Çətindir, çox çətin.

*Qadın:* Dünən əməlli-başlı düzəlmişdi.

*Kişi:* Aç yerləri. Aç. Yataq ki, nəyisə unuda bilək.

*Oğlan:* Yatmaq unutmaq deyil. Yatmaq sabahın ağır imtahanlarının yaxınlaşması deməkdir. Nə qədər oyaqsan, qarşıda yatmaq kimi şirin bir ümid var. *(Qarını göstərir).* Ona bir az su verin, bir azca da un. Qoyun əlləri arzusuna toxunsun.

*Kişi:* Bəs sonra... Sonra nə olsun?

*Oğlan:* Sonra Allaha pənah. Bəlkə, təndirə od salmaq vaxtınacan özünə gəldi... Anladı ki, lələ köçüb, yurdu qalıb...

*Kişi:* Bəs tərsinə olsa, necə?

*Oğlan:* Tərsinə olsa, lap yaxşı. Bu otağa od vurar. Çırtıltı ilə yanarıq. Hamımız. Çünki dərddən qupquruyuq. Bir qığılcıma bəndik. Od tutub yanmaq üçün... Qurumuşuq, canımızda su qalmayıb.

*Qız:* Gecə vaxtı çox pis zarafatdır.

*Oğlan:* Kim dedi ki, zarafatdır? Əsl həqiqətlər zarafatda deyilir. Əsl yalanlar həqiqət pərdəsi altında gizlənir.

*Kişi:* Yatmaq vaxtıdır. Yatmaq...

İşıq sönür. Otaqdakılar yuxudadırlar.
Otağın tən ortasında qara paltarlı Şeytan gəzir.

*Şeytan (öz-özünə):* Necə yatıblar... Mışıl-mışıl... Ha-ha-ha... *(Qəhqəhə çəkir)*... İndi mən sizə göstərərəm..Burada heç hava yoxdur...

Yatanlardan biri çevrilir. Şeytan onun yanına gəlir.
Boynundan yapışıb qaldırmaq istəyir.

*Kişi:* Əl çək...

*Şeytan:* Dur! Qalx ayağa!

*Kişi:* Dedim ki, əl çək... Çıx, get...

*Şeytan (iki əli ilə boğazından yapışır):* Boğuluram... Havam çatmır... Dur ayağa. Yuxuda boğulmaq daha asandır. Ona görə, hə?! *(Öskürür).*

*Kişi:* Əl çək məndən. Heç nə soruşma...

*Şeytan:* Özün bil. Durmasan, yuxuda boğulub öləcəksən. Dedim axı, yuxuda ölmək daha asan olur. Yat...

Kişi durub oturur.
İşıq düz onun üstünə düşür.
Rəngi sapsarıdır.
Bayaqdan kiminlə danışdığını yəqinləşdirmək üçün
ətrafa göz gəzdirir.
Şeytanı tapır. Onun əcaib görüntüsünə
əhəmiyyət vermədən soruşur.

***Kişi:*** Nədir? Nə istəyirsən? Burada nə gəzirsən?

***Şeytan:*** İstəyirəm, yatanları oyadım...

***Kişi*** *(gülür):* Oyatdın... Bəs sonra...

***Şeytan:*** Sonrası yoxdur. Burada heç nəyin sonrası yoxdur... Siz sonu elə indidən başlamısınız. Əvvəldən...

***Kişi:*** Əvvəldən... Düz deyirsən. *(Əlləri ilə başını qucaqlayır. Qışqırır).* Yadıma salma... Yadıma salma ötənləri. Onsuz da unuda bilmirəm. Unuda bilmirəm.

***Şeytan*** *(qalibanə):* Nəyi, niyə, nədən ötrü?..

***Kişi:*** Dedim, əl çək. *(Öz-özünə).* Bu cəhənnəm də çoxdur mənə... Çoxdur... Anlayırsan? Bütün kənd çıxmışdı. Sonuncu mən idim. Məndən sonra heç kim yox idi. Bircə ondan başqa. Mən və o... *(Yenə başını tutur. Gicgahlarını ovuşdurur).*

***Şeytan*** *(maraqla irəli yeriyir):* Sən və kim?

***Kişi:*** Açıl başımdan. *(Öz-özünə).* Bircə ondan savayı... Hamı getmişdi. Onun da özü yox idi. Üç kəndin o üzündən səsi gəlirdi...

***Şeytan:*** Səsi... Ha-ha-ha... Səsi...

***Kişi:*** Səsi gəlirdi. Üç kəndin o tayından. Qışqırırdı: "Ay Allahı sevənlər, – deyirdi. – Məni də aparın..."

***Şeytan:*** Ha-ha-ha... Allahı sevən tapdımı? Tapdı?

***Kişi:*** Tapmadı. Bütün ağıllılar getmişdi. Qalan o idi. Yalnız o.

***Şeytan:*** Səs?!



***Kişi:*** Yox... Səsin sahibi. Üç kəndin yeganə ağlını itirmiş günahsız mələyi. Qışqıran o idi. Uzaqlaşan biz. Olmayan ağlı ilə o, insanların arasından Allahı sevən axtarırdı.

***Şeytan*** *(sevinə-sevinə):* Tapmadı? Hə, tapmadı? Ha-ha-ha...

***Kişi:*** Kəs... Ağılsız... Yaradana asi düşdüyündən bu görkəmdəsən...

***Şeytan:*** Özünə bax. Özünə... Sən nə gündəsən?!

***Kişi:*** Tfu. Səsin başıma düşdü... *(Şeytana tərəf tüpürür. Əlləri ilə qulaqlarını tutub qışqırır).* Kəs səsini... Onsuz da qulaqlarımda səs var. Onun səsi: "Ay Allahı sevənlər... Məni də aparın..."

Uzanır. Mələfənin bir ucunu üstünə çəkir.
Qadın oyanır. Çırpınır.
Durub yerinin içində oturur. Alnını ovxalayır.
Təngnəfəsdir...

***Qadın*** *(tövşüyür):* Lənətə gələsən səni... Az qalmışdı...

***Şeytan*** *(qadının o tərəf-bu tərəfinə keçir):* Nəyə az qalmışdı? Hə... Boğulub ölməyə?!

***Qadın*** *(ikrahla əcaib məxluqa baxır):* Yox, ölməyə yox... Həyata bir addım qalmışdı. İşıq dolu həyata. Əlim az qalmışdı ki, çata.. Üzəm onları... Bilirsən, necə bərq vururdular?! On beş gecəlik ay kimi. Anlayırsan?

***Şeytan:*** Yox, heç nə anlamıram...

***Qadın:*** Özüm əkmişdim onu. Öz əllərimlə suvarmışdım. İlk meyvəsini həsrətlə gözləmişdim... Dərməyə ürək eləməmişdim. "Sulansın" demişdim. "Yetişsin" demişdim...

***Şeytan:*** Yetişsin? *(Qəhqəhə çəkir).* Hə? Sulansın?

***Qadın:*** Gülmə... Hələ də ətri burnumdadır... Ağ əriklərin. Çəmən ətri gəlirdi onlardan. Vətən ətri gəlirdi...

***Şeytan*** *(öz-özünə):* Dəli olub...

***Qadın*** *(əsəbi):* Yox, dəli olmamışam. Amma dəli kimi arzulamışam ağ ərikləri. Bircəciyini yeyə biləydim...





***Şeytan*** *(gülür):* Qəribə arzudur.

***Qadın:*** Hə. Hə... Doğru sözümdür. Dəli kimi... Həvva cənnət almasını arzuladığından daha artıq. *(Yanğı ilə bayatı çağırır).*

*Əzizinəm, ağ ərik,*
*Sarı ərik, ağ ərik.*
*Bir oğul istəyirəm,*
*Gedib dərə ağ ərik...*

***Şeytan*** *(gülür):* Nə verərsən?

***Qadın:*** Nəyə?

***Şeytan:*** Bir ağ əriyə...

***Qadın*** *(Şeytana tərəf iməkləyir):* Nəyim var, verərəm... Bir udum ətrini sinəmə çəkmək üçün. Vətən ətri qarışıq ətrini...

***Şeytan*** *(qəhqəhə çəkə-çəkə otağı dolanır. Hamı oyan-buyana çevrilir. Şeytan gülür):* Nəyin var ki... Verəsən də. Ay yazıq, nəyin var axı?

***Qadın*** *(onun dalınca sürünür. Ağlayır. İnildəyir):* Var. Var... Sən haradan bilirsən? Mən qadın deyiləm bəyəm?! Mənim də öz qaragünlüyüm var. Saxlamışam onu. Sığal çəkmişəm. Boyunu sevmişəm...

***Şeytan:*** Maraqlandım. Göstər görüm...

***Qadın*** *(dəli kimi yatağına doğru qaçır. Yastığının altından bükülü bir dəsmal çıxardır. Əlləri əsə-əsə dəsmalı açır):* Bax... Bax... Varımdır. Bizdə buna "beşlik" deyirlər.

***Şeytan:*** Beşlik... Maraqlıdır...

***Qadın:*** Çox maraqlıdır... Əlbəttə, maraqlıdır... *(Əlini irəli uzadır).* Görürsən, necə parıldayır... Əvvəllər mən tez-tez onu boynumdan asardım. Yaraşardı. Çox yaraşardı...

***Şeytan:*** Yaraşardı... İndi yaraşmır...

***Qadın:*** Hə, indi yaraşmır... Daha doğrusu, artıq neçə vaxtdır ki, güzgüyə yaxın getmirəm...

*Şeytan:* Qorxursan... Özünə baxmaqdan qorxursan...
*Qadın:* Hə...
*Şeytan:* Düz edirsən. Qorxulusan. İstəyirsən, təsvir edim. Deyim, necəsən?!
*Qadın (həyəcanlanır):* Yox... Lazım deyil. Demə... Demə. Sus. Özüm baxacağam. Nə qədər qorxulu olsam belə, baxacağam. Sən al bunu. *(Ovcunu açır)*. Get, mənə bircə dənə bağımın ağ əriyindən gətir...
*Şeytan:* Ver! Ver, gedim, əvəzində bir ağ ərik gətirim...

Qadın əli titrəyə-titrəyə beşliyi
onun ovcuna qoyur.



*Qadın:* Götür...
*Şeytan (başını ovcuna doğru əyib beşliyə baxır. İyrənc qəhqəhəsi otağa yayılır. Sonra gücü gəldikcə beşliyi tullayır):* Al, bu da sənə ağ ərik... Al...



*Qadın (dəli kimi qışqırır):* Atma... Atdın?! Hara atdın? Hara... Niyə atdın axı?! *(Qadın yatanların arası ilə sürünür. Əlini döşəmədə gəzdirə-gəzdirə bir xeyli axtarır. Hönkürür... Bayatı çağırır).*

*Əzizinəm, ağ ərik,*
*Sarı ərik, ağ ərik.*
*Nübarını dadmadım,*
*Ürəyimə dağ ərik.*

Onun başı üstündəki çarpayıda
yatan qız yerindən qalxır.
Anasının başını dizləri üstünə alır.
Sığallayır...

*Şeytan (şövqlə qıza baxır):* Gözəldir. Cəhənnəmdə açmış çiçək. Yox... Cəhənnəmdə belə çiçək açmır... Görməmişəm. Mən oradan gəlirəm. Yoxdur.

(Qızın o tərəf-bu tərəfinə keçir. Saçlarını
sığallayır. Əyilib öpmək istəyir.
Qız əsəbi hərəkətlə onu itələyir).

*Qız:* Cəhənnəm ol... Əl vurma mənə... *(Anasının saçlarını sığallayır. Öz-özünə danışır).* Biz artıq üç ildi ki, bir yerdə idik... Çox qanlar görmüşdük. Elə dəhşətlər yaşamışdıq ki... Bir-birimizi sevmişdik. Bu sevgimizə Vətən adlı müqəddəsə olan sadiqliyimiz də qarışmışdı. Bizi bir-birimizə məsləyimiz bağlamışdı. Yanan yurd yerlərinin, dağılan ocaqların, günahsız qocaların, körpə gözlərindən süzülən yaşların ağrısı-acısı hopmuşdu sevgimizə. Biz Vətən torpağına and içib əhd-peyman bağlamışdıq.
*Şeytan:* Ha-ha-ha... Vətən torpağına... Sus! Səsini kəs! Boş-boş danışıb mənim baş-beynimi aparma...Vətən torpağına... Sözə bir bax.

*Qız:* Sən inanma... Sənin qəlbində nə var ki, Vətən sevgisi də ola?! Amma biz Vətəni qiblə bilirdik. Ona səcdə edirdik. Ona and içirdik. And... Mən tibb bacısı idim. O, zabit... Həmin gün... *(Anasının başını sığallayır).* O da belə qoymuşdu başını dizimin üstünə. Bax belə... Son nəfəsi idi. Dodaqlarının kənarı ilə qan süzülürdü. Gülədən sinəsi parçalanmışdı. İnildəyirdi...

*Şeytan:* Ha-ha-ha... Heç də təsirli səhnə deyil... Nə olsun ki... Adam inildəyə də bilər, ölə də bilər. Bu heç də romantik deyil...

*Qız (ona əhəmiyyət vermir):* İnildəyirdi. Get-gedə səsi zəifləyirdi. "Sən get, – deyirdi. – Tez ol. Qaç. Nə qədər gözlərim açıqdır. Get. Get ki, görüm". Mənsə yalvarırdım: "Sən getmə... Nə olar. Getmə. Allah xətrinə. Mən də getmirəm... Sən də qal. Allahı sevirsən, qal..."

*Şeytan:* O qalmadı, hə?! O, Allahı sevə bilmədi...

*Qız:* Kəs... Belə danışma... O, Allahı çox sevirdi... Lap çox. Məni də çox sevirdi. "Get, – deyirdi. – Nə qədər mən sağam, get, görüm ki, getdin... Tez... Məni sevirsənsə, get".

*Şeytan:* Ancaq sən dayanmışdın. Son nəfəsini gözləyirdin. Sevgilinin ölümlə mübarizəsini seyr edirdin... Hə?

*Qız:* Yox... Yalan deyirsən. Mən onu çox sevirdim. Çox... Sevgilimin ölməyini necə seyr edə bilərdim?! Ətraf ağappaq çobanyastığı çiçəkləri ilə dolu idi. Dəniz kimi dalğalanırdılar. Biz dalğaların qoynuna atılmış qayığa bənzəyirdik. Qayalara çırpılmış, parçalanmış, batmaqda olan qayığa... Yarasından qan bulaq kimi axırdı. Bənizi getdikcə daha çox ağarırdı. Mən çobanyastığı çiçəklərinin ləçəklərini amansızcasına yolub tökürdüm...

*Şeytan:* Sevir, sevmir... Sevir, sevmir... Hə?

*Qız (ağlayır):* Yox, heç də yox. O məni sevirdi. Buna əmin idim. Bu dəfə "ölür, ölmür", deyirdim... Ölür, ölmür... Ölür, ölmür... Ölür... Sonra birini də... Yenə də ölür... Yenə də... Sinəsi ağappaq çobanyastığı ləçəkləri ilə





dolu idi. Onlar qana bulaşmışdılar... Xırıldaya-xırıldaya pıçıldayırdı: "Get, qaç, buradan..."

*Şeytan:* Sən...

*Qız:* Heç nə demə. Heç nə. Sən heç nə başa düşmürsən. Sənin hisslərin ölüb. Yoxdur.

*Şeytan (ona yaxınlaşır. Arxadan boynunu qucaqlamaq istəyir. Qız çırpınır):* Mən onun başını dizimin üstündən yerə qoya bilmirdim. Qorxurdum. Qorxurdum ki, elə bu dəqiqə, onu yerə qoyan kimi yox olacaq... Onunla ölmək istəyirdim. Sən anlamazsan...

*Şeytan:* İnanmıram... Anlamıram...

*Qız:* Özün bil. Amma bəzən ölmək arzusu yaşamaq həvəsindən daha güclü olur. Onunla ölmək istəyirdim... Onunla bu çiçəkli çəməndə qucaq-qucağa, göz-gözə, üz-üzə... Amma son arzusunu da yerinə yetirmək məcburiyyətindəydim...

*Şeytan:* Çox təsirlidir... Daha doğrusu, gülməlidir.

*Qız:* İstəmirsən, dinləmə...
Mən ayağa durdum. Son dəfə onun yaralı sinəsinə sıxdım üzümü...
Sonra bir ətək çobanyastığı çiçəyi dərdim. Onun başını ehmallıca qaldırdım. Çiçəkləri başının altına qoydum...

*Şeytan:* Ah, nə romantikdir...



***Qız** (dəli kimi bağırır):* Gülmə. Bax... Gözlərimin içinə yaxşı bax. *(Şeytan baxır. Dəhşət içində geri çəkilir. Yıxılır. Sürünə-sürünə arxaya çəkilir).* Gördün? Qorxdun! Onun son görüntüsünü köçürmüşəm gözlərimə. Son görüntüsünü...

***Şeytan:*** Necə də gözəlsən. Heç Hollivud filmlərində belə dəhşəti sənin kimi inandırıcı oynayan birini tapmazsan...

***Qız:*** Mən oynamıram. Mən yaşayıram... Bu dəhşət mənim içimdə kök salıb. Mən gülə bilmirəm. Sevinə bilmirəm... O mənimlə yaşayır... Mənimlə böyüyür... Mənimlə qocalır.

***Şeytan:*** Səninlə gözəlləşir. Sən necə də gözəlsən. Bəlkə də, Şeytan ilk dəfədir ki, Allahın yaratdığına vurulur. Allah yaratdığına...

***Qız:*** Sən sevə bilməzsən. Sən ruhsuzsan. Daş kimi qəlbsiz və ruhsuz. *(Öz-özünə).* Mən onun başını bax beləcə dizlərimdən ayırdım. *(Anasının başını nəvazişlə yerə qoyur).* Bax belə. *(Sığallayır).* Sonra... *(Hönkürür).* Sonra əllərimlə... Bax bu əllərimlə...

***Şeytan** (irəli yeriyir. Onun əllərini sığallayır. Pıçıldayır):* Bəs sonra...

***Qız:*** Bu əllərimlə onun gözlərini sığadım. Arzusunu yerinə yetirə bilmədim onun. Məni orada qoyub getdi...

Qız bunu deyib yerinə uzanır.

***Şeytan:*** İlahi, necə gözəl yaratmısan. *(Qəfildən sanki ayılır. Dəli kimi yatanların üstü ilə yeriyir)* Tfu... Başımı itirirəm, deyəsən. Mən də boğuluram bu cəhənnəmdə. *(Yerə yıxılıb çabalayır. Sonra əlinə keçən əşyanı yuxarı qaldırıb baxır).* Bu nədir... Nədir axı bu? *(Diqqətlə baxır. Protez ayaqdır. Əti ürpəşir. Protezi qolu gəldikcə tullayır).* Bu kimindir?





***Oğlan** (qəfil qalxır. Kilidlənmiş kimi görünən dodaqlarının arasından bir kəlmə çıxır):* Mənim. Ver. Dur, get, bəri gətir.

***Şeytan** (protezi atdığı yerdən qaldırır):* Bu sənindir? Niyə? Özün oradasan, ayağın burada.

***Oğlan** (üzünü ovxalayır):* Ayağım burada deyil. Ayağım Qarabağın barıt qoxulu çöllərindədir. Tək-tənha... Yiyəsiz.

***Şeytan:*** Mən! Yerin altını üstünə çevirən mən, amma hər dəhşəti burada gördüm. Bu otaqda.

***Oğlan:*** Eybi yoxdur. Gör... *(Öz-özünə).* Aprel səhəri idi. Xəfif meh yenicə cücərən otları titrədirdi. Günəş heç nə olmamış kimi səmada gülümsəyir, silah lülələri onun şəfəqləri altında parıldayırdı. Biz sürətlə irəliləyirdik. Vətəni azad etmək hər birimizin arzusu idi.

***Şeytan:*** Vətən... Vətən... Sizin bu anlayışınız mənə çatmır. Çatmır mənə. Ha düşünürəm, ha baş sındırıram, bir şey hasil edə bilmirəm...

***Oğlan:*** Edə də bilməzsən. Etsən, adın Şeytan olmaz ki... Şeytanın nə Vətəni var, nə də şərəfi... Biz isə anamız Vətən uğrunda irəliləyirdik. Artıq Lələtəpə uğrunda döyüşlər gedirdi... Elə həmin gün ayağımı itirdim. Minaya düşdüm. Mən oradan tək ayaqla qayıtdım. Ayağımı kəmərimlə bərk-bərk sıxmışdım ki, qan axıb getməsin... Yol kənarına düşmüş əsgər çəkməsindəki kəsilmiş ayağım dalımca baxa-baxa qalmışdı.

***Şeytan:*** Yəqin ki, səndən ayrıldığına sevinirmiş...

***Oğlan:*** Yox, həsrətlə baxırdı. Mən isə sürünürdüm. Bir tay ayağımla. Bir tay çəkməmi yerə dayaya-dayaya...

***Şeytan:*** Bir tay... Ha-ha-ha... Bir tay...

***Oğlan:*** Hə, nədir? Qəribədir? Bir tay ayaqla sürünənlər, dilənənlər görməmisən? Qəribə gəlməsin sənə. Bu mənim üçün artıq adiləşib. Bir burun, bir ağız, bir baş kimi.

Adidən adi olub. Damarlarında qanı işləməyən bir cansız əvəz edir onu... Bir zaman yaşayanı. Bir zaman dəmir kimi möhkəm olanı. Bir vaxtlar düşmənləri dabanı altında qarışqa kimi əzməyi bacaranı. İndi cansız, qansız biri əvəz edir. Amma çətin idi. Ondan ayrılmaq çox çətin idi.

**Şeytan:** Niyə ki... Əvəzində indi rahatsan. Heç kim sənə "get, vuruş" deyə bilməz. Çünki şikəstsən. Əməllibaşlı şikəst. Çolaq... Ha-ha-ha...

**Oğlan:** Gülmə... Çünki burada gülməli heç nə yoxdur. *(Öz-özünə).* Sən bunları anlamazsan...

**Şeytan:** Nə bilirsən? Anlayaram... Lap yaxşı anlayaram... Döyüşməmək üçün öz ayağına güllə sıxan qorxaqları da görmüşəm...

**Oğlan:** Kəs... Kəs... Mən isə hələ də o anı xatırlayıram. Çəkməmin bir tayı ilə vidalaşdığım anı...

**Şeytan:** Vida mərasimi kədərli keçirdi...

**Oğlan** *(ona əhəmiyyət vermir):* Arxamca əməlli-başlı qəbiristanlıq gəlirdi. Qəbirlərdən başdaşıları əvəzinə insan bədənləri qalxmışdı...

**Şeytan:** Nə iyrənc səhnə...

**Oğlan:** İyrənc yox, dəhşətli. Onlar bağırırdılar: "Gedirsən, hə, bizi qoyub gedirsən?" Uğuldayırdılar. Hönkürürdülər...

**Şeytan** *(qışqırır):* Danışma. Yat. Hələ səhərin açılmasına çox var. Yat...

**Oğlan:** Yox. Dinlə. Sonunadək dinlə... Başdaşıları...

**Şeytan** *(sürünür):* Yalvarıram, danışma. Susss...

**Oğlan** *(ona əhəmiyyət vermir):* Mən isə sürünürdüm. Danışan başdaşılar ardımca qaçırdılar. Mənə elə gəlirdi ki, indi onlar üstümə çıxacaqlar. Onların ağırlığı məni diri-diri torpağa basdıracaq.

**Şeytan:** Diri-diri...





**Oğlan:** Qəbiristanlıq dalğalanırdı. Qəbirlərdən qalxan insanlar daş kimi onların başına sancılmışdılar. Çoxunu tanıyırdım... Hündür, cüssəli, özü kimi yekə bir qəbirdən qalxan Murad idi. Gözümün önündə kəsilmişdi başı. Düşmən mərmisi üzmüşdü... Amma indi başı üstündə idi.

**Şeytan:** İndi bütün qəbirdən qalxanları sadalayacaqsan...

**Oğlan:** O, Mansur idi. Hələ də yaralarından qan süzülürdü. O biri Fərid... Mən isə sürünürdüm... Qan çalalarına düşə-düşə.

**Şeytan:** Zamanım çatdı. Getməliyəm...

**Oğlan** *(əlini atıb onun boğazından yapışır. Şeytan qıvrılır. Xırıldayır):* Yooox... Hara?! Qulaq as, dinlə... Mən isə sürünürdüm. Qəbirlərdən qalxanlar "Getmə!" deyə bağırırdılar. "Dayan. Cavab ver. Hər şey üçün. Qanımızla yuduğumuz torpaqlar üçün. Sən... Yer üzündə yaşayan. Sən. Yaşayanların arasında şəhid ruhlarına cavabdehlik daşıyanlardan biri. Getmə..." – deyirdilər...

**Şeytan** *(başını əlləri arasına alıb sıxır):* Yox... Daha dinləyə bilmirəm...

**Oğlan:** Sonra gurultu qopdu. Haradansa mərmilər yağdı. Başdaşıları çiliklәndi. Parçalandı. Qəlpələri ətrafa səpələndi. Tək qalmış ayağıma sancıldı. Ayağım dəlikdeşik idi... Arxada aprel günəşi parlayırdı... Mən isə huşumu itirirdim. Gözlərim qaralırdı. Kəsik ayağımdan süzülən qan bütün gücümü özü ilə torpağa hopdururdu... Yaşam əzmim yerlərdə idi... Gözümü açanda hərbi hospitalda idim. Hamı bir-birini təbrik edirdi. Hamı sevinirdi... Lələtəpə alınmışdı. Bayrağımız dalğalanırdı o təpənin üstündə... Bayrağımız. Mən xoşbəxt idim. Mən... Tək ayağı ilə bu dünya ilə baş-başa qalan mən... Eh, sən Şeytansan. Bu xoşbəxtliyi anlamazsan ki... Anlamazsan...

Oğlan inildəyir. Sonra üzüqoylu yerə sərilir.

***Şeytan** (sərsəm halda ortalıqda fırlanır. Başı gicəllənirmiş kimi divarı tuta-tuta gedir):* İnsanları mən bu gün tanıdım. Əsəbləri möhkəm imiş. Çox... Çox möhkəm. Bura cəhənnəmdən betərmiş. Bura...

Küncdə açılmış dəmir qatlama çarpayı cırıldayır. Şeytan vahimə içində səs gələn tərəfə baxır. Çarpayının üstündə yatan sümükləri qabarmış qarı durub oturur. Qarı xırıltı ilə öskürür. Sonra qurumuş dodaqlarından lənət yağdırır.

***Qarı:*** Lənət sənə, kor şeytan... Lənət sənə...

Şeytan başını tutur. Qışqırır. Qəfildən yoxa çıxır.

**Son**



# DÖYÜŞÇÜ ÜRƏYİ



*Dünyanı dərk etmək üçün dağa-daşa düşmə, dostum! Hikmət də, həqiqət də bu kitabdadır. Dostluq da, sədaqət də bu kitabdadır... Sadəcə, bu kitabı aç. Sadəcə... Oxu və insan oğlunun rəşadətini dərk et. Sevimli yurd uğrunda şəhadətə yüksəlməyin sevincini anla. VƏTƏN deyilən müqəddəsin yolunda canını əsirgəməyənlərin sevdasını çözməyə çalış. "Bu nə böyük bir SEVGİ, bu nə böyük bir EŞQ", – deyib bir anlıq təəccüblən, gözlərin yaşarana qədər həyəcanlan, boğazını qəhər tutanadək qürur duy. Bu yurdun oğluna səcdə et, bu torpağın qəhrəmanı ilə öyün, Qarabağın xilasına aparanların torpağını tütyə et. Sonra pıçılda... Sadəcə, pafossuz-filansız, qəlb dolusu səmimiyyətlə de: "Mən sizdən öyrəndim qəhrəmanlığı..."*

# CƏNNƏTDƏ



Azərbaycanın Milli Qəhrəmanı
İbrahimov Mübariz Ağakərim oğlunun
əziz xatirəsinə...

– Səriyyə nənə... Səriyyə nənə...

Səriyyə qarı aynabəndin pəncərəsindən boylandı:

– Gəldin, bala?!

– Gəldim, nənə... Bağı suvarmaq üçün su açmışam...

Səriyyə nənə kövrəldi. Gözünün yaşını yaylığının ucu ilə sildi:

– Ay bala, ay Mübariz, gör neçə illərdir, bu bağ yağışın ümidinə qalıb. Sənin haradan ağlına gəldi?!

– Hə, nənə... Torpaq quraqlıqdan çatlayıb. Mütləq bağı suvarmaq lazımdır...

– Ay bala, sənin yaşıdların top dalınca qaçır, sən su açıb, bağ suvarırsan. Bacarmazsan. Çətin olar...

– Bacararam, nənə, bacararam. Bax, su da gəlib çatdı...

Torpağın çat yerlərinə dola-dola gələn bulanıq su getdikcə artdı, çatlar doydu... Mübariz əlindəki bellə suyu ağacların dibinə açdı. Torpaq suyu acgözlüklə içdi. İllərlə suvarılmayan, yağışın ümidinə qalan ağaclar yayın oğlan çağında suyu içib minnətdarlıqla gülümsədi, budaqlarını yana açıb rahat nəfəs aldı. İstidən güclə nəfəs alan toyuq-cücə arxdan sızan suyun yığışdığı çala-çökəkdən su içib sərinləndi. Ördəklər gölməçəyə girib qanadlarını şappıldatdı. Səriyyə nənə qollu-budaqlı tutun altındakı

qaralmış taxta masanın üstünə ağappaq süfrə sərdi, mis sinidə gilənar mürəbbəsi, qənd və armudu stəkanlara süzülmüş çay gətirib qoydu. Əlləri əsə-əsə mürəbbədən xırda, kənarı zərli nəlbəkiyə tökdü:

– Gəl, bala, kəklikotu çayı dəmləmişəm. Gəl, iç. Günün altında işləməkdən nəfəsin kəsildi...

Mübariz yorulmuşdu... Amma üzündə elə xoşbəxt təbəssüm vardı ki...

Səriyyə nənə həvəslə çay içən Mübarizə baxıb deyirdi:

– Həmişə köməyə yetən olasan, oğul. Bu yaşından ki, belə başlamısan...

Mübariz günün sonuna artıq bütün bağı suvarmışdı. Bu arada ağacların qurumuş qol-budağını kəsərək kom-kom eləyib məftillə bağlamışdı:

– Nənə, bu çırpıları talvarın altına yığıram. Təndir qalayarsan.

– Yığ, bala, yığ... Bu ürək ki səndə var, yaşamaq asan olmayacaq...





***

İllər keçdi... Qocalıb beli bükülmüş Səriyyə nənə eləcə hər qapıdan girəndən Mübarizi soruşdu: "Ay uşaq, Ağakərimin oğlundan nə xəbər var? Mübarizi deyirəm e... Nə vaxt qayıdır?!"

Mübariz ordu sıralarında idi. Canından çox sevdiyi Vətəni qorumağa getmişdi. Gedəndə çoxlarına baş çəkmiş, hal-əhval tutmuşdu. Səriyyə nənəni isə, demək olar ki, ərki çatan hər kəsə tapşırmışdı. Gözlərinin nuru getmiş bu kimsəsiz qarını qəlbində rəhm olanlara əmanət edib getmişdi.

Qızmar iyun günüydü... Günəş yeri-göyü yandırırdı. Yenə Səriyyə nənənin bağı susuzluqdan çat-çat olmuşdu... Həyətin ortasından keçən arx qupquru qurumuş, bir içim su həsrəti ilə gözünü yollara dikmişdi. O yollarla Mübariz gələcəkdi nə vaxtsa. Gələcəkdi və Səriyyə nənənin nuru itmiş gözlərinə nur gətirəcək, yanan bağına-bağatına su verəcəkdi...

***

Amma belə olmadı...

Hava çoxdan qaralmışdı. Sükut içində olan qaranlığı arabir düşmən mövqeyindən açılan atəş səsləri və uçuşan mərmilərin işığı pozurdu. Haradasa İsa-Musa quşu hər zamankı kədərli nəğməsini oxuyurdu: "İsa, tapdın... Musa, yox". Mübariz bu səssizliyi və qaranlığı içinə çəkmiş kimi qəmli və susqun idi. Qəfildən həzin bir meh əsdi. İyun istisi bu mehin gətirdiyi sərinliyə və yovşan ətrinə asanlıqla təslim oldu. Haradasa "Qarabağ şikəstəsi" səsləndi. Səs çox uzaqdan gəldi. Qaranlığı və sükutu yara-yara irəlilədi. Yovşan ətrinə qarışıb Mübarizin bütün ruhuna hakim kəsildi...

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan...*

...Mübariz qəti qərarını verdi. Bu gecə viran qalan Qarabağın qisasını düşməndən alacaqdı. O özü... Təkbaşına... Qarabağ uğrunda son savaşa qalxacaq. "Vətən haqqı, bu yaralı Vətənimin canına and içirəm ki, bu gecə düşmən qarşımda diz çökəcək", – deyib qərarını qətiləşdirdi.





Cibindən bir parça kağız və qələm çıxartdı. Son savaşa qalxmamışdan son məktubunu yazdı:



"Canım atam və anam.
Məndən ötrü darıxmayın.
İnşallah, cənnətdə
görüşəcəyik. Mənim üçün
bol-bol dua edin. Vətənin
dar günündə artıq ürəyim
dözmür. Allaha xatir, bunu
etməliyəm. Ən azından,
ürəyim sərinlik tapar. Şəhid
olanadək bu şərəfsizlərin
üzərinə gedəcəyəm. Şəhid
olsam, ağlamayın. Əksinə,
sevinin ki, o mərtəbəyə
yüksəldim. Allaha
ibadətlərinizi dəqiq yerinə
yetirin. Çoxlu sədəqə verin.
Seyid nəvəsi olaraq bunu
etməliyəm.
Allah böyükdür. Vətən sağ
olsun. Oğlunuz Mübariz...
Haqqınızı halal edin".

Yazdığı məktubu yaşaran gözlərinə sıxdı. Göz yaşlarını heç özünə yaraşdırmadı. Dərindən nəfəs alıb özözünə dedi: "Sevinc göz yaşlarıdır. Nə zamandır, gözlədiyim gün gəlib". Avtomat silahını çiyninə aldı, xeyli güllə darağı, qumbara götürdü... "YA VƏTƏN", – deyib ayağa qalxdı...

O, minalanmış sahə ilə irəliləyirdi. Heç dönüb arxaya baxmırdı. Sanki Ana torpaq onu minalardan qoruyurdu. Arzu etdiyi qisas anına qovuşdurmaq üçün...

Düşmən qəfil basılmışdı. Zənn edirdilər ki, böyük bir ordu hücuma keçib. Mübariz şimşək kimi gah orada, gah burada çaxırdı. Bir göz qırpımında dayandığı nöqtəni dəyişir, pərən-pərən düşmüş düşmən əsgərinin başına gülləni dolu kimi yağdırırdı. Önündə baş qoyduğu, diz çökdüyü Ulu Yaradan ona doyunca qisas almaq üçün qanad vermişdi, nədir?! Öz silahındakı güllələr elə ilk həmlədə boşalmışdı. İndi düşməni elə özlərinin silahından yağan güllə ilə məhv edirdi. Atdığı qumbaralar düşmən mövqelərini dəlik-deşik etmişdi. Mübariz bir silahı boşaldıb, o birini götürürdü...

Gecəyarısından başlayan döyüş xeyli davam etdi... Sonra haradansa xain bir güllə gəldi. Vəhşi bağırtı ilə uğuldadı... Uladı... Mübarizin sinəsinə sancıldı. Düşdüyü yeri parçaladı, dağıtdı... Sanki bir dağ çökdü. Ucadan-uca bir dağ. Bir qaya paramparça oldu. Şiş ucu göylərə meydan oxuyan bir qaya. Bir oğul yıxıldı "YA VƏTƏN" deyib çağırdığının sinəsinə.

Yıxıldı... Üzündə təbəssüm, səmaya dirənmiş gözlərində sonsuz sevinc. Allahım! Qürurla ölmək nə böyük xoşbəxtlik imiş. Nə qədər müqəddəs və uca zirvə imiş ŞƏHİDLİK ZİRVƏSİ...

Yenə haradansa həmin meh əsdi. Yenə yovşan ətri və "Qarabağ şikəstəsi" qarışıq... İsa-Musa quşunun yorğun nəğməsi son dəfə səslənib susdu: "İsa, tapdın... Musa, yox... İsa tapdın... Musa..."

***

Səhər yenicə açılmışdı. Ağakərim kişi qəfil telefon zənginə yuxudan oyandı:

– Alo, alo... N saylı hərbi hissədəndir. Oğlunuz silah və sursatla bu gecə hissəni tərk edib...





Ağakərim kişinin gözündə bu dünyanın günəşi batdı sanki, işığı söndü. Səndirlədi. Amma yıxılmadı. Səsi əsə-əsə dedi:

– O mənim oğlumdursa, onu irəlidə axtarın. Cəbhə xəttinə doğru gedin...

O gecə... O gecə qeyri-bərabər döyüşdə Mübariz şəhid oldu. Düşmən onun cansız bədəninə belə yaxın düşə bilmirdi. Xəfif yay mehi susuzluqdan cadar-cadar olmuş torpağı yalayır, onun qoynunda yatan şəhidə layla deyirdi:

*Vətən, şəhidin gəlir,*
*Al qoynuna, uyut sən...*
*Yarasına məlhəm ol,*
*Sınıq qəlbin ovut sən...*

*Vətən, şəhidin gəlir,*
*Fəxr et şəhidinlə sən.*
*Çiçək səp yollarına,*
*Çox sözü var, dinlə sən...*

Açılan səhər bütün Azərbaycana bu xəbəri yaydı: "Mübariz İbrahimov düşmənlə qeyri-bərabər döyüşdə qəhrəmanlıqla şəhid olub!" Bu xəbər ev-ev, qapı-qapı gəzdi. Bu xəbəri hamı eşitdi. Təkcə Səriyyə nənədən başqa. Heç kəs ona Ağakərimin oğlunun şəhid xəbərini verməyə cəsarət etmədi... Heç kəs Səriyyə qarının tənha dünyasının yeganə Mübarizini ondan almağa cəsarət edə bilmədi...



# SÖZ

Vətən müharibəsinin şəhidi
Cəbrayıl Dövlətzadə Dövlət oğlunun
əziz xatirəsinə...

Adı Cəbrayıl idi. Rəbbin nur üzlü mələyinin adını daşıyırdı. Allahın sözlərini vəhylər şəklində Məhəmməd peyğəmbərə çatdırmış mələyin gözəl ismini.

Yəqin ki, dünyaya nur kimi enmişdi. Onu bu dünyaya mələküzlü bir ana – Məleykə gətirmişdi. Bilmirəm, anaya Yer üzünə bəxş etdiyi körpəyə müqəddəs mələyin adını qoymağı kim pıçıldamışdı. Ancaq ana elə mələyin özünü ayırmışdı bətnindən. Uca Rəbb onu səmalara uçuracaqmış, demə... Ona cənnət əta edəcəkmiş... Gənc, məsum zehninə elə bir VƏTƏN sevgisi yazacaqmış ki, bu sevgi onu şəhadətə qədər aparıb çıxardacaqmış. Bu sevgi onu müqəddəs şəhidlik zirvəsinə yüksəldəcəkmiş. Dirigözlü gedəcəkmiş Cəbrayıl bu yolu. Sevə-sevə ucalacaqmış. Cənnətin ən yüksək qatında, Rəbbin əbədi dirilik əta etdiklərindən olacaqmış...

***

Cəbrayıl sentyabrın 27-də döyüşlərin başlanması xəbərini ən böyük müjdə kimi qarşıladı:

– Müharibə başladı... Axır ki. İllərdən bəri gözlədiyimiz müharibə. Qoy görsünlər ki, Vətənimizi işğal edənlərin cəzasını necə verəcəyik. Bu yolda ölüm –

müqəddəs ölümdür. Bu yolda şəhidlik – arzularımın zirvəsidir. Haqq uğrunda savaşa. Hazıram... Hazıram... Hazıram...

Arxadan əsgər yoldaşlarının səsi ucaldı:

– Hazırıq... Hazırıq... Hazırıq.

Cəbrayıl indi anladı ki, sən demə, pıçıldamırmış bu sözləri, hayqırırmış. Elə yüksək səslə deyirmiş ki, bölükdəki əsgərlərin hər biri eşidirmiş.

Geriyə döndü. Fəxr hissi ilə bu savaşa qalxmağa hazır olanlara baxdı:

– Uşaqlar, sizi Vətən səsləyir. Məni isə həm Vətən, həm də müqəddəs saydığım bir insanın şəhid olduğu gün verdiyim söz...

– Nə söz?

– General Polad Həşimov şəhidlik zirvəsinə ucalanda mən üzümü Yaradana tutdum. Heç zaman ağlamağı özümə yaraşdırmamışam. Amma həmin anlarda göz yaşlarımı saxlaya bilmirdim. Dedim ki, "Allahım, səndən heç nə istəmirəm. Mənə güc və savaş ruhu ver! Mənə generalım Polad Həşimovun qisasını almaq səadətini nəsib et. Bu yara, bu ağrı ilə məni yaşatma. Bu qisası almağı nəsib et mənə". Yaradan səsimi eşitdi. Eşitdi səsimi... Allahım, hazıram. O böyük qisas gününə hazıram. Bütün varlığımla önündəyəm. Hüzurundayam. Yol aç... Savaşa yetir məni, Rəbbim....

Elə həmin gün hərbi hissəsi ön cəbhəyə yola düşdü. Murovun bıçaq kimi kəsən şaxtası yanaqlarını qamçılayanda sevincini gizlədə bilmədi. Üzünü dağlara çevirib var gücü gəldikcə dedi:

– Vətənnnn... Sənə gəldim. Sənin və generalımın uğrunda can fəda etməyə gəldim. Eheheyyyy... Dağlar, eşidin məni. Alın məni zirvələrinizə, yüksəldin məni səmalara, qartallarla uçurdun məni. Mən zəfər əsgəriyəm, Vətən... Mən qisas əsgəriyəm.





Cəbrayılın səsi dağların bəmbəyaz qarla naxışlanmış gümüşü sinəsinə dəyib çilikləndi. Parça-parça olub yayıldı. Yamac boyu şütüdü əsgər nidası. Onun səsi dəyən torpaq inildədi... İllərdən bəri düşmən tapdağı altında əzilən yurd yerlərinə məlhəm olub yayıldı. Qayalar başını sinəsinə qoydu. Zirvələr onun ayaqları altına endi. Qartallar göy üzündə qanad saxladı. Əzmi Vətən torpağını mat qoydu. Göy üzü pıçıldadı: "Ucal, əsgərim! Ucal! Bu dağların zirvələrindən daha yüksəyə ucal. Göy üzünün maviliyində şahanə qartal uçuşu sərgilə. Möhtəşəm qisas gününə hazır ol! Hazır ol, əsgər! Bu savaş səni zirvələrə qaldıracaq. Əmin ol, əsgər. Sən arzuladın, mən əta etdim. Müqəddəs arzular səmalara yüksələr. Müqəddəs arzular Allah dərgahında səslənər, əsgər... O arzuların sahiblərinə əbədi həyat vəd edilər!"

Murovdağın əzəmətli qoynuna bəyaz-mavi bir nur səpələndi. Cəbrayıla elə gəldi ki, yamaclarda qar çiçəklədi, dağların döşü lalələrlə bəzəndi. Rahat nəfəs aldı və elə o dəqiqə onu şəhadətə yaxınlaşdıran xəbəri eşitdi:

– Əsgər Dövlətzadə Cəbrayıl Dövlət oğlu, sabah strateji əhəmiyyətli postun ələ keçirilməsi üçün aparılacaq hücum əməliyyatında 11 nəfər zabitlə birlikdə sən də iştirak edəcəksən. Əməliyyat sübh tezdən başlanacaq. Vətəni müdafiəyə hazır ol, əsgər!

– Oldu! Azərbaycan Respublikasına xidmət edirəm!

***

...O gecə yuxusunda general Polad Həşimovu görmüşdü. Elə gur işıq düşdü ki, gözləri yaşardı. İşığın içində generalını seçə bildi:

– Cənab general... gəldiniz? Sağsınız?

– Sağam, əsgər. Əbədi həyat bəxş edilənlərdənəm. – Dodaqlarındakı təbəssüm bütün bənizinə yayıldı. Təbəssümü elə ılıq idi ki... Elə işıqlı idi ki... Sanki Murovun qarları bu təbəssümdən əridi. Selləri-suları

daşdı. Çiçəkləri açdı... – Cəbrayıl, sabah çox çətin, ağır döyüş olacaq.

– Olsun, generalım... Sizə verdiyim söz vardı. Yadınızdadır? Qisasınızı alacağımı demişdim. Məncə, sabah həmin gündür.

– Məncə də... Cavanım... Vətənin qisasını alacağın gündür.

– General, mən bacaracağam. Səhərin açılmağını səbirsizliklə gözləyirəm.

– Vətən sağ olsun, əsgər. Vətən sağ olsun... Vətənnnn...





***

Cəbrayıl gözlərini açdı. Yalnız indi gördüklərinin yuxu olduğunu anladı. Səhərin açılmağına lap az qalmışdı. Dəqiqələr... Silahını götürüb bir daha nəzərdən keçirdi, silib təmizlədi. Sonra lüləsini dodaqlarına yaxınlaşdırdı, öpüb pıçıldadı:

– Kömək et mənə... Sən ömründə kiməsə söz vermisən? Sən ömründə Vətən dərdi çəkmisən? Amma mən illərlə bu ağrı ilə yaşamışam. Mənim verilmiş sözüm, andım var. Kömək et mənə, lütfən... Sadiq dostum...

...Qarlı dağlarla uzun yol getmək lazım gəlirdi. Hava soyuq və şaxtalı idi. Dan yerinə zəif qızartı çökmüşdü. Buludlar parça-parça olub kənarlara çəkilir, aydın göy üzü zəfər vəd edirdi. Düşmənin arxasına keçmək üçün 11 nəfər zabitlə yola çıxmışdılar. Dəstənin ən gənc və ən təcrübəsiz üzvü Cəbrayıl idi. Cığır dağların döşünə dolanır, sıldırımları aşırdı. Arabir kimsə ona baxıb pıçıldayırdı:

– Yorulmamısan?

– Xeyr.

– Afərin, əsgər. Yaxşı başlamısan. Hələ xeyli yolumuz var. Pusquya düşməmək üçün dua etməliyik. Düşsək, bütün planlar pozular. Zirvədəyik. Yaradana daha yaxınıq. Allah qorusun.

Cəbrayıl pıçıltı ilə deyilənləri dinləyir, gözünü səmada gəzdirir, səma boyu səpələnmiş buludlarla dan yerini dəlib çıxmaqda olan günəşin rəqsini seyr edir və pıçıldayırdı: "Mənzilbaşına salamat yetir, Allahım. Qəfil gülləyə tuş gətirmə. Düşməni məhv edəcəyim anın həzzini mənə yaşat. Şərəfimi doğrultmağıma yardımçı ol. Verdiyim sözü tutmağa kömək et. Sonrasına özün qərar ver, Rəbbim. Ardı sənin işindir, Yaradanım".

...Yolu yaxın etmək üçün arabir qısa söhbət olurdu. Ruh yüksəkliyi yaratmaqdan ötrü komandirin dediyi adi bir cümlə isə mənəvi silaha çevrilirdi. Döyüşçülərdə əminlik yaradırdı, uğura səsləyirdi.

– Həm Vətən üçün, həm də bir-birimiz üçün döyüşməliyik. Döyüş yerində yaralı və şəhid buraxmamalıyıq. Əmrlərə müzakirəsiz tabe olmalıyıq. Unutmayın, işimiz haqq işidir. Yaradan Haqdır. Məqsədimiz Vətənin azadlığıdır!

Qanlı döyüş başlamışdı. Qızğın çarpışma gedirdi. Düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdi. Hələlik postu susdurmaq mümkün deyildi. İçəridən döyüşü idarə edənləri zərərsizləşdirmək lazım idi.

– Postu almaq lazımdır. Yəqin, orada hansısa yüksək rütbəli düşmən zabiti var. Onu susdurmalıyıq.

Cəbrayıl bayaqdan düşündüyünü komandirin ağzından eşidən kimi irəli çıxdı:

– Mən gedəcəyəm.

– Tək olmaz.

– Bacararam, komandir. Xahiş edirəm. Sizin hamınızın körpə balaları var. Mən subayam. Mən gedəcəyəm... Mənim Polad Həşimova verilmiş sözüm var. Generalımızın qisasını almağım üçün bu əmri mən yerinə yetirməliyəm. Xahiş edirəm.

Komandir əlini onun çiyninə qoydu. Sıxdı və astaca silkələdi:

– Get, əsgər. Ehtiyatlı ol.

Cəbrayıl gülümsündü:

– Narahat olmayın. Aylardır, bu döyüşün məşqlərindəyəm. Güləşdə deyildiyi kimi, bu gün "döşək üstə" çıxmalıyam... Ya Allah...

Əsgər Dövlətzadə düşmən postuna tərəf irəlilədi. Əlində silah, üstündə qumbara... Gedişi elə əzəmətli idi ki, sanki düşmən istehkamına doğru bir dağ irəliləyir. Sanırdın, gedən insan deyil, tunc heykəldir... Ölümə belə gedənlərin yolunda kim dayanar ki...

İstehkamda gizlənən düşmən hərbçiləri Cəbrayılın gəlişini gözləmirdilər. Heç ağıllarına da gəlməzdi ki, kimsə ölümü gözünə alıb, istehkamın içinə bu qədər inamla girə bilər. Cəbrayıl içəri göz gəzdirəndə vəlvələyə düşmüşlərin arasında erməni generalını seçib elə ilk





həmlədə onu məhv elədi. İstehkamdakı düşmən hərbçilərini vurdu, qırdı, parçaladı, tikə-tikə etdi, bənd-bənd ayırdı. Qəzəb və nifrəti silahdan daha çox iş gördü. Gülləsinin biri yayınmadı. Yumruqları gürz kimi işlədi. Sanki canına bir ordunun gücü dolmuşdu. Bir qövmün 30 ildən bəri çəkdiyi əzabın öcünü alırdı.

– Ara, bu nədir, ara...

– Vəhşi kimidir...

– Mənnnn... mən təslimmmm oluram...

Cəbrayıl erməni polkovnikinin boğazını dəmir barmaqları arasında var gücü ilə sıxıb bağırdı:

– Əllərimlə boğacağam səni. Sənə güllə haramdır...

Nəfəsi kəsilən düşmən zabitinin başı sola doğru əyildi. Cəbrayıl ayağa qalxdı. Bu an istehkamdakı son düşmən əsgəri onu sinəsindən nişan aldı. Birinci güllədə Cəbrayıl səndirlədi, amma yıxılmadı. İkinci atəş... Üçüncü atəş... Son həmləsi ilə onu nişan alan sonuncu düşmən əsgərini məhv etdi... Özü ağır yaralandığından yıxıldı...

Ruhu qanadlandı... 44 günlük müharibənin cəmi 2 gününü yaşamış əsgər əbədi cənnətə yüksəldi. Üzündəki təbəssüm onun böyük səadət içində olduğunu pıçıldadı. Murovun qarlı zirvələri göy üzünə doğru yüksələn əsgər ruhuna vida nəğməsi oxudu:

*Dağların qarı, oğul,*
*Dövləti-varı, oğul.*
*Uçub getdi göylərə*
*Yarı nər, yarı oğul...*

İkinci Fəxri xiyabanda iki məzar var. Milli Qəhrəman general Polad Həşimovun və "Azərbaycan Bayrağı" ordenli Cəbrayıl Dövlətzadənin məzarları. Hər gün o məzarlara gedən yol qucaq-qucaq sevgi daşıyır. Hər kəs gətirdiyi qərənfillərlə birlikdə bu məzarların üstündə qəlbini qoyub gedir. Vətən onların çiynində ucalır. Bu məzarlarda yatan, şəhidlik zirvəsinə yüksələn minlərlə Vətən mücahidlərinin...





# O, İŞIQ İDİ!

Vətən müharibəsinin şəhidi
Məmmədov Əliağa Eldəniz oğlunun
əziz xatirəsinə...

O, işıq idi... Səhnə onun əlləri ilə işıqlanır, kölgə və zülmətə qərq olur, yenidən sanki günəş doğmuş kimi sarı-qızılı nura bələnirdi. İşıqçı idi Əliağa... Musiqili Komediya Teatrının gülüş dolu səhnəsi onun işığına sığınardı. Onun saldığı işıq səhnəni yaşadardı, sevindirər, güldürərdi. Dostuna-doğmasına çevrilmişdi işıq. Səhnənin "baş möcüzəsi" sayılan işıq onun əllərində idi. Onun tərtəmiz qəlbi bu səhnənin işığını əsirgəməz, bol-bol paylayardı. Səhnə onun üzünə gülərdi, ona xeyir-dua verərdi, onun işığından ötrü qəribsəyərdi... İşıqçı idi Əliağa...

Sevgisini də elə bu tamaşaların birində tapmışdı. İşıqla bəzədiyi oturacaqlardan birində saçları günəş rəngli bir qız görmüşdü. Onu qəlbinin işıqlı bir yerində saxlamışdı. Günlərin bir günü qəlbinin o işıqlı yerindəki qıza ürəyini açacaqdı...

– Əsgər gedirəm, – dedi Əliağa...

Heç kəs yox idi. O, işığını səxavətlə verdiyi doğma səhnəsi ilə danışırdı... Sanki onun xeyir-duasını alırdı. Orduya qəlbində bir dünya işıqla yollandı. İşıq təmiz qəlbləri arayar. Zülmət çökmüş könüllərdə işığa yer olmaz.





...Vətən müharibəsi başlayanda hələ hərbi xidmətini başa vurmamışdı. Sevinirdi. İllərlə bu günü gözləmişdi. İllərlə azad edəcəyi Vətən torpaqlarının xəyallarını qurardı. Bu xəyallar onunla böyümüşdü... Vətən sevgisini qəlbinin ən işıqlı yerində böyütmüşdü. Qarabağ torpağını heç görməmişdi. Amma onu düşmən tapdağından xilas etmək ən böyük arzusu olmuşdu...

Qanlı döyüş yerlə göyü bir araya gətirmişdi... Mərmilər, güllələr havaya barıt qoxusu səpə-səpə uçuşurdu. Arxasınca işıqlı xətlər cıza-cıza ötüşürdü. Bu, ölümsaçan işıq idi. Bu dəhşətli işıqlıqda müzəffər Azərbaycan əsgəri tarix yazırdı. Bu tarixin hər səhifəsini onlardan birinin qəhrəmanlığı naxışlayırdı... Hər səhifəsinə bir şəhidin qanı çilənirdi. Hər səhifəsində işğaldan azad olunan yeni bir yurd yerinin xarabaları bozarırdı...

...Döyüş uzun çəkmişdi. Səngimək bilməmişdi... Düşmən mövqelərimizi minaatanlardan atəşə tuturdu:

– Dözün bir az da... Ehtiyatsızlığa yol vermək olmaz...

– Bir qurtum su olsaydı. Barıt boğazımı zəhər kimi eləyib.

– Məndə var... Al, Əliağa...

O, boğazının acılığını bir qurtum su ilə yumağa macal tapmadı... Yaxınlaşan səsdən minaatan mərminin tabor komandirinin yanına düşəcəyini hiss etdi. Əlini suya doğru uzatsa da, ildırım sürəti ilə irəli şığıdı... Komandiri yerə yıxdı, bədənini ona sipər elədi. Hər şey bir göz qırpımında baş verdi.

– Əsgər... Sən nə etdin?! Kim idi bu?! Kim idi mənim önümə atılan?..

Kimsə dilləndi:

– Əliağa...

Komandir onu çevirdi. Qəlpələr bədənini parçalamışdı. Dodaqlarında təbəssüm işıldayırdı. Bu təbəssüm onun yerdən ayrıldığına, səmalarda üzü cənnətinə doğru uçuşuna işarə idi.

Komandir kədər içində pıçıldadı:

– Mən bu ömrü sənin ömrünün davamı kimi yaşayacağam, əsgər Məmmədov. Şəhadətin mübarək!

***

Qəlbindəki işıqla qalxmışdı əbədiyyətə. İşıq dolu bir yol görünürdü göy üzündə...

Böyük insan axını üzlərdə fəxr, gözlərdə kədər, qəlblərdə qürurla Əliağanı son mənzilə yola salırdılar. Maştağadakı dəfn mərasimində tabor komandiri iştirak edə bilmədi. Şiddətli döyüşlər getdiyinə görə gələ bilməmişdi.

O, Əliağanın valideynlərinə minnətdarlıq məktubunu yazmışdı:




Vətən uğrunda müqəddəs savaşa qalxanlar ölmür. Onlara bəxş edilən əbədi həyatları səmalara köçür. Əliağa da bu cənnət yolçularının arasında əbədi hüzura qovuşanlardan oldu. Şəhadətin ali məqamına ucalanlardan!



## SƏN NƏĞMƏ İDİN!



Düz 40 gündür, içimdə oxunan nəğmə üçün yazdım...
Vətən müharibəsinin şəhidi
Yusifzadə Xudayar Müslüm oğlunun əziz xatirəsinə...

Sən nəğmə idin. Oxundun... Sonra ani bir uçuşla qalxdın səmalara. Hər bulud ağlayanda bir ovuc nəğmə çiləndi bu yurda. Bir ovuc sevgi çiləndi. Buludların maviliyində əridin. Günəşin işığında not-not olub səpildin göylərdən...

Sən sevgi idin, əsgər. Sevgini nəğmə kimi oxudun. Günlərin bir günündə. Soyuq torpaq səngərlər bu nəğmə ilə isindi. Nəğmən hopdu yerin canına. Nəğmən sevgi idi. Bu sevgidən, mehribanlıqdan xoşhallandı. Əridi... Xumarlandı, əzizləndi torpaq. Sonra həmin o nəğmə burula-burula dağ başından duman kimi endi üstümüzə... Bu nəğmə Azərbaycanı silkələdi, yellədi... Bütün xalqa oxundu... Bütün xalq oxudu... "İlahi, bu nə səs?!" – dedi. İlahi, mələklərmi oxudu, heç bilmədik... Torpaq bu nəğmədən elə bir hüzur tapdı ki, illərin ağrısını qovdu canından... İllərin xıltını, hisini, pasını tökdü... Gözlərini zillədi nəğmə dolu üzünə... Səni aldı ağuşuna. Dedi ki: "Səni günahlarla dolu bu Yer üzünə buraxa bilmərəm". Dedi ki: "Hər addımda bir günahın qollarına vermərəm səni. Səni nəğmələrin səltənətinə çatdıracağam, oğul. Durulanmış, arınmış, yağışlarla





suya çəkilmiş, günəşlə nura bələnmiş göylərimə aparacağam, əbədi dirilik əta edib, əbədi hüzura qovuşduracağam səni. Sən oxuduğun yer nəğməsi deyil, oğul. Sən oxuduğun göy nəğməsidir..."

O səngərdən havalanan nəğmə havalandırdı hamını. Hamımız o nəğmənin notlarının ardınca düşdük. Hamımız yerdən ayrıldıq. Havalanmış kimi bütün günü zümzümə elədik:

*Şair, sorma, Vətən nədən yaxşıdır...*

Nədən yaxşıdır Vətən?! Nədən?! Sinəsinə məlhəm kimi süzülən nəğmədənmi?!. Dağ çiçəklərinin ətri vardı nəfəsində, əsgər. Çöl küləklərinin kükrəməsi vardı. Sənin oxuduğun nəğmədə cənnət həvəsi vardı. Cənnətə tələsənlərin yolüstü zümzüməsiydi bu, bəlkə də. Nəğmə deyildi ki... Yer üzündən bir günəş şəfəqi ilə burula-burula göy üzünə qalxan qızılgül ətri vardı nəğməndə, əsgər. Kim dedi ki, oxu... Rəbmi?! Yaradanmı dedi?!... Mərmi səslərindən bezən, insanlığı yaratdığından təəssüflənən uca Rəbmi?! Dedi: "Oxu, Xudayar, oxu, ölümün üzünə oxu... Qoy utansın. Tək özünün yox, bütün ölümlərin üzünə oxu... Bütün silahların səsini batır zümzümənlə. Dodaqlarında titrəyən təbəssümündən qat nəğmənə, Vətən sevgisindən əlavə et, oxu..."

*Dumanlı dağların başında durdum,*
*Dumandan özümə bir xeymə qurdum.*
*Keçdi xəyalımdan öz gözəl yurdum,*
*Dumanlar başında duman göründü.*

*Könüllər cəzb edən bu xoş mənzərə,*
*Şövqümü artırdı şeirə, qəzələ.*
*Çarpdıqca vətənim, əlim nəzərə*
*Təbiət də mənə heyran göründü.*

*Deyirlər, bülbülə çəmən yaxşıdır,*
*İnsançün laləzar vətən yaxşıdır.*
*Vahid, sorma, vətən nədən yaxşıdır,*
*Adı gəlcək könlüm xəndan göründü.*

Nə Əliağa Vahid, nə də Əlibaba Məmmədov heç bilməzdilər ki, illərdir, yerdə oxunan nəğmənin sorağı qəfil cənnətin özündən gələcək... Döyüş meydanından qanadlanacaq bu nəğmə, Xudayarın dilindən süzülüb bu yurdun bütün analarının, qızlarının qəlbinə axacaq. Sanki bu gün yaranmış kimi... Heç vaxt oxunmamış kimi... Qəfildən enəcək qəlblərə. Özü ilə təbəssüm və işıq dolu bir sima gəzdirəcək. Bir gün Yaradan onun şəhadətinə qərar verəcək...





# SƏN SEVGİSƏN, VƏTƏN!

Vətən müharibəsinin şəhidi
Baxışova Ərəstə Kərim qızının
əziz xatirəsinə...

Arəstənin 4 yaşı olanda atası dünyasını dəyişmişdi. Atasız böyümüşdü. Atasının xatirələri ilə. Bəlkə, elə ona görə oğlan kimi idi. Cəld idi, qoçaq idi...

– Ana, görürsən, uşaqlar mənə nə deyirlər?
– Nə deyirlər axı mənim qızıma?
– Deyirlər ki... Deyirlər: "Sən oğlansan..."

Anası gülümsədi. Çəkib bağrına basdı, yanaqlarından öpdü:

– Hə, qızım. Başına kişi papağı qoyub həyətə çıxanda elə deyəcəklər də... Sənə neçə dəfə demişəm ki, o papaq qız papağı deyil...

– Atamın papağıdır... Mən də onun kimi döyüşçü olacağam...

– Sən yox, qızım. Qoy qardaşların döyüşçü olsun. Sən qızsan axı...

– Mən qız döyüşçü olacağam da, ana...

O vaxt Arəstə balaca idi. 6 yaşı vardı. Anası atasının hərbi papağını və köynəyini qoruyub saxlamışdı. Arəstə də əsgər papağını başına qoymağı, əsgər köynəyini geyinməyi elə sevirdi ki... Sonra Vətənin dərdləri artdı... Arəstə də böyüdü. Vətənin dərdləri ilə birlikdə böyüdü.

Vətənə vurğun böyüdü. Sevdi Onu. Erkən itirdiyi döyüşçü atası kimi sevdi. Qəlbində Qarabağa elə həsrət böyütdü ki, bu həsrət onun zərif sinəsinə sığmadı. İki balasından daha əziz oldu Vətən. Gözlərində yaş gilələnmiş anasından daha yaxın oldu...

Uzun qış gecələri sevimli Mərdanını, Zəhrasını bağrına basıb, onlara Vətən haqqında nağıllar danışdı. Bu nağılların sonunda həmişə xeyir şərə qalib gəldi. Bu nağıllar xoşbəxt sonluqla bitdi. Bu nağıllarda mərd və yenilməz sərkərdələr divlərə qalib gəldi... Arəstə səbirsizliklə bu nağılların həqiqətə çevriləcəyi günü gözlədi... Hospitallarda işlədi. Yaralı əsgərlərə qulluq etdi. Yemədi, yatmadı, dincəlmədi... Bütün qəlbi ilə o böyük günü gözlədi. Vətən uğrunda savaş əmri veriləcəyi günü... O gün yetişdi...

– Ana, cəbhəyə gedirəm...

– Qızım, sənin atasız böyütdüyün iki balan var. Hərb kişi işidir. Nə çox döyüşçü oğullarımız. Döyüşəcəklər və alacaqlar torpaqlarımızı düşməndən...

– Ana, elə hesab et ki, mən də oğulam. Balalarımı sənə tapşırıb cəbhəyə gedirəm. Sən mənə Vətəni əmanət et, mən sənə balalarımı... Yaxşımı, ana...

Ananın razılaşmaqdan başqa çarəsi qalmadı. Amma ürəyinə damdı ki, bu savaş qızının Vətənə verəcəyi son nəfəs olacaq. İllərlə keçirdiyi hərbçi həyatı elə bu savaşla sona çatacaq. Amma yenə də, nə olursa olsun, etiraz edə bilmədi. Yolundan saxlamağa ürəyi gəlmədi:

– Yaxşı, qızım. Get... Yolun açıq olsun, balam... Nə deyirəm ki...

Arəstə Xaçmazda anadan olmuşdu. Qarabağı yalnız xəyallarında gəzmişdi, dolanmışdı. İndi o torpaqların harayına səs verirdi... Arzusu çox böyük idi. Qarabağ boyda idi onun Qarabağ arzusu. Vətən boyda idi... Dünya boyda idi...





Aramsız döyüşlərdə bir an oturmadı, sakit yerə çəkilib daldalanmadı, gecəsini gündüzünə qatdı Arəstə. Cəbhə yoldaşları onun əzminə, iradə gücünə heyran idilər. Hamının ümidinə çevrilmişdi Arəstə. Dərd ortağı olmuşdu, ana olmuşdu, bacı olmuşdu əsgərlərə. Yumuşdu, təmizləmişdi, sarımışdı yaralarını. Elə şəfqətlə, elə qayğı ilə yanaşmışdı ki onlara.

– Arəstə, sən özünü çox güllə altına vermə, – deyə komandir ona bərk-bərk tapşırırdı. – Yaralıları biz özümüz çıxardacağıq qaynar nöqtədən. Sən tibbi yardım göstər sadəcə...

Amma Arəstə bacarmırdı. Döyüşün qızğın çağında ürəyi ona: “Get, – deyirdi. – Yubanma!” O da gedirdi. Yaralı əsgərlər onu görəndə zorla da olsa, qalxmağa cəhd edirdilər:

– Sən həyəcanlanma, Arəstə, yaxşıyam. Elə bir şey olmayıb. Cəmi iki-üç güllə dəyib, iki-üç də qəlpə... Vəssalam... Toyumda səninlə bir ləzginka oynayacağam, gəl görəsən...

Əsgər ağrılarını içinə çəkib gülməyə çalışırdı.

– Hələ bir gülürsən də... Gör qolun nə gündədir. Parçalanıb ki...

– Heç nə olmaz. Mən dözürəm. Sən çək, o qəlpələri çıxart yaradan...

Arəstə də bacardığını edirdi. Elə vaxt olurdu ki, günlərlə göz yummadan, doyunca yemək yemədən çalışırdı.

– Al görüm, aç gözünü, bir qurtum su iç. Çox olmaz. Qanın durular, qanaxmanı saxlaya bilmərəm. Təxliyə çatanadək dözməliyik.

– Dözürəm. Hələ Arəstə xanımın qadağası olmasa, çıxıb döyüşə də gedərəm. Sevdiyim qıza şeir də yazmışam.

– De, baxım, görüm.

– Deyim də...

*Bir çiçək də olmadı,*
*Sənə burdan göndərim.*
*Hər yan xarabalıqdır,*
*Haraya üz döndərim...*

*Qanla doyurduq çölü,*
*Lalə bitər yerində.*
*Darıxsan, çıx lalə yığ*
*O kəndlərin birində.*

*Ləçəkləri tökülsə,*
*Hərdən götür, oxşa, qız...*
*Aradabir gülümsə,*
*Hərdən inan naxışa, qız.*

*Dan yeri qızaranda*
*Göz yaşını gizlə sən...*
*Yollara baxma, gülüm,*
*Yorularsan, gözləsən...*

*Çıx bir qaya başına,*
*Gözünlə yol çək, gülüm.*
*Saçlarını oxşasın*
*Bir dəli külək, gülüm.*

*Buluda bax, gülümsə,*
*Ürəklənib ağlasın.*
*Tək deyilsən ki, gülüm,*
*Vətənlə, bayraqlasan.*



– Lap kövrəltdin məni.

– Kövrəlmə... Amma o qızın adını, ünvanını deyəcəyəm sənə... Əgər nəsə olsa...

– Dayan görüm... Hələ bunun vəsiyyət eləməyinə bax. Qarabağı azad etməyincə ölməyə haqqımız yoxdur!

– Biz ölmürük ki... Biz şəhid oluruq. Əbədi həyat qazanırıq...

...Həmin gün Arəstə qızını gördü... Qızının günəş rəngli saçlarını darayıb, hörüb dedi:

– Allaha əmanət ol, qızım...

Gözlərini açanda elə bildi ki, Zəhranın sapsarı hörüyü əlindədir... Sonra gurultu səsindən qulaqları batanda anladı ki, qızı bir anlığa – mərminin küləyi onu vurub yıxanda gəlmişdi gözlərinin önünə... Üst-başı torpaq idi. Arəstə əlini ayaqlarına, qollarına sürtdü... Yerində idi. Mərmi vurub aparmamışdı. Sevindi. Cəld qalxdı. Yıxıldığı ilə qalxdığının arasından cəmi bir neçə dəqiqə keçmişdi. Amma yaralılara kömək edə bilmədiyinə görə özünü günahkar hiss edirdi. Boğazı zəhər kimi idi. Ağzında barıt və tüstülənən torpaq dadı var idi. Saçlarının arasından nə isə axıb üzünə süzüldü. Üzündə ılıq bir iz buraxdı. O, saçlarını yığdı. Əli ilə üzünü sildi. Sonra əlinə baxdı. Qan idi. Qəlpə başından dəymişdi. Yaxında döyüşən Aqşin onun üzünə baxdı:

– Arəstə bacı, yaralanmısan...

– Boş şeydir. Qəlpə cızıb keçib. Ağrı yoxdur. Huşum başımdadır...

– Amma, Arəstə bacı...

– Amması-filanı yoxdur. İki gündür, özün yaralı qolla döyüşürsən. Aqşin, xahiş edirəm, heç kimə bir kəlmə də...

– Olsun, amma özünü pis hiss etsən, de. Təxliyə...

– Danışdıq səninlə... Yaxşıyam. Eşitdin? Görüm sirr saxlaya bilirsənmi?

Yenə mərmi partladı. Torpaq fəvvarə kimi ətrafa səpildi. Arəstə torpaq selinin arxasından Aqşini səslədi:

– Aqşin, salamatsan?





Aqşindən cavab gəlmədi. Arəstə ona tərəf süründü. Aqşinin başı avtomatın qundağına tərəf əyilmişdi. Arəstə qışqırdı:

– Aqşin, səninləyəm. Aqşin...

O, əsgərə tərəf atıldı. Onun tüfəngin qundağına söykənmiş başını qaldırdı. Başı yana doğru əyildi. Arəstə qışqırdı:

– Aqşin, Aqşin, dillən, nə oldu?! Mən sənə "sus" dedim. Amma birdəfəlik yox... Aqşin...

Komandir səngərin içi ilə irəlilədi:

– Başını əy, Arəstə. Otur... O kimdir?

– Aqşin... Komandir...

Komandir özünü onlara çatdırdı. Əlini Aqşinin üzündə gəzdirdi. Pıçıldadı:

– Vətən sağ olsun. İgid oğul idi... Arəstə... Ağlama. Döyüşə gələndə bilməli idin ki, hər gün ölümlə qarşılaşacaqsan...

– Bilirdim, komandir... Aqşin sirr saxlamağı çox gözəl bacarırmış...

Arəstə bunu deyib irəli atıldı:

– Komandir, deyəsən, İzzət yaralandı. Ona ilk yardım göstərim.

– Ehtiyatlı ol. Aqşini snayper vurub. Yəqin, yenə atacaq. Mövqelərinizi dəyişin, uşaqlar. Yerə yata-yata o biri səngərə keçin...

Arəstə İzzətə çatmaq üçün xeyli süründü. Kürəyində tibb ləvazimatları ilə dolu çanta var idi. İzzətə çatıb dayandı. Yarası ağır idi:

– İzzət, necəsən?

– Niyə gəldin? Bura çox atırlar. Qayıt. Özüm sürünüb çatacağam sizə.

– İzzət... Dayan görüm. Necə çatacaqsan?! Hansı ayaqla?!

İzzət ayağına baxdı. Dişlərini qıcadı. Ağrıdan inildədi:

– Hiss etməmişəm... İnanırsan?! Mərmi necə partlayıbsa, qalmışam qulaqlarımın hayına... Sən demə...

Tfu... Lənətə gələsən! Burada heç nə eləmə. Qayıt. Mən də sürünəcəyəm dalınca. Bura təhlükəlidir.

– Amma qanaxmanı dayandırmaq lazımdır. Qoy tibbi qayışla sıxım. Sonra gedək...

Arəstə çantasını açdı. Lazım olan tibbi ləvazimatları axtardı:

– İzzət, sən hələlik əlinlə sıx, saxla... Qannnnnn...

Arəstənin sözü ağzında qaldı. Üzüüstə yıxıldı. İzzət əlini ayağından çəkdi. Arəstəyə tərəf süründü:

– Vurdu səni əclaf. Düz köksündən nişan alıb. Murdarlar... Lənətə gəlmişlər... Səs ver mənə, sağsan?! Cavab ver... Sən mənim bəlama gəldin... Allahım...

***

Arəstə üçün səma şəfəqlə dopdolu idi... Günəşin telləri onun saçları arasında sayrışırdı... O şəhid olmuşdu. Bu zirvəni fəth etmək necə ecazkar bir səadət idi. Dodaqlarındakı təbəssüm onun çox xoşbəxt olduğundan xəbər verirdi. Çox, çox, çox xoşbəxt... Bu səadət bu savaşın boyuna biçilmişdi sanki... Bədr döyüşü idi, nədir? Mələklərmi dolaşırdı od tutub yanan bu sevgili vətən torpağında...

"Sevgilim, Vətən... Mən sənin qoynunda ölmək üçün gəldim. Mən sənin səmalarına yüksəlmək üçün yaşadım... Ruhumu zəfər müjdəsi ilə sevindir, Rəbbim..."

Ruhlar nə gözəl pıçıldayır. Arəstənin ruhunun pıçıltısına buludlar ağladı, göy üzü mavi-çəhrayı parıltı ilə doldu... Qızılgül ətirli uçuş onu yerdən ayırdı, amma Vətəndən ayırmadı... O yalnız indi Vətənə qovuşdu... Bu ali eşq uğrunda fəda oldu...

...Dünyanın işinə bax... Onun adı Vətənin qapqara mərmər daşına yazılmalı imiş... Şəhidlik elə bir zirvə idi ki, o zirvəyə yalnız layiq olanlar, seçilmişlər, Rəbb qarşısında məqamı uca olanlar qalxa bilərdi... Arəstə qalxdı o müqəddəs zirvəyə. Yüzlərlə döyüşçü qardaşı ilə birlikdə...



# AĞ UÇUQ ZİRVƏSİ UĞRUNDA ŞƏHADƏT



Vətən müharibəsinin şəhidi
Baş leytenant Rüstəmov Ruslan Nüsrət oğlunun
əziz xatirəsinə...

O kənd dağların arası ilə uzanan yolun üstündə qərar tutub. Yerdən üzü səmaya doğru boylanan dağların, təpələrin arasında. Günəş dağların arxasından azca baş qaldıran kimi o kənddə həyat qaynayır... Sıra-sıra nar ağacları arasından üzü dağlara gedən yollarda insanlar görünməyə başlayır... Maşınlar şütüməyə başlayır... Ta o dağların arxasından boylanan günəş elə o dağların başındakı bəmbəyaz qarın parıltısı ilə kəndi baş-başa buraxanadək yollar insanlara sığınır... İnsanlar yollara... Sonra kənd şər qarışar-qarışmaz yuxuya gedir. Yuxusunda qar işığında parıldayan al-qırmızı narların pıçıltısını dinləyir... Onların kövrək söhbətini sinəsinə yığır, qəlbinin sirr yerində, sehr yerində uyudur... Və günlərin bir günündə həmin kənd yuxudan səksəkə içində oyanır... Qəfil bir nar çatlayır budaqda... Qəfil çatlayan narın yaqut rəngli dənələrlə naxışlanmış canından dağların bəmbəyaz qarına qan rəngində damcılar çilənir. Kənd titrəyir... Nar nədən xəbər verir?! Nəsə deməyə çalışır... Onun pıçıltılarını kənd canından keçirir. Kənd qarlara çilənmiş o al-qırmızı damcıları torpağına-daşına çəkir... Günəş də dağların qarına səpələnmiş nar dənələrinin qırmızı yanaqlarında kədərlə parlayır... Ətrafa alov rəngli işıq yayılır. Elə bil kimsə çağırır:

– Ruslan, heyyy...

Səs dağların qoynunda dolanıb əks-səda verir. Uğuldayır, yüksəlir:

– Russs-lannn, heyyy...

Sonra günəş şüalarını dağların qoynundan çəkir, üzüaşağı şütüyüb kəndə doğru yeriyir, axtarıb müqəddəs ocağı tapır...





Ocağın hər bucağına səpələnir... Sonra aynabəndin qoynuna atılır, arxası ilə işıqlı cığır aça-aça beş körpənin qayğısız təbəssümlə uyuduğu otağın qapısından içəri süzülür. İlıq şəfəqlərini o körpələrin kirpiklərində gəzdirir. Pıçıldayır:

– Şəhadətin mübarək, oğul...

Körpələr tərpənir. Qıpqırmızı yanaqları, süd ətirli dodaqları gün nurunda sayrışır... Günəş bir də pıçıldayır:

– Körpələrin Rəbbə əmanətdir, igid... Rahat uyu... Uca Rəbb əmanətləri bərəkətində böyüdər...

Həmin gün dağlar arasındakı Şorbaçı kəndi Vətənə ilk şəhidini verir. İlk şəhidin beş körpəsini qürurla bağrına basır... Onlara atalıq edir Şorbaçı kəndi. Onları dağlarının sinəsi ilə qoruyur, onları torpağının hərarəti ilə isidir, onları küləyinin mehri ilə əzizləyir... Və həmin o gün 10 yaşlı Nərminlə 10 aylıq Mədinə iki bacı və bir qardaşı ilə on illərin şəhid balalarına çevrilir...

***

“Torpaq, uğrunda ölən varsa, Vətəndir!” deyən ulumuzun qəlbindən qopan bu sözlər torpağı Vətən edənlərin şüarına çevrilir bu müharibədə...



Baş leytenant Ruslan Rüstəmov da orduda xidmət etdiyi illər ərzində hər zaman belə düşünmüşdü. Əsgərləri ilə də söhbətləri elə bu mövzuda olardı. Gözünü N saylı hərbi hissəni əhatə edən çinarlara zilləyib baxar və deyərdi:

– Ali Baş Komandanın bir əmri ilə dağ yerindən oynayar. Qan uddurarıq torpağımızda at oynadanlara... Görərlər, papaq altında necə igidlər yatıb.

Əsgərlər komandirlərinin döyüş əzmi ilə vuran ürəyinin döyüntülərini duyar, onunla öyünərdilər. O isə arzularını bir-birinə calayar, azad Qarabağ xəyalı ilə deyərdi:

– Təki səfərbərlik elan olunsun. Ondan sonrası artıq bizlikdir. İnanmıram, kimsə özünü bu yurdun sabahına cavabdeh saymasın. O hansı əsgərdir ki, savaş eşqi ilə yanmır?! Özü də elə-belə savaş yox, haqq işi uğrunda. Vətən uğrunda.

– Doğrudur, komandir.

– Həmişə hazırıq, komandir.

– Şair necə deyib:

*Bura Vətəndir, balam,*
*Gülü bitəndir, ünü yetəndir...*
*Bura Vətəndir... Bura Vətəndir...*

Bu məsələnin həllini oğullarımıza saxlamağa haqqımız yoxdur. Nədən gələcək nəsillərə bu ağırlıqda yük qoyub gedək ki?!

***

...Tərtər istiqamətində qızğın döyüşlər davam edirdi. Haqq uğrunda ölüm-dirim savaşına qalxmış əsgərlərimiz düşmənin bu istiqamətdə yaratdığı beton istehkamları yarmaq üçün torpağın hər qarışını qanları ilə suvarırdılar. Yaralanan döyüşdən çəkilmirdi, təxliyə edilən özünü əsgər yoldaşları və Vətən torpağı önündə





günahkar sayırdı. Döyüş əzmi və yurd sevgisi bütün ağrıları yox etmişdi, bütün sevgiləri "Vətən sevgisi" adı altında birləşdirmişdi. Baş leytenant, bölük komandiri Rüstəmov Ruslan yenə öndə idi. Yenə bütün həmlələrə qarşı durmağa çalışırdı:

– Komandir, siz yalnız əmr edin. Biz əmri yerinə yetirərik. Çox irəli gedirsiniz. Beş körpəniz var... Mən isə subay oğlanam. Tək bir canım var, bir anam... Bir də...

– Bir də sevgilin, eləmi?!

– Sevgilim Vətəndir... Amma sizin beş balanız var axı...

– Əsgər, unutma! Mənim də sevgilim Vətəndir... Onun yolunda baş qoymaq şərəfdir.

Komandirin bu sözləri hər şeyə nöqtə qoydu. Üzündə sevinc var idi. Gözləri fəxrlə baxırdı. Düşmənin müdafiə səddini yararaq tapşırılan bir neçə yüksəkliyi azad etmişdilər. Şəhidləri və yaralıları çox olmuşdu. Amma onlar sağ idi... Talış kəndinə və Suqovuşan yoluna nəzarət üçün Ağ uçuq yüksəkliyini almalı idilər. İndi qərar tutduqları, dəniz səviyyəsindən 1300 metrdən artıq yüksəklikdə yerləşən bu zirvə azad edilməli idi ki, düşmənin Ağ uçuq zirvəsindən əks-həmlələri səngisin və əlaqə yolları nəzarətə götürülsün...

Bölmələr sübh tezdən hərəkətə başlamışdı. Amma artıq əməlli-başlı döyüş üstünlüyü var idi. Onları atəş altında saxlayan düşmənin 82 mm-lik minaatan batareyasının mövqeləri dağıdılmışdı. Soyuqdan, döyüşdən qorxub dəhşət içində geri çəkilən işğalçı ordunun xeyli sayda canlı qüvvəsi məhv olunmuşdu.

Onların irəlilədiyi əraziyə "Qaranlıq meşə" deyərdi bir zamanlar yerli camaat. Müşahidə getdikcə çətinləşirdi:

– Komandir, göz gözü görmür, getdikcə müşahidə çətinləşir...

– Bilirəm... İyirmi metrdən o yana görüntü yoxdur. Ehtiyatlı olun, uşaqlar. Səsi tutub gedin. Danışmaq, gülmək, pıçıldaşmaq qadağandır...





– Gülmək ha... Gülmək üçün heç bir əsas yoxdur. Gülümsəmək necə, o olar?!

Ruslan özü də gülümsündü. Kinolent kimi beş körpəsinin gözləri keçdi xəyalından...

– Olar, əsgər, olar. Amma xəyala dalmamaq şərti ilə...

Güllələr meşəni dəlib keçirdi. Təkcə əsgərlər döyüşmürdü. Sanki hər ağac sinəsini düşmən gülləsinə sipər etmişdi. Hər palıd öz kürəyində bir igidə daldalanacaq vermişdi. Meşə savaşının döyüşçüsü olmuşdu sıra-sıra ağaclar.

– Gör nə yağdırır gülləni. Dolu kimi... Amma xeyri yoxdur. Bu savaşdan zəfər əsgəri kimi çıxacağıq...

– İrəli...

– Vur, komandir, vur...

Ruslan sərrast atıcı idi. Göydə uçan quşu gözündən vurardı... Əlbəyaxa döyüşdə də məharətli idi. O kəndin sərt təbiətinin, soyuq qışının, qarlı dolanbaclarının yetirməsi idi bu bölüyün komandiri. Duman maviliyi çökmüş gözlərinin dərinliyində nifrət də bir ayrı rəngə çalardı, sevgi də...

Ağ uçuq uğrunda döyüşlər bütün günü davam etdi. Meşələrdən burulan yol zirvəyə doğru uzanırdı. Bu zirvəni ələ keçirmək göz gözü görməyən meşə yolu ilə irəliləyənlərin səmaya ucalan arzuları idi. O arzuya gedən yol isə sona çatmaqda idi...

– Komandir... Komandir... Uşaqlar, komandir vuruldu...

Ruslan başından yaralanmışdı. Qan alnı ilə şırım açıb üzünə süzülürdü...

Susuz dodaqları yalnız bir cümlə pıçıldayırdı:

– Zirvə görünür...

Əsgərlər dağlara tərəf baxdı. Görünən Ağ uçuq zirvəsi idi... Şəhid baş leytenantın gördüyü zirvə isə bütün zirvələrin ən yüksəyi idi... Ağ uçuq zirvəsinə qalxan yolda vurulan komandir Vətənin azadlığı uğrunda şəhidlik zirvəsinə yüksəlmişdi. O müqəddəs zirvədən Ağ uçuq əl

içi kimi görünürdü. O zirvədən bütün Vətən görünürdü. Həmin zirvədən bütöv Vətən görünürdü. Kimsə pıçıldadı:
– Şəhadətin mübarək, komandir! Başın sağ olsun, Vətən...
Sanki dağlar bayatı çağırdı, sanki cığırlar nəğmə oxudu:

*Bu yol dağa qalxır, hey...*
*Dağ yolu daşdan keçər...*
*Daşa baş qoyanların*
*Yolu savaşdan keçər...*

*Daş üstə uyu, oğul,*
*Yum gözünü daş üstə...*
*Dağlar öz zirvəsindən*
*Daş versin, qoy baş üstə...*



# ŞƏHADƏTİN ZİRVƏSİ – VƏTƏN



Vətən müharibəsinin şəhidi
Qənbərov Bilal Xanlar oğlunun
əziz xatirəsinə

Gurultudan yer-göy silkələnirdi. Top, minaatan mərmiləri göydən dolu kimi ələnir, yerin altını üstünə çevirirdi. Torpaq sanki yerdə deyildi, göydə idi. Sanki üstündə ağaclar, kollar, çiçəklər bitən məkan deyildi, şəlaləydi torpaq. Mərmi, güllə, dəmir və daş qırıntıları püskürən, qorxu, dəhşət və ölüm ələyən bir şəlalə... Günəş bu torpaq şəlaləsinin qara-qəhvəyi sıçrantıları arasında əriyib qeybə çəkilmişdi. Bulud topaları bu torpaq şəlaləsinin tozundan-dumanından qaralmış halda göy üzünün ağır barıt qoxulu qoynundan asılı qalmışdı. Donmuş, lal baxışlarını tüstü və alov içində Vətən uğrunda savaşanlara zilləmişdi.

Bölük axşama doğru yerini dəyişdirib əlverişli mövqe seçmişdi. Manevr edərək düşmənin atəş mənzilindən xeyli aralanmışdı. Döyüşçülər şər vaxtının ala-toranında buz kimi torpağa söykənib nəfəslərini dərir, qartal kimi iti və sərt baxışlarını uzaqlarda gəzdirib gedəcəkləri son nöqtəni bələdləyirdilər.

Bilal haradansa süzülüb qulağına gələn bir səsin bəxş etdiyi sevincdən gülümsəyir, nəğməyə bənzəyən sehrli civiltinin bir notunu belə qaçırmamaq üçün ehtiyatla nəfəs alırdı.

– Gülürsən... Xeyirdir?

– Nazlının səsi gəlir qulağıma... Bayaqdan sizin eşitdiyiniz gurultu səslərini mən eşitmirdim... Qulaqlarımda Nazlı gülür, Nazlı çağırır, Nazlı nəğmə oxuyur...

Kürəyini yarğandakı qayaya söykəmiş əsgər zorla da olsa, gülümsündü. Bilalın Nazlısını bölükdə hamı tanıyırdı artıq.

– Öz aramızdır, əla əyləncən var ha... Nazlıya da afərin ki, bu odun-alovun içində səsi ilə gurultunu batıra bilib.

Komandirin yaxınlaşdığını görən kimi Bilal üzündəki təbəssümü gizlətməyə çalışdı. Komandir bunu sezdi, əlindəki gecə görmə cihazını boynundan asıb oturdu:

– Bu dəhşətin içində gülümsəməyə güc tapırsınızsa, deməli, ruhunuz güclüdür, sizinlə hər cür keçilməz dağı, meşəni aşmaq olar.

Komandir ətrafa nəzər saldı. Kürəyini torpağa dayayıb dincini alanları əli ilə çağırıb ətrafına yığdı.

– Ərazini gözdən keçirmişəm. Rabitə əlaqəsi kəsilib. Səmti müəyyən etmək çətinləşib. Sadəcə, bir şey bilirəm: bu gecə meşəni keçməliyik. Meşənin sıxlığı, təhlükəsi, bataqlıq, yoxsa quru olması, düşmən mövqelərinin olub-olmaması barədə heç bir məlumatımız yoxdur. Qarşıda rastlaşacağımız hər şey bəxtəbəxtdir...

– Heç nə istəmirəm, bircə ovuc su olsa, bəs edər. İçib, hara əmr eləsəniz, ora gedərəm. Boğazım necə quruyubsa, udquna bilmirəm.

Nazimin sözləri hamının həsrətində olduğu su istəyini təzələdi. Rəşad silahdaşının sözünə qüvvət verdi:

– Hə, yəqin ki, Vətən öz sevdalıları üçün otunun-yarpağının arasında bir ovuc su saxlamış olar. Gözümün qarşısında ağacların dibində səssizcə qaynayan bir bulaq canlanır. Üstü qaralıb-çürümüş xəzəllə örtülü.

Susuzluqdan yanan Nazim həvəsə gəldi:

– Qoy mən davam edim. Ən ləzzətli yeri... Qulağına bulağın həzin zümzüməsi gəlir. Ətrafa göz gəzdirirsən.





Səs gələn yeri axtarıb tapır, əlinlə qəhvəyi-qızılı xəzəli təmizləyib, göz yaşı kimi işıltılı səthdə özünün qapqara hisə-pasa bulanmış sifətinin əksini görürsən. "SU", – deyə xəfifcə gülümsünür və qoşa ovcunu bu gözəlliklə doldurub başına çəkirsən...

Bilal bir anlığa qulağındakı səsdən ayrılıb pıçıldadı:

– İndi, düşmən oğlu düşmən, gəl dur bizim önümüzdə, görüm necə durursan.

Komandirin səsi gəldi:

– Durun, uşaqlar, şər qarışır. Getdik. Meşədə su tapacaqsınız.

Partlayış səsləri çoxdan eşidilmirdi. Buludlar kəndin üzərinə enən qaranlıqda itmişdi. Barıt ətirli axşam səssizliyi hökm sürürdü. Bölük kollu, tikanlı cığırla meşəyə doğru irəliləyirdi. Sanki ağrı hissini itirmişdilər. Tikanlı kollar paltarlarını didir, ayaqlarını və əllərini yalayıb keçir, kürəklərinə çırpılırdı. Arabir İsa-Musa quşunun nigaran nəğməsi eşidilirdi. Aydın dağılmış, viran qoyulmuş kəndin mənzərələrini kədərlə seyr edir, yaşarmış gözlərini gizlətməyə çalışırdı:

– Hər şey məhv olub, kənddəki evlərin bünövrə yeri belə bilinmir.

Bilal oxuyan quşların səsinə qulaq verdi:

– Amma həyat var, Aydın. Dinlə, quşların səsi gəlir.

Rəşad uşaqlığının şən xatirələrini vərəqləyən səsin hansı quşa aid olduğunu bilirdi:

– Gör quşlar necə oxuyurlar. İsa-Musa quşlarıdır. Nənəm belə əfsanə danışırdı ki, əkin əkəndə yorulub yatan iki qardaşın öküzləri itib. O gündən bəri quşa çevrilən bu iki qardaş öküzlərini axtarır, qorxularından kəndə qayıtmırlar. Nəğmələrinə qulaq as: "İsa, tapdın? Musa, yox..."

Komandir işarə ilə "sus" dedi.

Bilal yenə öz dünyasına döndü. Bu dünya Nazlının gülüşləri ilə naxış-naxışdır. Bu gülüşlər içində Nazlı

kəpənək kimi uçur. Öz uşaq dilində nələrsə deməyə çalışır. Aydın olmayan kəsik-kəsik sözlər gülüşlərinə qarışıb ətrafa səpələnir. Bilal da ona qoşulur. Eyni dildə danışırlar. Bu dili yalnız xoşbəxt ata-bala anlayır. Nazlı balaca əllərini onun üzündə gəzdirir, boynunu qucaqlayır, balaca başını atasının sinəsində gizlədir...





– Qənbərov!
– Mən!
– Diqqətli ol... Geri qalırsan.
– Oldu!

Meşədə hərəkət eləmək lap çətin imiş. Ağac və kolların sıx və keçilməz olduğu ilk addımlardan hiss edilirdi. Hərdən üstünü mamır örtmüş bataqlığa düşürdülər. Ağır döyüşlər və uzandıqca uzanan yollar əsgərləri yormuşdu. Meşəyə girib daldalanmaq, heç olmasa, bir-iki saatlıq dincəlmək imkanı qazanmaq, sonra yollarına davam etmək niyyətində idilər.

Haradasa qurd ulayırdı. Ulartı bəzən elə uzun olurdu ki, adama elə gəlirdi, bu səs heç kəsilməyəcək. Ayın bozumtul işığı seyrəklik olan yerləri azacıq aydınladır, sonra yenidən sıxlıq başlayır, vəhşi heyvan səsləri eşidilir. Onlar təxminən 4 saat irəlilədikdən sonra azdıqlarına tam əmin oldular. Kəndə iki saatlıq məsafə olduğunu bilirdilər. 4 saatlıq gedişin sonunda isə nəinki kənd, heç adicə tala belə gözə dəymirdi.

Günəş odlu şar kimi üfüqü yarıb çıxdı. Sübh toranlığını dağıtdı... Göy üzü işıldadı. Meşəyə aydınlıq çökdü. Kimsə pıçıldadı:

– Su...

Sonra hisdən qaralmış ovuclar suya doğru uzandı. İlk uzanan əl üst-üstə qalaqlanmış xəzəli ehtiyatla yanlara doğru təmizlədi. Xəzəlin altında su işıldadı.

– Aram-aram götürün. Bulandırmayın ki, hamı içə bilsin.

Ovuclar su ilə dolub-boşaldı. Yanğısı sönmüş ciyərlərin sevinci üzlərdə işıldadı. Ağızların barıt acısı yuyulub təmizləndi. Başlar ayazıdı, düşüncələr aydınlaşdı...

Komandir dedi:

– Qumqumalarınızı da doldurun. Hələ ki yolun sonu görünmür.

Sonra kimsə üzünü səmaya tutdu... Suya qovuşduran günəşi salamladı. Bilal Nazlısını düşündü: "İndi yatıb, yəqin. Gül ətirli yatağında... Qızım..."

– Baxın, nə var burada.

– Meşə əzgili. Üstü də dopdolu.

– Su içdik. Əzgil də yesək, yolu mütləq tapacağıq. Nənəm deyirdi ki, bir loğma bir dağ aşırar. Su və qida mühüm qərarların qəbulu üçün beyinə dopinqdir.

– Bəsdir, filosof...

– Baxarsınız...

Doğrudan da, az sonra meşəyə sığınmış kəndin görüntüləri canlandı gözləri önündə. Kənddə tüstülənən bir baca, bacası salamat olan bir dam, damı üstündə saxlayacaq bir divar yox idi. Bir həyətdən it hürüşü, xoruz banı eşidilmirdi. Sanki illər öncə yer ikiyə bölünmüş, bu qərib-qərib baxan kəndi evləri, insanları, heyvanları ilə birlikdə udub, qara bağrında uyutmuşdu.

Əsgərlərin bataqlıq çamırı ilə dolub ağırlaşmış çəkmələrinin toxunuşu ilə kəndin dərdlə dolub-daşan sinəsindən kədərli bir ah qopdu. Bu ah əsgərləri titrətdi. Bilal içini çəkdi:

– Hər yeni görüntü daha dəhşətlidir...

Komandir susmaq əmri verdi:

– Ərazi qeyri-müəyyəndir. Düşmən postları çox yaxında ola bilər. İki nəfər irəli getməli, ərazini öyrənib xəbər gətirməlidir.

Bilal komandirin əmrini anındaca beynindən keçirdi. Elə bil hansısa bir səs ona pıçıldayırdı: "O iki adamın biri sən olmalısan!". İrəli keçdi:

– Komandir, icazə verin, mən gedim.

Komandir onu diqqətlə süzdü. O qədər də cüssəli deyildi. Amma olduqca cəld idi.

– Olsun, Qənbərov.

Aslan Məmmədov irəli çıxdı:

– Komandir, onun körpə qızı var. Mənim isə heç kəsim yoxdur. Uşaq evinin qapısını arxamca örtüb çıxan





gündən qapımdan girən bir qan qohumum belə olmayıb. Tam azad və sərbəstəm. Olanım-qalanım – Vətəndir. Başqa heç kəs...

Bilalın geri durmaq fikri yox idi. Komandir onun qətiyyətli sifətinə baxdı:

– Yaxşı, Qənbərov. Bu, çətin tapşırıqdır. Məmmədovla get. Get, qoy gələcəkdə qızına danışmağa xatirən çox olsun... Cəmi 40 dəqiqə vaxtınız var.

Bilal əsgər gödəkcəsinin cibindəki qumbaranı yoxladı. Yerində idi. Əsir düşmək təhlükəsi olsa, özünü də, düşməni də partladacaqdı. Bölükdən xeyli aralanmışdılar. Qarşıda yerlə-yeksan edilmiş yurd yerinin xarabalıqları görünürdü. Günəş bu xarabalıqları isitməyə çalışsa da, oradan qalxan soyuq hava sümüyə işləyirdi. Sanki günəş buranı isidə bilmirdi.

Günlərin aclığı, susuzluğu, sıx meşədə canlarına çökən rütubət, ağırlaşmış əsgər çəkmələri və olduqca çətin tapşırıq... Amma bütün bunları öz işığında boğan Nazlı ətri verən xatirələr də var idi. Bu xatirələrin verdiyi dözüm inanılmaz idi...

– Bilal... Bax...

"İtiqovan"ın zərbəsindən düşmənin hərbi yük maşını aşmışdı... Yük maşınının ətrafı ön xəttə köməyə gedən düşmən əsgərlərinin cəsədləri ilə dolu idi. Axşamkı partlayışdan ətrafda yanğın olmuşdu, hər yer tüstülənirdi.

– Aslan, yaxın getmə. Birdən sağ qalan olar...

– Yəqin... Gözləmək lazımdır.

Nəfəslərini çəkib ağacın gövdəsinə sindilər. Beş dəqiqəyə yaxın dayandılar. Dinlədilər. Bilalın səbri çatmadı.

– Gedirəm maşına tərəf. Aslan, sən burada dayan. Bir şey olsa, bizimkilərə xəbər çatdır.

Aslan Bilalın qolunu məngənə kimi sıxdı:

– Mən Nazlının gözlərinə necə baxaram?! Mən gedəcəyəm. Sən gözlə.

Mübahisəyə vaxt yox idi.

– Qumbaranı hazır saxla. Düşmən mühasirəsinə düşsəm, qorxma, qumbaranı at. Düşməni məhv elə. Söz ver, Bilal.

– Söz...

Aslan maşına doğru addımladı. Çatdı. Cəsədlərin arası ilə asanlıqla keçdi. Qapını açdı... Başını sükana söykəyəni aşırıb yerə saldı... Arxaya keçib yük yerinə baxdı... Əli ilə Bilala "gəl" işarəsi verdi... Bilal ehtiyatla irəlilədi. Birdən arxadan Aslanı nişan alan yaralı düşmən əsgərini gördü. Bir an ötsə, Aslan şəhid olacaqdı. İnsan qanadsız da uça bilərmiş. Bilal qartal kimi endi düşmənin başına. Bir güllə ilə onu zərərsizləşdirdi. Aslan səsə döndü. Ölümün bir addımlığında olmanın həyəcanı sezildi sifətində. Bilala minnətdarlıqla baxdı:

– Var ol, qardaş...





Geri dönəndə komandirin təyin etdiyi 40 dəqiqə hələ tamam olmamışdı. Gözəl xəbər, quru çəkmələr və tərs üzünə çevrilib geyinilmiş isti gödəkcələr. Qənimət götürülmüş ərzaq isə yeni döyüşə atılmağın əsas şərtlərindən biri idi.

Az sonra bölük kənddən bir az aralıdakı erməni postlarını darmadağın etdi...

...Yol isə uzandıqca uzanırdı. Azad edilmiş kəndlər və şəhərlər, qazanılmış qələbələr, fəxr, qürur və alınmış qisas. Bu yol günlərdən və həftələrdən keçib düz Şuşa ilə nəfəs-nəfəsə qalanadək davam edəcəkdi... Bilal dağların duman örtüyü arxasından bozaran Şuşanın əzəmətli görüntüsünü bəbəklərində əbədiləşdirib özü ilə şəhidlik zirvəsinə qaldıracaqdı...

***

...Qapı döyüldü... Hərbi geyimli iki nəfər özlərini təqdim etdi:

– YAŞAT Fondundan gəlmişik...

Onlar gətirdikləri bayram payını Bilalın ailəsinə verdilər. Nazlı kəpənək kimi uçub özünü yetirir. Diqqətlə gələnlərə baxır. Sonra gözlərini anasına zilləyir. Onların gətirdiyi hədiyyə qutusunun üzərində əsgər şəkli var. Nazlı şəklə baxır, sonra dizlərini yerə qoyub bapbalaca əlləri ilə sığallayır, öpür və pıçıldayır:

– Ata göndərib? Özü haradadır? Gələcək, hə, ana?

– Yox, qızım. Demişəm axı sənə. Gəlməyəcək... Çünki o, səmalardadır, gözəlim... Oradan hər gün sənə baxır...

– Uçub gedib?

– Hə, qızım... Uçub gedib...

– Gəl biz də uçaq... Olar, ana?

– Hara, qızım?

– Ora... Atanın yanına...

Nazlının balaca barmaqları səmaya tuşlanmışdı... Ananın gözlərindəki yaş damlalarının parıltısında o barmaqlar almaz kimi bərq vururdu. O, Nazlının səmanı göstərən əllərindən tutub öpür və pıçıldayırdı: "Sən burada qal, qızım... Atanın azadlığı uğrunda şəhadətə yüksəldiyi Vətənin gözəl günlərinin şahidi ol, yetər... Hər gün böyüyən boyunla onun arzularını böyüt..."





# XİLASKAR ƏSGƏR

Vətən müharibəsinin iştirakçısı
Məmmədzadə Orxan Təbriz oğluna
ithaf olunur.

Artıq günlərdir ki, Füzuli rayonu uğrunda qanlı döyüşlər gedirdi. On illər ərzində özünə dəmir-beton istehkamlar, betonla möhkəmləndirilmiş yeraltı yollar, qazmalar, kilometrlərlə uzanan səngərlər quran düşmən mövqeyinin alınmaz olduğunu fikirləşirdi. Gizləndikləri və daldandıqları yerdən gülləni dolu kimi yağdırır, "yenilməz" olduqlarını düşünür və qürurlanırdılar. Gülüş və qışqırıqları uzaqdan eşidilirdi...

Amma Qarabağ uğrunda haqq savaşına qalxan Azərbaycan Ordusunun qarşısını heç nə ala bilmirdi. Əsgər və zabitlərimiz döyüşə sonsuz bir əzmlə qatılırdılar, döyüş meydanında yorulmaq və yenilmək nə olduğunu bilmirdilər...

Səhər tezdən girmişdilər döyüşə... Bir kəndi almaq tapşırığı ilə günə başlayan bölüyün əsgərləri artıq üçüncü kəndi azad edib irəli şığıyırdılar. Nə yemək haqqında düşünən var idi, nə yatmaq... Amma arabir barıt acılı boğazlarını qumqumalarındakı su ilə isladır və yenidən "İrəli!" deyə əmr verən komandirin çağırışına atılırdılar...

Düşmən artıq dördüncü kəndi azad etməkdə olan müzəffər döyüşçülərin öhdəsindən gələ bilmirdi. Axşamüstü idi. Atəş kəsilmişdi. Yəqin, bu meydandakılara heç

nə ilə qalib gəlməyin mümkün olmadığını anlayan düşmən mövqelərini tərk edib qaçırdı...

Qarşıda böyük bir tikili görünürdü. Yorulmuş əsgərlər bu tikiliyə ümidlə baxırdılar. Daldalanmaq və dincəlmək üçün münasib yerə bənzəyirdi.

– Bəlkə, gedək, içinə baxaq?

– Fermaya oxşayır.

– Məncə də... Amma orada gecələyə bilərik. Heç nə olmasa da, bir qalaq ot, ya da saman olar...

– Hə... Nə yataram o samanın içində. Yorğunluqdan başım üstümdə durmur.

– Mənim də... Həm də başıma səs düşüb. Elə bil qulaqlarımın pərdəsi partlayıb. Partlayış səslərindən beynim uğuldayır.

– Vüqarla Kamran da yaralıdır.

– Fərid də...

– Hə... O da qolundan yaralanıb. Onların da yarasını təmizləyib sarımaq lazımdır.

– Komandir...

– Eşidirəm, Məmmədzadə.

– Komandir, deyirəm, bəlkə, gedib o tikiliyə baxaq. Görək daldalana bilərik?!

– Hə... Mən də bayaqdan oranı gözaltı eləmişəm... Baxaq. Amma iki nəfər getsin. Gözdən keçirib qayıtsın. Hamı bir yerdə girə bilməz...

Orxan yerindən qalxdı:

– Mən gedərəm.

– Əsgər Quliyev Həsən, əsgər Məmmədzadə Orxan... Ehtiyatla obyektə yaxınlaşın. Pusquya düşərsiniz. Ətrafı nəzarətdə saxlayın. Oldumu?!

– Oldu, cənab kapitan.

– O zaman sizə uğurlar...

Fermadan zəif işıq gəlirdi... Ətrafda ins-cins gözə dəymirdi. İçəridə uşaq ağlayırdı...

– Buradan səs gəlir. Eşidirsən? Uşaq ağlayır.





– Eşitdim. Hə... Çox pis ağlayır. Bəs niyə onu ovudan yoxdur?!

– Maraqlıdır...

Sürünə-sürünə pəncərələrin birinə çatdılar. İçəri baxmaq istədilər. Heç nə görünmədi.

– Şüşələr çox çirklidir. İçəri görünməyəcək. Həm də uşağın səsi o başdan gəlir... Qapıya doğru gedək...

Divarlara qısıla-qısıla qapıya tərəf getdilər. Uşağın səsi kəsilmirdi... Qapılar taybatay açıq idi. Ortalıq törtöküntü içindəydi... Həsən pıçıldadı:

– Qaçıblar... Hər şeyi də tökə-tökə gediblər.

– Bəs uşaq?

– Hə. Uşaq bu otaqdadır... Lap körpədir ki...

Otaqda çarpayının üstündə 6-7 aylıq bir uşaq var idi... Ağlamaqdan sifəti gömgöy olmuşdu. Gözləri az qala həlqəsindən çıxırdı...

Orxan irəli keçib uşağı götürmək istədi. Həsən onu saxladı:

– Dayan. Hara? Bəlkə, uşağa partlayıcı bağlayıblar?

– Onlardan nə desən, çıxar. Öz körpələrinə də qıyarlar. Təki iyrənc xəyalları həyata keçsin. Gəl uşağın belinə ip ataq və bir az sürüşdürək kənara...

– Yaxşı...

İpi kəmənd kimi bağlayıb uşağın başından atdılar. Belinə sürüşüb düşəndə çəkdilər. Partlayıcı yox idi. Orxan qaçıb uşağı götürdü. Ağlamaqdan uşağın nəfəsi kəsilmişdi.

– Acdır. Hə... Görmürsən, gözləri necə baxır. Allah bilir, nə vaxtdan qoyub qaçıblar... Namərdlər. Allah balanızı versin...

Ətrafa baxdılar. Masanın üstündə çörək qırıqları var idi. Orxan qurumuş çörək dilimini su ilə isladıb uşağın ağzına yaxınlaşdırdı. Körpə acgözlüklə çörək dilimini sümürdü. Ağzını marçıldatdı. Yenə də qışqırıb ağladı.





– Həsən, uşaq acdır. Üzülüb. Burada qalsa, öləcək. Siz dincəlin. Mən onu arxaya aparım. Səhra xəstəxanasına təhvil verim, qayıdım.

– Başın xarabdır?! O boyda yolu necə gedib-qayıdacaqsan?! O baş-bu baş azı 16 km olar. Yorğun, ac halda...

– Yox, aparacağam, Həsən.

– O da böyüyüb erməni olacaq. Sənin oğluna silah çəkəcək, Orxan...

– Dədəsi kimi qorxaq olacaq, qorxma... Mən atalarla döyüşürəm, uşaqlarla yox. Erməni deyiləm ki, Xocalıdakı kimi günahsız körpələri parçalayım... Aparım onu...

...Orxan uşağı adyala büküb kürəyinə bağlamışdı. Belə daha asan idi yüyürmək. Deyəsən, düşmən əsgəri onu görmüşdü... Aramsız atırdı. Amma hədəfi düz nişan ala bilmirdi... Orxan bərk qaçırdı. Yorğunluqdan tez-tez yıxılıb-dursa da, bütün gücünü səfərbər edib irəliləyirdi...

Minaatan mərmisi xeyli aralı düşsə də, torpaq qalxıb başından aşağı səpələndi, yerdən qalxan daş, çınqıl qırıntıları üzünü-başını cızıq-cızıq elədi. Durub yenidən qaçdı, partlayış səsi beynində uğuldayırdı... Uşağın səsi kəsilmişdi. Amma sağ idi. Orxan onun nəfəsini kürəyində hiss edirdi. Yəqin, körpə aclıqdan və yorğunluqdan yuxuya getmişdi.

...Orxan səhra xəstəxanasına çatanda az qala huşunu itirəcəkdi... Amma gəldiyi yolu geri qayıtmalıydı. Səhər açılan kimi yeni döyüş tapşırığını yerinə yetirməyə yollanacaqdılar. O vaxta qədər özünü dostlarına yetirməliydi... Yol uzaq olsa da, ruhu güclü və rahat idi... Çünki körpə bir can xilas etmişdi.



# 44 GÜNLÜK MÜHARİBƏDƏN ŞTRİXLƏR

Biz 44 gün döyüşdük... 30 ilin qəhəri düyünlənmişdi boğazımızda. Dərdi, nisgili daşa dönmüşdü qəlbimizdə, həsrəti göz yaşı kimi süzülüb yanaqlarımızı dağlamışdı... Biz savaşa hazır idik... Canımızla, qanımızla, balamızla, evimizlə... Hər şeyimizi qurban verməyə qərarlıydıq. Şərəfimizi qazanmaq üçün! Ağ alınla gəzmək, həsrətdən qovrulan yurd yerlərimizə "Biz qayıtdıq, Vətən!" demək üçün. Biz bu savaşın ən qaynar yerində mərmi aparmış qolumuzla, qopub düşmüş ayağımızla, sinəmizə sancılıb qalan güllələrlə qanımız axa-axa savaşmağa hazır idik... Biz yad tapdağından inləyən torpağımızı qanımızla suvarmağa niyyətliydik... Bu yurdun əsgəri yer üzündən göy üzünə ucalan dağ ola bildi, sinəsini vəhşiliyə sipər edən sal qaya ola bildi, yenilməz, sarsılmaz, məğlubedilməz olmağı bacardı.

## 30 İLDİR, YARALIYIQ

*Əsgər yaralı səngər yoldaşına:*

*– Yaranı sarıdım. Amma çox dərindir. Hospitala getməlisən.*

*– Eh... Mən dözərəm. Təki döyüşdən qalmayım... Birinci dəfə deyil ki... 30 ildir, yaralıyıq...*

"30 ildir, yaralıyıq" deyən əsgərə yazdım bu şeiri.
30 ildir, yurd yanğısı ilə yaşayan əsgərə...

## AZƏRBAYCAN ƏSGƏRİNƏ

*Ey Yer üzünü əzmi ilə mat edən əsgər!*
*Sən yurdumun aslan kimi mərd əsgərisən, bil...*
*İllərdir, kül altında yanan köz kimi gəldin...*
*Gəldin, igidim, sözümə qüvvət olan söz kimi gəldin...*
*Gəldin... Nəfəsin gör nə yaman düşməni qarsıdı,*
*Yandı bədəni, ahı-vayı aləmi basdı...*
*Qarşında divarlar yıxılıb bənd-bərə açdı,*
*Düşmən qəzəbindən yox olub düzlərə qaçdı...*
*Ey Yer üzünü əzmi ilə mat edən əsgər!*
*Səndən uca Yer üzünün sıldırımı yox...*
*Vurdun ürəyindən o xəbis düşməni, vurdun...*
*Çarəsi bulunmur, nə gözəl, qaldırımı yox...*
*Səndən igid əsgər, oğul olmayıb, aslan,*
*Səndən cəsur Yer üzünə gəlməyib əsla...*
*Ey Yer üzünü əzmi ilə mat edən əsgər!*
*Səndən uca kainatın yüksəlişi yox.*
*Sən gördüyün iş haqq işidir, başqa işin yox...*
*Rəbmi endirdi səni Yer üzünə Yer alışanda!*
*Dedi: "Şimşək kimi çax şər qarışanda..."*
*Dedi: "Al yurdu, Vətən torpağı dürdür..."*
*Kim dedi, Haqq yox olub, Haqq bunu gördü...*
*Haqq igid əsgərimə verdi polad qol...*
*Dedi: "Səndən keçir, əsgər, Vətənə yol!"*
*Dedi: "Dur, yurdu azad et, oğlum, dur..."*
*Dedi: "Vur, tez nişan al, düşməni vur".*

Qürurla yazdım bu şeiri. Qürurdan, fəxrdən kövrələ-kövrələ... Bu yurdun mərd əsgəri qarşısında baş əyə-əyə yazdım... Dosta, doğmaya, Vətənə sədaqətli əsgər üçün yazdım...





## BİLİRDİM Kİ, GƏLƏCƏKSƏN

*– Dostum vuruldu, komandir. Dostum vuruldu... Komandir, çıxartmalıyam onu. Qoya bilmərəm onu orada...*

*– Əsgər, mən sənə icazə vermirəm. Ora çox təhlükəlidir... Görmürsən, göydən od yağır?! Səni təhlükəyə ata bilmərəm...*

*– Komandir. Xahiş edirəm... Bəlkə, sağdır. Bəlkə, son ümidi...*

*– Bu qədər ki israrlısan, get. Allah qorusun...*

*Əsgər havanı xətt-xətt cızan güllələrin arası ilə dostunun köməyinə tələsir...*

*Möcüzə baş verir sanki. Dolu kimi yağan güllələrin arası ilə əsgər dostunu qolları üstə alıb atəş xəttindən salamat çıxır...*

*Səngərə qayıdır. Komandir onun qolları üstündəki əsgəri alıb yerə qoyur. Əlini onun üzündə gəzdirir və pıçıldayır:*

*– Vətən sağ olsun... – sonra başını qaldırıb üzünü əsgərə tutur, – yaralanmamısan ki?!*

*– Xeyr, komandir.*

*– Böyük riskə atdın özünü.*

*– Nə yaxşı ki, atdım. Yoxsa onun yaddaşında etibarsız dost olaraq qalacaqdım.*

*– Sağ idi sən çatanda?!*

*– Sağ idi, komandir...*

*– Vəsiyyət elədi sənə?!*

*– Vəsiyyət eləmədi... Mənə baxıb gülümsünüb dedi: "Bilirdim ki, gələcəksən!"*



Bu əhvalat yazıçı təxəyyülünün məhsulu deyil. Buradakı bizim əsgərdir. Minlərdən biridir... İllərlə torpağımızda at oynadan düşmənin canına qorxu salanlardan biri... Sonrakı əhvalatın da qəhrəmanı həmin o minlərdən biridir... Fəxrlə söhbətlərini ağızdan-ağıza ötürdüyümüz, nəğmələrini su kimi ruhumuza çilədiyimiz, rəqslərini sevə-sevə izlədiyimiz əsgərlərdən biri...

## MƏNİ VUR, YOLUNUZA DAVAM EDİN

*Əsgər:*

*– ...Gəlib çatmışıq dağın ətəyinə. Suqovuşan istiqamətində. Əmr veriblər ki, dağa qalxın. Gördüm ki, yaralarım imkan verməyəcək dağa qalxmağa. Ayaqlarım lap tutulmuşdu. Gizir Əliyarov Rəşada dedim:*

*– Döyüşə gedirsiniz. Mən sizi gecikdirərəm. Sizə yük olaram. Məni vur, yolunuza davam edin... Rəşad, nə olar...*

*– Sən ölmüsənsə, mənim sağ qalmağım ölümdən betərdir. Səni özüm qaldıracağam... Dağı birlikdə qalxacağıq...*

Mən sizə 44 günlük müharibəmizin ştrixlərini çatdırmaq istəyirəm. Olduğu kimi, nöqtəsini və vergülünü dəyişmədən... Nağıldan və əfsanədən fərqlənməyən şücaətlərini tarixin yaddaşına yazmaq istəyirəm. Şəhadətə ucalanların mavi-çəhrayı işıqla dolu uçuşunu sizinlə birlikdə seyr etmək istəyirəm.





## MƏN GÖRDÜYÜMÜ SİZ GÖRMÜRSÜNÜZ

*Ruslan:*

*– Ülvi Kərimli var idi. Cəsur döyüşçü... Allah ona qəni-qəni rəhmət eləsin. Döyüşdüyümüz yüksəkliyə raket düşmüşdü. Raketin qəlpəsi Ülvini, yalan olmasın, iki yerə bölmüşdü. Ağlayıb qışqırırdım: "Ülvi, gözünü yumma..." Amma o, gözlərini yumdu... Yumdu və açdı... Ülvinin son nəfəsində dediyi bir cümlə ömrümün sonunadək yadımdan çıxmaz. O, gözlərini qaldırıb səmaya baxdı və gülümsündü. Gülüşü üzünü işıqlandırdı. Üzündə təbəssümlə: "Mən gördüyümü siz görmürsünüz..." – dedi. Bu sözü neçə dəfə təkrarladı: "Mən gördüyümü siz görmürsünüz..." Sonra elə gülə-gülə də şəhid oldu...*

Yurd uğrunda savaşa qalxan əsgər bayrağı sinəsinə sıxdı. Yarasını ovutdu onunla. Başının üstünə qaldırdı. Başından daha ucalara qaldırdı. Yerlə göy arasındakı mübarək məkanda, sıldırımlar qoynundakı daş salnaməmizin – Şuşamızın üzərində ucaltdı... Cəbrayılımızın, Qubadlımızın, Zəngilanımızın, Füzulimizin, Ağdamımızın, Kəlbəcərimizin, Laçınımızın səmasını üç möhtəşəm rənglə məsud edə bildi...

### QALADAKI BAYRAĞIM

*Qaladakı bayrağım,*
*Göyə necə yaxınsan...*
*Qorxma, buludlar tutar,*
*Həyəcandan yıxılsan...*

*Dəniz səviyyəsindən*
*Yaman uzaqlaşmısan...*
*Şuşayla qol-boyunsan,*
*Rəblə qucaqlaşmısan...*

*Bu hündürlük illərin*
*Xəyalıydı, deyilmi...*
*Qulağına ruhların*
*Pıçıltısı dəyirmi?!*

*Süzürmü göy üzündə*
*Qartalları Şuşanın...*
*Səninlə açılıbdır*
*Qandalları Şuşanın...*

*Sinəndəki qırmızı*
*Şəhid qanıdı, bayraq...*
*Bu Qala üstdə dünya*
*Səni tanıdı, bayraq!*

*Qaladakı bayrağım,*
*Qalan mübarək olsun!*
*Səni sinəsi üstə*
*Alan, mübarək olsun!*

*Göydən yerə baxanda*
*Əzmin dağı parçalar!*
*Şuşa – dağ başında yurd!*
*Yurdda bayraq ucalar!*

Biz yurdda bayraq ucalda bildik. "Vətəndir mənim oğlum" deməyi bacaran ataların böyütdüyü oğullar bayrağımızı elə bir zirvəyə ucaltdı ki, həmin zirvədən bayrağımızı bütün dünya gördü.





## VƏTƏNDİR MƏNİM OĞLUM

*Şəhid Murad Musayevin atası:*
*– Vətəndir mənim oğlum. Vətən sağdırsa, oğlum sağdır...*

Biz bu savaşa bütöv xalq olaraq qalxdıq. Dünyanın hansı nöqtəsində yaşamağımızdan asılı olmayaraq, bir yumruq kimi birləşdik. Bütövləşdik, bərkidik və düşmənin zərbələrinə davam gətirmədiyi həmin o "dəmir yumruğ"a çevrilə bildik...

## İZMİRLİ ƏJDƏR MÜƏLLİM

*Həkim:*

*– 44 günlük müharibənin dəhşətli anları idi. Yaralıları yerləşdirmək getdikcə çətinləşirdi. Qol, ayaq sınıqları ilə daxil olanların sayı artırdı. Gərəkli cihazlarımız isə çatışmırdı. "Fiksator" dediyimiz tibbi qurğu hava-su kimi lazım idi. Sınıqları sabit vəziyyətdə saxlamaq üçün o cihaza, hətta onun bir neçəsinə ehtiyac böyük idi. Nə edəcəyimizi bilmirdik. Cihazların qiyməti çox bahaydı. Onları lazım gələn sayda əldə etmək qeyri-mümkün idi... Kimə üz tutacağımızı bilmirdik... Qəfil ağlıma gələn ad beynimi işıqla doldurdu. İzmirdə tibb təhsili almışdım. Orada hamının yaxşı tanıdığı azərbaycanlı Əjdər müəllimi xatırladım. Başqa yolum yox idi. Yaralıların üzünə baxa bilmirdim. Zəng etdim. Əjdər müəllim cavab verdi. Nə lazım olduğunu soruşdu. Dedim. Heç bir an belə tərəddüd etmədən dedi: "Gözləyin. Sabahkı reyslə Bakıda olacaq cihazlar". – "Cihazlar" deyəndə gözlərim doldu. Ağlamaqdan özü-*

mü zorla saxladım. Düşündüm: "Deməli, bir neçəsini göndərəcək". Səhər tezdən cihazlar artıq Bakıda idi. İki saatdan sonra isə mən işlədiyim xəstəxanada...

Yaralandıq... Yaramızı gizlətdik...
Sınan qolumuzu, paralanan sinəmizi gizlətdik.
Təki döyüşə gedək. Təki arxaya göndərilməyək.
Sağ əlimiz olmadı, sol əlimizlə çəkdik tətiyi...
Amma hospitalların otağındakı çarpayılarda yer almaq istəmədik... Döyüşdük...





## DÖYÜŞƏ NƏ VAXT QAYIDA BİLƏRƏM

*Həkim danışır:*

*– Yaralı əsgərlərdə döyüş əzmi o qədər yüksək idi ki, hətta ayağının kəsilib düşməyinə yanmırdı. Yenidən döyüş bölgəsinə qayıda bilməyəcəyinə yanıb-yaxılırdı. Bəzən yaralını xilas etmək üçün üstündə eyni anda üç həkim briqadası işləyirdi. Təsəvvür edirsiniz?! Bir qrup həkim ayaqlarına "Elizarov" cihazı qoyur, ikinci qrup qarın boşluğunda əməliyyat aparır, qəlpənin doğrayıb-tökdüyü bağırsaqları bərpa edir, üçüncü qrup başının ənsə yarığında qalmış qəlpəni çıxardır. Onlarla həkim bir döyüşçünü həyata qaytarmağa çalışır. Yaralı isə narkozdan ayılan kimi ilk sualını ünvanlayır: "Döyüşə nə vaxt qayıda bilərəm?!"*

Bir evdən 4 oğul getdi cəbhəyə. Bir evin atası oğulları ilə çiyin-çiyinə vuruşdu... Bir ananın gözünün nuru ilə böyütdüyü iki oğul eyni gündə, eyni anda şəhid oldu... Əyilmədik. Sınmadıq. Sarsılmadıq... Göz yaşlarımızı görən olmadı... Hıçqırığımızı içimizdə boğduq...

## BƏHMAN VƏ İMAN

*Eyni gündə şəhid olan Bəhman və İman qardaşlarının atası:*

*– Dedim, bala, halallıq, bəlkə, biriniz gedəsiniz?*

*İman dedi:*

*– Olmaz. Ata, mən istədiyimə çatmalıyam.*

*Ata kövrəlir:*

*– Mən Bəhmandan soruşdum, dedim: "Ay bala, qardaşının arzusu nədir?" Dedi: "Ata, o, Vətən yolunda şəhid olmaq istəyir. Amma qorxma, mən onu bu fikirdən daşındıracağam". Həştərxanda dənizçilik məktəbində oxuyurdular. Bir erməni*

*müəllimləri vardı. Bir gün İmana deyib ki: "Gəl məktəbin qarşısında görüşək". İman onun əlini itələyib deyib ki: "Sənin əlin mənim xalqımın qanına batıb, mən səninlə görüşmərəm..." Elə bil döyüşə getmirdilər, sevincləri hədsiz idi... İnsan da döyüşə belə gedərdimi?!*

Yaralımız yaralı dırmandı sıldırımları, sağlamımız sağlam. Şəhidimiz çiynimizdə qalxdı Şuşamıza... Barmaqlarımızı qayaların daşı apardı, üzümüzü dağların ayazı... Qar içində, yağış altında yatmağı, üstümüzə duman yorğan çəkib yaş geyimlərdə günlərlə döyüşməyi özümüzə borc bildik... Vətənə oğul olmağı bizdən yaxşı bacaran olmadı.

## ŞUŞAYA BİRLİKDƏ GİRƏCƏYİK

*Komandir şəhid dostunu kürəyində daşıyan əsgərə deyir:*

*– Vətən sağ olsun. Şəhidləri qaldırmağa indi təxliyə gələcək. Sən belə çox davam edə bilməzsən, oğlum...*

*Əsgər:*

*– Yox, komandir. Biz sözləşmişdik ki, Şuşaya birlikdə girəcəyik. Mən Şuşaya onsuz girə bilmərəm...*

Düşmən ordumuzla bacarmadı... Gecələr ova çıxan çaqqallar kimi mülki insanlarımızı bombaladı. Naftalan, Tərtər, Bərdə... Və Gəncə... İnsanların uca-uca evlərini dağıtdılar, isti-isti ocaqlarını kor qoydular, körpə-körpə balalarını dağıntılar altında inildətdilər... Bu yurdun ordusuna düşmənin gücü çatmadı. Namərd-namərd işlər gördü, qara-qara mərmilər uçurtdu, ağ-ağ damları yıxdı... O damların altında qocalar, qadınlar, körpələr can verdi... O daşların altında körpələrin çəhrayı saçlı gəlincikləri qaldı... Körpələrin şən gülüşləri o daşlara dəyib çiliklendi...





## MƏRYƏMİ ŞÜŞƏNİN ALTINDAN ÇIXARTDILAR

*Jurnalist:*

*– Gəncədəyik... Erməni terrorunun baş verdiyi yerdə. İndi bu terror hadisəsinin necə baş verdiyini bizə bu evdə yaşayan 6 yaşlı Aylin danışacaq. Aylin, partlayış necə baş verdi? Sən onda yatmışdın?*

*– Bəli, yatmışdım. Məryəmi şüşənin altından çıxartdılar. Heç anam da tapa bilmirdi...*

*– Kim çıxartdı Məryəmi?*

*– Anam...*

*– Sonra nə oldu?*

*– Damlar yox oldu, aynalar qırıldı. Divanlar, döşəklər, yorğanlar yerə atılmışdı. Evlər dağılmışdı.*

*– Sən indi özünü necə hiss edirsən?*

*– Yaxşı...*

*– Bəs Məryəm?*

*– O da yaxşıdır...*

*Onlar axşam yaşadıqları evin xarabalığında dayanıblar. Jurnalist daş qalaqlarını göstərir:*

*– Bax, görürsən, bura tamam dağılıbdır. Əvvəl necəydi bura?*

*– Bura? "Qəpqəşəng" bir ev idi. Qəşəng, gözəl bir ev... Yekə ev idi...*

*– Sən indi ən çox nə üçün darıxırsan?*

*– Bir kuklam var idi... Onun üçün... Adı Elza idi...*



Xalq yenilmədi... Xalq dağılmış evinin xarabaları arasından bayrağını çıxartdı. Bayrağa sığınıb güclü olmağı bacardı. Orduya dəstək oldu xalq, arxa oldu... Uca Rəbbə üz tutub güc istədi, dözüm istədi, səbir istədi, sülh istədi... Həkimi, müəllimi, mühəndisi, çörəkçisi, çəkməçisi ilə... Hərə öz bacardığını etdi... Gecələri sübhədək bayraq tikənimiz də oldu, qazan-qazan döşəməplov bişirib əsgərə çatdıranımız da, hospitallarda yaralımıza qaşıq-qaşıq şorba içirdənimiz də...

## DÜZ GƏL, DÜZ GƏL, YALVARIRIQ

*Həkim:*

*– Xəstəxanaya şəhid və yaxud yaralı gətirəndə bir neçə dəqiqə öncə zəng edirdilər ki, qarşılamağa hazır olaq. Yığışırdıq xəstəxananın giriş darvazasına doğru açılan pəncərənin önünə. Həyəcanla gözləyirdik. Əgər təcili yardım maşını düz gəlirdisə, deməli, maşındakı yaralı idi, sağa dönürdüsə, şəhid. Morq sağda idi.*

*Ürəyimizin səsi qulaqlarımızda eşidilirdi. Həyəcandan dilimiz söz tutmurdu. Maşın həyətə daxil olan kimi başlayırdıq yalvarmağa:*

*– Düz gəl, düz gəl, yalvarırıq... Düz gəl, Allah eşqinə...*

*Maşın düz gələn kimi sevinclə qışqırıb xəstəni qarşılamağa qaçırdıq...*

...Şəhərlər, kəndlər qayıtdı. Yağmalanmış, yandırılmış, yıxılmış, yaralanmış halda... Ağrımış, qolu budağı qırılmış, damları, daşı-divarları uçurulmuş, məzarlıqları yerlə yeksan olmuş halda... Ruhları sərgərdan, quşları yuvasız, fəsilləri azmış yurdlarımız...





*Qış gəlibdır, qapıdadır,*
*Qar yağmağa dam gəzəcək.*
*Qar üstündə iz qoymağa*
*Bir əziz adam gəzəcək...*
*Ay bu yurdu viran edən,*
*Qış ahı yaman olur ha...*

*Daş qoymadın daş üstündə,*
*Ağ damı daşdan elədin...*
*Bir yurdu daş-daş çevirdin,*
*Bir eli başdan elədin...*
*Daşlara "daş" deyib keçmə,*
*Daş ahı yaman olur ha!*

*Quşlar süzür başı üstə,*
*Ağac yox ki, qursun yuva...*
*Ağdama yağışlar yağır,*
*Qan izini yuyur hava...*
*Sənə bir söz pıçıldayım,*
*Quş ahı yaman olur ha!*

30 ilin yanmış arzularının külü altında itmiş uşaqlığımızı, gəncliyimizi aradıq. Tapmadıq... Minalanmış çöllər bizi o yurd yerlərinin yandırılmış divarlarını oxşamağa, sevməyə, sinəmizə sıxmağa yol vermədi... "Dayan, – dedi... – Düşmənin çox mənfurdur, – söylədi... – Qapqara ayaqlarının izlərini o torpaqlardan silmək üçün hələ çalışmalısan", – pıçıldadı... Ev-ev gəzdi əsgər. Azad etdiyi o obaları dolaşdı... Azdı o yollarda... Evini, ocağını, yurdunu tapa bilmədi... Çalınmış, talanmış əşyalar nələr demədi, nələr danışmadı?!

## SAXSI GÜLDAN

*Düşməndən azad edilmiş Hadrutda boşaldılmış evlərdən birində iki əsgər söhbətləşir:*

*– Bax saxsı güldana...*

*– Güldandır da. Elə bir özəlliyi yoxdur...*

*– Var... Üstünü oxu...*

*Oxuyur:*

*– "Gülnarədən Zəhraya xoş arzularla..."*

*– Gördün?*

*– Əclaf... Hansısa bir azərbaycanlı evindən çırpışdırıb.*

*– Təkcə güldanı yox ki... Yaşadığı bu evi oğurlayıb, bu kəndi, bu şəhəri... Bu yurdu oğurlayıb...*

*Əsgər güldanı götürüb çantasına qoyur:*

*– Niyə götürdün? Nəyinə lazımdır?*

*– Aparım... Axtarıb tapım yiyəsini...*

*Əsgər saxsı güldanı özü ilə oddan-alovdan keçirdir... Ünvana çatdırır...*

Döyüşdü əsgər... Vətən qarşısında borcunu sədaqətlə yerinə yetirdi. Körpəsinə ala bilməyəcəyi gəlinciyi alıb qoydu, öpə bilməyəcəyi gözlərindən xəyallarında öpüb şəhadətə qovuşdu. Vətənə əmanət etdi körpələrini...

## MƏDİNƏ VƏ FİRƏNGİZ ÜÇÜN GƏLİNCİK

*Həkim:*

*– Xəstəxanada mənim kabinetimdəki dolabın siyirməsində bir gəlincik var. Yaralı əsgərlərdən biri gətirmişdi. Cibindən çıxardıb mənə verdi. Dedi: "Həkim, bunu döyüşçü yoldaşım verdi. Dedi, nə olar, nə olmaz. Həyatdır... Qoy qalsın həkimin otağında. Qızlarıma almışam – Mədinə ilə Firəngizə... Müharibədən sağ çıxaram, özüm gəlib apararam, çıxmaram, kimə istəyərlər, verərlər..."*





*Həkim kədərlə dedi:*

*– Hər gün gözləyirəm ki, özü gəlib götürəcək gəlinciyi... Hələ bir xəbər yoxdur...*

Körpələrimiz mikrofona tez alışdı... Körpə-körpə canlar şəhid balası kimi çıxdı kameraların qarşısına... Nağıllardakı qəhrəman şahzadələrə çevrildilər atalar. Bir ömrü şərəflə yaşayıb, şərəflə ölməyi üstün tutdu igidlərimiz. Balalarına ustad dərsi verib, ucaldılar şəhidlik zirvəsinə...

## QARDAŞIM DEYİR Kİ, ATAM "PÇİ" ALMAĞA GEDİB

*Şəhid balaları həyatlarının ilk müsahibəsini verir...*

*Qız:*

*– Qaydaşım deyiy ki, atam "pçi" almağa gedib...*

*Oğlan:*

*– Düz deyirəm də... Gedib... İnanmırsan?!*

*Qız başını tərpədir. Gülümsəyir:*

*– İnanıyam...*

## BAXIŞOVA ARƏSTƏ KƏRİM QIZI
(04.05.1989-23.10.2020)



*Azərbaycan Ordusunun çavuşu, hərbi tibb qulluqçusu kimi Füzuli, Zəngilan və Qubadlı uğrundakı döyüşlərdə yaralanmış hərbçilərə döyüş meydanındaca tibbi yardım göstərib. Qubadlı döyüşləri zamanı yaralıları döyüş meydanından çıxararkən şəhadətə qovuşub.*

## DÖVLƏTZADƏ CƏBRAYIL DÖVLƏT OĞLU
(11.09.2001-28.09.2020)



*Əsgər Dövlətzadə Murovda strateji əhəmiyyətə malik düşmən postunun alınması üçün 11 zabitlə əks-hücum əməliyyatında iştirak edib. Gülləsi qurtaran igid əsgər düşmənin yüksək rütbəli zabitləri ilə əlbəyaxa davada onları boğaraq öldürüb. Elə həmin döyüşdə də şəhid olub.*

## ƏSGƏROVA SALATIN ƏZİZ QIZI
(16.12.1961-09.01.1991)



*Jurnalist Salatın Əsgərova yazdığı məqalələrdə, əsasən, Azərbaycan torpaqlarının bütövlüyü ilə bağlı məsələlərə toxunar, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. Şuşaya yollanarkən Qaladərəsi kəndi yaxınlığında pusquda durmuş ermənilər tərəfindən amansızcasına qətlə yetirilib.*





## HƏŞİMOV POLAD İSRAYIL OĞLU
(02.01.1975-14.07.2020)



*Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun komandir müavini, qərargah rəisi, general-mayor Polad Həşimov. 2016-cı il Aprel döyüşlərində Talış istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Talış yüksəkliyi onun komandanlığı altında işğaldan azad olunub. Tovuz döyüşlərində tabeliyində olan əsgərlərlə bir yerdə ön xətdə qəhrəmancasına vuruşaraq şəhid olub. Onun şəhadəti Vətən müharibəsinin başlamasına aparan prosesdə mühüm rol oynamışdır.*

## İBRAHİMOV MÜBARİZ AĞAKƏRİM OĞLU
(07.02.1988-19.06.2010)



*Gizir İbrahimov 18 iyun 2010-cu il gecə saat 23:30-da iki ordu arasındakı minalanmış sahəni keçib Ermənistan Silahlı Qüvvələrinin bir neçə əsgər və zabitini öldürür. Sonra isə ermənilərin öz silahlarından istifadə edərək, 5 saat onlarla döyüşərək səhərə yaxın həlak olur.*

## QƏNBƏROV BİLAL XANLAR OĞLU
(29.09.1993-04.11.2020)



*Azərbaycan Ordusunun əsgəri Bilal Qənbərov Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun, Füzulinin və Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə savaşıb. Şuşa döyüşləri zamanı şəhadətə qovuşub.*

## QULİYEV HƏSƏN ADIŞİRİN OĞLU
(11.10.1996-03.11.2020)



*Əsgər Quliyev Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Xocavəndin Tuğ kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.*

## MƏMMƏDOV ƏLİAĞA ELDƏNİZ OĞLU
(26.07.2001-06.10.2020)



*Əsgər Məmmədov Vətən müharibəsini əldə silah səngərdə qarşılayıb. O, Ağdərə istiqamətində gedən döyüşlərdə savaşaraq misilsiz rəşadət göstərib və qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.*

## MƏMMƏDZADƏ ORXAN TƏBRİZ OĞLU
(11.02.1993)



*Vətən müharibəsi başlayan zaman könüllü olaraq ordu sıralarına yazılan çavuş Məmmədzadə Orxan Füzuli, Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib. Manqa komandiri olaraq Məmmədzadə tabeliyində olan əsgərlərə qarşı həmişə qayğıkeş olub.*



## MUSTAFAYEV ÇİNGİZ FUAD OĞLU
(29.08.1960-15.06.1992)



*Jurnalist Çingiz Mustafayev 8 ay ərzində Qarabağ müharibəsi haqqında 18 sənədli film çəkib. Onun Xocalı soyqırımı haqda çəkdiyi film həqiqətləri bütün dünya ictimaiyyətinə çatdırdı. O, Xocalı rayonunun Naxçıvanlı kəndində çəkiliş zamanı aldığı mərmi yarasından şəhid olub.*

## RÜSTƏMOV RUSLAN NÜSRƏT OĞLU
(23.10.1981-03.10.2020)



*Baş leytenant Rüstəmov Vətən müharibəsi zamanı Murovdağ yüksəkliyi, Suqovuşan və Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına savaşıb. "Ağ uçuq" deyilən ərazidə şəhidlik zirvəsinə ucalıb.*

## YUSİFZADƏ XUDAYAR MÜSLÜM OĞLU
(15.07.1998-22.10.2020)



*Kiçik gizir Yusifzadə Murovdağın, Füzulinin, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Zəngilanda Ağbənd qəsəbəsi istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub.*

# MÜƏLLİF HAQQINDA



*Sizə Zəfər savaşımız haqqında həqiqətləri çatdıran* SEVİNC NURUQIZI *uşaq yazıçısı, şair, tərcüməçi, publisistdir. 2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Mədəniyyət" qəzetində baş redaktorun müavini (2003-2006), "Minamedia" nəşriyyat evində "Cırtdan" və "Ümid" uşaq jurnallarının yaradıcı heyətinin direktoru (2006-2007), "İctimai Radio"nun efirində "Çoxbilmiş" və "Nağıl saatı" verilişlərinin redaktoru və aparıcısı (2006-2007), "Göy qurşağı" uşaq jurnalının redaktoru olub (2015-2021). Hazırda "Təhsil" və "Aspoliqraf" nəşriyyatlarında böyük redaktor və uşaq ədəbiyyatı şöbəsinin müdiridir.*

*Qarabağ ağrılarına həsr edilmiş "Qisas" adlı pyesi Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının (2006), "Gəlinciklər" adlı tamaşası Salyan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulub (2006). Azərbaycan, ingilis, Koreya, rus, Belarus, fars dillərində 50-dən artıq kitabı nəşr edilib. Cənubi Koreya Respublikasında üç dildə – Azərbaycan, Koreya və ingilis dillərində "Süreyyanın izində", Türkiyədə "Melisa" və "Gaga və Hamhamın maceraları", Belarusda "Bazqulaq i parı qoda" adlı kitabları işıq üzü görüb. "Sərçəcik" və "Bahar qız əfsanəsi" operalarının libretto müəllifidir (bəstəkarı Oqtay Rəcəbov). Müxtəlif illərdə çap olunmuş şeirlərinə, hekayələrinə, poema və dram əsərlərinə görə respublikanın Mədəniyyət və Təhsil nazirliklərinin, bir sıra yaradıcı birliklərin və beynəlxalq təşkilatların mükafatlarını qazanmış, Türkiyənin İLESAM-Akçağ uşaq ədəbiyyatı roman, hekayə və nağıl – 2018 (kitab dosyası) müsabiqəsində roman janrında olan "Melisa" əsərinə görə birinci yerə (2018) layiq görülüb.*

# İLLÜSTRATOR HAQQINDA



AİDA ƏMİROVANIN *Qarabağla bağlı rəsmlərinə baxanda fərqli bir üslubun, dəst-xətin şahidi olursan. O, Qarabağa aid əsərlərə çəkdiyi illüstrasiyalarda torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə şəhid olmuş atasının – Azərbaycan Silahlı Qüvvələrinin zabiti, mayor Əmirov Niyazinin xatirəsini yaşadır. Sanki fırçaların köməyi ilə ağ vərəqlərə köçən hər güldə, hər çiçəkdə, hər yarpaqda şəhid zabitimizin ətri hiss olunur, izi görünür, rənglər canlanır. Körpəliyindən ata həsrətini ürəyində daşıyan gənc istedad vətənpərvərlik mövzulu rəsmlərində şəhid balasının iftixar hissləri ilə dolu ruhunu əks etdirir. "Əli və Zümrüdün sehrli xalçası" kitabına çəkdiyi illüstrasiyalarda Qarabağ xalçası sanki dil açıb danışır, Şuşaya səyahət edən uşaqlar rənglər dünyasına düşürlər, xarıbülbülün gözəlliyinə heyran qalırlar. "Əli və Zümrüdün sehrli xalçası"ndan başqa, o, "Xarıbülbülün nağılı" "Şahin və Şəhlanın sərgüzəştləri", "Dəmir yolu uşaqları", "Gözəl Bahar", "Tıq-tıq xanım", "Kiçik qəhrəman", "Dəfinələr adası", "Haydi", "Qulliverin səyahəti", "Tom Soyyerin macəraları", "Heklberri Finnin macəraları" kimi uşaq kitablarını illüstrasiyalarla bəzəyib.*

*Aida Əmirova özünəməxsus texnika ilə müxtəlif janrlarda əsərlər yaradan incəsənət nümayəndəsidir. Əsasən, yağlı boya, akvarel, karandaş, quru və yağlı pastel, kompüter planşeti vasitəsilə işləyir. Rəsmləri Azərbaycanda və başqa ölkələrdə keçirilən sərgilərdə nümayiş olunub. Aida Əmirova "Bakı Media Mərkəzi"ndə montaj rejissoru vəzifəsində çalışıb. Rəşadətli Azərbaycan Ordusuna həsr olunmuş çoxsaylı videoçarxın müəllifidir. Hazırda İctimai Televiziya və Radio Yayımları Şirkətində Qrafika şöbəsində qrafik-dizayner kimi çalışır.*




*Vətən müharibəsinin şəhidləri haqqında ətraflı məlumat üçün TEAS Press Nəşriyyat evində nəşr olunmuş "Memorial. Vətən müharibəsi şəhidləri" adlı üçcildlik ensiklopediyaya baxa bilərsiniz.*



XXI əsrin 20-ci ilində Azərbaycan xalqı hərb tarixinə özünün döyüş imzasını atdı. Azərbaycan Ordusunun əsgər və zabitləri sevgili Vətən naminə 44 günlük qanlı-qadalı müharibənin hər anına möhür vurdular. Hər kəndimizin, şəhərimizin işğaldan azad olunması bir Zəfər nəğməsinə çevrildi. Bu nəğmənin müəllifləri öz qanları, canları hesabına döyüş meydanında, qanlı çarpışmalarda yeni bir tarix yazdılar.

Bu kitabda toplanan 22 əsərdə Birinci və İkinci Qarabağ müharibələri dövrünün savaş ruhu, anaların, balaların ağrı-acısı təsvir olunur, döyüşçü ürəyinin sirləri açılır. Xanım yazarın ağır müharibə yükünü daşıyan incə qəlbindən süzülmüş fəlsəfi məzmunlu, eyni zamanda, dinamik, canlı əsərləri oxucunu ağuşuna alır, hadisələrin qızğın gedişi onu sonadək özündən ayrılmağa qoymur: kədərləndirir, ruhlandırır, mübarizə əzmini artırır, Zəfər nəğməsini zümzümə etməyə səsləyir.



www.3alma.az
3 alma
ISBN 978-9952-540-60-4
9 789952 540604
Qiymәti: 9,90₼